# Digər beynəlxalq təşkilatlar

## ATƏM-in sədri İsveçin Xarici İşlər Naziri Marqareta af Uqlas ilə görüşdə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin çıxışı (26 oktyabr 1993-cü il)

Hörmətli qonaqlar!

Məni xəbərdar etdilər ki, rus dilində danışmaq lazımdır, baxmayaraq ki, bizdə dövlət dili Azərbaycan dilidir. Lakin xanım Uqlas və nümayəndə heyətinin üzvləri üçün rus dilindən tərcümə etməyin asan olduğunu nəzərə alaraq, mən rus dilində danışacağam. Bir də ki, bu dili hamı başa düşür.

Mən ATƏM-in sədri, İsveçin xarici işlər naziri xanım Marqareta af Uqlası və nümayəndə heyətinin üzvlərini salamlayır, Azərbaycanda olduqları müddətdə onlara səmərəli fəaliyyət və bizdən ötrü mühüm və çox zəruri olan bu missiyaya uğurlu nəticələr arzulayıram.

Respublikamız elə vəziyyətdədir ki, beynəlxalq təşkilatların, o cümlədən də ATƏM kimi nüfuzlu və geniş beynəlxalq təşkilatın köməyinə və dəstəkləməsinə xüsusilə ehtiyacı var. Biz son vaxtlar ATƏM-lə intensiv əlaqə saxlayırıq, burada müxtəlif tərkibli nümayəndə heyətləri ilə, o cümlədən Minsk konfransının sədri Mario Raffaelli başda olmaqla Minsk qrupunun nümayəndə heyəti ilə görüşmək imkanımız olmuşdur. Biz Azərbaycan Respublikasının taleyi ilə bağlı çox mürəkkəb problemlərin həllindəATƏM-in fəaliyyətinə həmişə böyük ümid bəsləmişik. Bu gün isə ATƏM-in nümayəndə heyətini ən nüfuzlu tərkibdə, xüsusən də ATƏM-in sədri xanım Uqlas başda olmaqla qəbul edirik.

Biz son günlər sizin bəzi ölkələrə səfərinizi diqqətlə izləyir və nəzərdə tutduğumuz cədvələ uyğun olaraq buraya gəlişinizi səbirsizliklə gözləyirdik. Təəssüf edirəm ki, siz Azərbaycana səfəriniz üçün belə az vaxt ayırırsınız. Zənnimcə, Azərbaycanın düşdüyü mürəkkəb vəziyyəti nəzərə alaraq, başqa ölkələrlə müqayisədə bir qədər çox vaxt ayırmaq lazım idi. Lakin biz təvazökarlıq edib bununla da kifayətlənirik.

Sizə yaxşı məlumdur ki, Azərbaycan üçün indi başlıca problem dövlətimizin ərazisində döyüş əməliyyatlarının dayandırılması, Azərbaycanın müharibə vəziyyətindən çıxması və Azərbaycan Respublikasinin suveren hüquqlarının təmin edilməsidir. Bununla əlaqədar biz ATƏM-in fəaliyyətinə çox böyük ümid bəsləmişik və indi də bəsləyirik.

Azərbaycan xalqının, Azərbaycan Respublikasının həyatı ilə bağlı problemlərin həlli sahəsində ATƏM -in bu vaxta qədərki fəaliyyətindən danışsaq, əlbəttə, burada müsbət məqamların olduğunu da deyə bilərik. Lakin bununla belə, bu gün bizim əsasımız var deyək ki, qəti nəticələr baxımından belə deyildir. İndi respublikamızda böhranlı vəziyyət yaranmışdır. Mən bilmirəm, bu, sadəcə təsadüfdür, yoxsa sizin gəlişinizlə əlaqədar xüsusi olaraq yaradılmış şəraitdir, lakin hər bir halda, bizdən ötrü nə qədər böhranlı və faciəli olursa-olsun, indiki vəziyyət real faktdır. Sizin Azərbaycan üçün məhz belə ağır dövrdə buraya səfərinizi respublikamızın bütün vətəndaşları diqqətlə izləyirlər. Buna görə də biz çox istəyirik ki, sizin buraya səfəriniz ATƏM-lə bağlı olduğumuz problemlərin həllində konkret əməli nəticələrlə başa çatsın...

Xanım Uqlas, erməni silahlı birləşmələrinin təcavüzkar hərbi əməliyyatını pisləyən bəyanat verdiyinizə görə ilk növbədə sizə təşəkkür etmək istəyirəm. Həmin təcavüz nəticəsində son günlər Azərbaycanda vəziyyət olduqca mürəkkəbləşmiş və on minlərlə adam daimi yaşayış yerlərini tərk etmişdir və indi ağır müsibət içərisindədir. Zənnimcə, ATƏM-in sədri kimi, sizin bəyanatınızın çox mühüm siyasi əhəmiyyəti var və ümid edirəm ki, həmin bəyanat vəziyyətin dəyişməsinə təsir göstərəcək. Buna görə, sizə təşəkkür edirəm.

Əlbəttə, biz çox istəyirik ki, dövlət müstəqilliyi əldə etmiş Azərbaycan Respublikasının qarşısında duran bütün problemlərin həllində ATƏM-in imkanlarından istifadə edək. Lakin hazırda bizdən ötrü ən kəskin, mühüm problem Azərbaycanın ərazi bütövlüyünü, dövlət suverenliyini, sərhədlərinin toxunulmazlığını, respublikamızın hərbi təcavüzə məruz qalan, həlak olan, daimi yaşayış yerlərini itirən vətəndaşlarının, sakinlərinin həyatının qorunmasını təmin etmək problemdir. Bütün bu vəziyyət böyük faciəyə gətirib çıxarır.

Biz bazar iqtisadiyyatı, demokratiyanın inkişafı, insan hüquqlarının müdafiəsi və demokratik inkişaf yolu tutmuş gənc müstəqil dövlət kimi Azərbaycanın qarşısında duran bütün başqa məsələlərlə bağlı problemlərin həllində ATƏM-in imkanlarından istifadə etmək barədə sizin təkliflərinizi məmnuniyyətlə qəbul edirik. Lakin bir daha qeyd edirəm ki, bizdən ötrü son dərəcə mühüm problem hərbi əməliyyatların dayandırılması və Azərbaycan ərazisinin xeyli hissəsini işğal etmiş qoşunların respublika ərazisindən çıxarılmasıdır.

Son aylar ərzində Azərbaycan Respublikası rəhbərliyinin və şəxsən mənim bu problemin sülh yolu ilə həllinə qəti şəkildə tərəfdar olduğumuzu sübut etməyə ehtiyac yoxdur. Çünki atəşin dayandırılması haqqında dəfələrlə imzalanmış sazişlər də, sonuncu belə saziş də məhz Azərbaycan tərəfinin təşəbbüsü və cəsarət edib deyim ki, şəxsən mənim təşəbbüsümlə mümkün olmuşdur.

Biz bilirik ki, ATƏM siyasi təşkilatdır, onun müvafiq silahlı birləşmələri yoxdur. Eyni zamanda belə hesab edirik ki, ATƏM kifayət qədər nüfuzlu beynəlxalq təşkilatdır və bir halda ki, biz müharibə vəziyyətindən çıxmaqla bağlı problemlərimizin bu məsələnin məhz siyasi yolla həll ediləcəyinə ümid bəsləyirik, deməli, əlbəttə ki, ATƏM-in fəaliyyətindən çox şey gözləyirik.

Gizlətmirəm, respublikanın vətəndaşları da, müxtəlif siyasi xadimlər, o cümlədən müxalifətdə olan xadimlər də, xarici müxbirlər də mənə tez-tez sual verirlər: BMT Təhlükəsizlik Şurasının, istər ATƏM-in Minsk qrupunun, istərsə də, ümumiyyətlə, ATƏM-in dəfələrlə qəbul etdiyi qərarların həyata keçirilməyərək qaldığını bilə-bilə, siz doğrudanmı inanırsınız ki, bu məsələni ATƏM-in qüvvəsi ilə, ATƏM-in, Birləşmiş Millətlər Təşkilatının, onun Təhlükəsizlik Şurasının imkanları ilə həll etmək olar?

Həqiqətən də bu bir faktdır ki, vaxt gedir. BMT-nin Təhlükəsizlik Şurası üç dəfə çox mühüm qətnamə qəbul etmişdir, ATƏM-in Minsk qrupu işğal qoşunlarının Azərbaycan ərazisindən çıxarılması haqqında bir neçə dəfə cədvəl tərtib etmişdir, gah Romada, gah Vyanada, gah da Cenevrədə və daha haradasa dəfələrlə iclaslar keçirmişdir. Özü də dünyanın ən böyük, nüfuzlu beynəlxalq təşkilatlarından - BMT və ATƏM-dən, Qarabağ münaqişəsi deyilən məsələnin həlli üçün ATƏM çərçivəsində xüsusi olaraq yaradılmış Minsk qrupundan söhbət gedir. Lakin onların bütün qərarları yalnız bir tərəfin - Dağlıq Qarabağın ortaya atdığı maneələrlə qarşılaşır. Buna görə də adamlarda istər-istəməz bədbinlik yaranır.

Siz qeyd etdiniz ki, ATƏM-in cənab Mozberq, cənab Sika və cənab Kazimirov kimi nüfuzlu xadimləri də respublikamızın problemləri və atəşin dayandırılması, işğal qoşunlarının ərazimizdən çıxarılması məsələləri ilə ATƏM tərkibində fəal və geniş iş aparırlar. Mən onlara şəxsən hörmət bəsləyirəm, dəfələrlə onlarla görüşmüşəm və fəaliyyətlərinə böyük ehtiramla yanaşıram, şadam ki, onlar bu gün burada bizimlə birlikdədirlər. Lakin bütün bunlar nəticə vermir. Təkrar edirəm, BMT Təhlükəsizlik Şurasının qətnamələri nəticəsiz qaldıqda, həmin bədbinlik istər-istəməz mənə də sirayət edir. Lakin bununla belə əminəm ki, ATƏM-in imkanlarından və əlbəttə, ATƏM vasitəsi ilə Təhlükəsizlik Şurasının imkanlarından indiyədək kifayət qədər istifadə edilməmişdir. Çox istəyirəm ki, bizim sizinlə görüşümüz bu son dərəcə mürəkkəb problemin həllində ATƏM-in daha müvəffəqiyyətli fəaliyyəti üçün başlanğıc nöqtəsi olsun...

Başa düşürəm, ATƏM-in baş katibi vəzifəsi nə deməkdir, onun çox böyük əhəmiyyəti var. Mən baş katibi tanıyıram, onunla Naxçıvanda əvvəlki işimdən tanışam. Lakin indiki halda ATƏM-in sədri ilə ilk dəfə görüşdüyümdən istifadə edərək sizə, sizin bütün nümayəndə heyətinizə, o cümlədən də baş katibə üz tuturam. Siz baş katibə söz verməzdən əvvəl icazənizlə daha bir neçə kəlmə deyəcəyəm, sonra isə baş katibi məmnuniyyətlə dinləyərik. Söylədiyiniz fikirlərlə əlaqədar bir neçə qeydimi bildirmək istəyirəm.

Siz dediniz ki, beynəlxalq təşkilatların imkanları da var, nöqsanları da. Lakin bu zaman siz müvafiq tərəflər arasında bilavasitə əlaqənin zəruri olduğunu da xatırlatdınız. Siz haqlısınız ki, əvvəlki Azərbaycan rəhbərliyində bu cəhət çatışmırdı. Mən bunu yüksək qiymətləndirirəm ki, siz bu məsələyə Azərbaycan rəhbərliyinin münasibətində dəyişiklikləri, o cümlədən mənim şəxsi münasibətimi qeyd etdiniz. Amma siz razılaşmaya bilməzsiniz ki, Azərbaycan tərəfindən münasibətin dəyişməsi bu məsələnin həlli üçün daha əlverişli şərait yaratmalı idi. Bir necə ay bundan əvvəl Azərbaycan rəhbərliyi Dağlıq Qarabağla heç bir əlaqəni qəbul etmir və yaxın qoymurdu. Odur ki, mən bu əlaqələrlə bağlı addımlar atmağa başladıqda Azərbaycanın müxalifəti və Azərbaycanda bəzi dairələr tərəfindən çox böyük tənqidə məruz qaldım. Mən bunu məhz sizin dediyiniz prinsipləri əsas tutaraq edirdim. Lakin indi mən həmçinin bununla əlaqədar tənqidə məruz qalıram ki, atdığım addımlar müsbət nəticələr verməkdənsə, əksinə, vəziyyətimizi daha çox pisləşdirmişdir. Bir diqqət yetirin, iyunda Mario Raffaelli başda olmaqla nümayəndə heyəti buraya gəldikdə biz onunla görüşdük, o, Bakıda, Ağdam rayonunda, Qarabağda, Yerevanda oldu. Biz əvvəllər ermənilər tərəfindən işğal olunmuş Kəlbəcər rayonundan qoşunların çıxarılması cədvəli ilə tamamilə razı idik, lakin Mario Raffaelli Azərbaycandan getdikdən bir neçə gün sonra Ermənistan silahlı birləşmələri Ağdam rayonunu işğal etdilər. Buna baxmayaraq, biz bundan sonra da Ermənistanla əlaqələr saxladıq, şəxsən mənim Levon Ter-Petrosyanla əlaqələrim oldu, sonra bizim rəhbərlərin Dağlıq Qarabağ rəhbərləri ilə, o cümlədən parlament sədrinin müavini Afiyəddin Cəlilovun, baş nazirin müavini Abbas Abbasovun, ordumuzun baş qərargahının rəisi Səfər Əbiyevin əlaqələri oldu. Bu şəraitdə də respublikamıza qarşı təcavüz davam etdi, həm Ağdam, həm Füzuli, həm Cəbrayıl, həm də Qubadlı rayonları işğal olundu. Biz barışıq haqqında saziş bağladıq. O da pozuldu. Sağ olun ki, sazişin Ermənistan tərəfindən pozulduğu barədə bəyanat verdiniz. Son günlər hərbi əməliyyatlar nəticəsində on minlərlə adam acınacaqlı vəziyyətə düşmüşdür. Dünən onların bir qismi İmişli rayonunun ərazisinə qayıtmışdır. ATƏM-in nümayəndələri də oraya getmişlər. Onlar qaçqınların nə vəziyyətdə olduqlarını öz gözləri ilə görəcəklər. Budur mənim əlaqələrimin nəticəsi.

Gərək ki, dünən sizə Azərbaycanın xəritəsini göstərdilər. İndi vəziyyətin necə olduğu göz qabağındadır. Zəhmət olmasa, bir baxın. Budur, daha aydın xəritə. Dağlıq Qarabağa tamamilə ermənilər nəzarət edirlər. Sonralar Laçın rayonu işğal olunmuşdur. Bir baxın, il yarım bundan əvvəl bu, necə bir ərazi idi. Bu ilin aprel

ayının əvvəllərində Kəlbəcər rayonu, sonra 150 min nəfərdən çox əhalisi olan Ağdam rayonu, Füzuli, Cəbrayıl, Qubadlı rayonları işğal olundu.

Zəngilan rayonu mühasirədədir. Dünən çox çətinliklə nail olduq ki, bu rayon işğal edilməsin. Bu məsələ ilə gecədən keçənədək məşğul olduq. Ermənistan işğalçı qoşunları artıq İranla sərhədə çıxmış, Azərbaycan-İran sərhədinin əksər hissəsinə nəzarət edirlər. Əslində münaqişə beynəlmiləlləşdirilmişdir. Bayaq dedim ki, on minlərlə adamımız İran ərazisindədir.

Bəs nə üçün belə olur? Axı biz danışmışdıq ki, atəş dayandırılsın, Dağlıq Qarabağla bağlı məsələyə baxılsın. Amma yeni-yeni rayonlar işğal olunur, Ermənistan tərəfi güc mövqeyindən hərəkət edir və öz şərtlərini qəbul etdirir.

Bütün bu günlər ərzində biz məhz Dağlıq Qarabağla, təbii ki, həmçinin Ermənistan rəhbərliyi ilə intensiv əlaqələr saxlamışıq. Lakin bu əlaqələr bir nəticə vermir. Bax, siz insan hüquqlarının müdafiəsində ATƏM-in mühüm vəzifəsindən danışdınız. Bəs respublikanın bütün ərazisində ağır vəziyyətdə olan bir milyon nəfərdən çox qaçqının hüquqları tapdanmırmı, pozulmurmu? Zəngilanda təxminən altmış min adam mühasirədədir. Bayaq dedim ki, on minlərlə adam İran ərazisindədir. Onların bir qismi Arazdan keçərək İmişliyə qayıtmışdır. Dünən bütün gecə biz bu məsələ ilə məşğul olmuşuq. Dövlət katibi Lalə xanım Hacıyeva sizə bu barədə danışmışdır. Biz bütün şərtlərlə razılaşmışıq. Əgər bu da kömək etməsə, beynəlxalq təşkilatlar-istər BMT, istərsə də ATƏM bir şey edə bilməsələr, onda yalnız Allaha müraciət etməli və ya elliklə səfərbərliyə başlamalı, ya şəhid olmaq, ya da hadisələrin inkişafını dayandırmaq üçün döyüşə atılmalı olacağıq. Yeri gəlmişkən, son günlərin həyəcanlı hadisələri ona gətirib çıxarmışdır ki, xalq məndən bunu tələb edir. Mən bir tərəfdən, bu əlaqələrə razılıq verdiyimə görə tənqidə məruz qalıram, digər tərəfdən isə, tələblər irəli sürürlər ki, biz belə vəziyyətdə olmaqdansa ölməyə, şərəflə, şöhrətlə ölməyə hazırıq. Buna görə də vəziyyət nəinki sadəcə faciəli, hətta ondan da betərdir. Belə hesab edirəm ki, beynəlxalq təşkilatlar bu problemin həllində kömək göstərməlidirlər. Düşünürəm ki, sizin baş katib buna daha konkret cavab verəcəkdir...

Mən sizinlə tamamilə razıyam, bu məsələdə aramızda ziddiyyət yoxdur. Mən artıq bildirdim ki, biz Minsk qrupuna və bütünlükdə ATƏM təşkilatına böyük hörmətlə yanaşır, ona böyük ümid bəsləyirik. Biz bundan sonra da əməkdaşlıq edəcəyik və ATƏM-in Minsk qrupunun səmərəli fəaliyyətinə çox ümid edirik. Lakin mən söhbətimizin əvvəlində dedim ki, xanım Uqlasın bu gün verdiyi bəyanat erməni silahlı birləşmələrinin təcavüzkar hərəkətlərini pisləyən siyasi bəyanatdır. Bunun özünün çox böyük əhəmiyyəti var. Yaxud götürək dünən bu məsələ barədə Rusiya Federasiyasının Xarici İşlər Nazirliyində verilmiş bəyanatı. Həmin bəyanatda erməni silahlı birləşmələrinin son günlər işğal etdikləri ərazidən dərhal çıxarılması tələb olunmuşdur. Bundan əlavə, bizimlə çox fəal əməkdaşlıq edən və bu məsələ ilə geniş məşğul olan cənab Kazimirov dünəndən, Bakıya gəldiyi andan etibarən bu prosesə ciddi şəkildə qoşulmuş, hərbi birləşmələrin son günlər tutduğu ərazidən çıxarılmasına nail olmaq üçün Qarabağla, Yerevanla və bizimlə əlaqə saxlamışdır. Biz gələcəkdə də belə siyasi fəaliyyətə bel bağlayacağıq. Lakin siz bilirsiniz ki, vəziyyət bizdən daha konkret, daha qəti tədbirlər görməyi tələb edir. Adamlar sərhədi keçib İrana getmiş və gecə, demək olar, çılpaq halda, çox çətin vəziyyətdə Azərbaycan ərazisinə qayıtmışdır. Biz onlardan ötrü sığınacaq yeri, əyin-baş tapa bilmirik. Mən hələ onların bütün var-dövlətini, yaxın adamlarını itirmələrini demirəm. Belə şəraitdə biz bütün təcavüzkar hərəkətlərə son qoymalıyıq.

Mən sizin imkanlarınızı realistcəsinə qiymətləndirirəm. Lakin siz də yaranmış vəziyyəti beləcə qiymətləndirməli və görülə biləcək tədbirlərə, ola bilsin, ən qəti tədbirlərə, realistcəsinə yanaşmalısınız. Axı, səbrin də sonu var. Buna görə də mən bir daha bu məsələnin siyasi yolla həllinə tərəfdar olduğumu bildirirəm. Məsələnin siyasi yolla həlli isə yalnız sizin iştirakınızla, sizin geniş fəaliyyətiniz nəticəsində mümkündür...

Bu fikirdə qalmaq istəyirəm: biz inanırıq, ümid edirik və belə hesab edirik ki, ATƏM-in ehtiyatlarından və imkanlarından daha dolğun istifadə olunmalıdır!

Sağ olun.

**İstanbulda "Sülh və Səbr" beynəlxalq dini konfrans nümayəndələri qarşısında Heydər Əliyevin çıxışı (10 fevral 1994-cü il)**

Bu gün sizinlə görüşməyimdən çox məmnunam. Hamınıza səmimi salamlarımı yetirir, hörmət və ehtiramımı bildirirəm.

Bildiyiniz kimi, Türkiyə Prezidenti hörmətli Süleyman Dəmirəlin dəvəti ilə mən burada rəsmi səfərdəyəm. İki gün ərzində Ankarada bizim çox səmərəli, əhəmiyyətli görüşlərimiz, danışıqlarımız oldu. Türkiyə ilə Azərbaycan arasında ikitərəfli əməkdaşlığı təmin etmək üçün müqavilələr, o cümlədən dostluq və əməkdaşlıq haqqında müqavilə imzalandı. Dünən axşam İstanbula gəldim və burada sizinlə görüşmək imkanı olduğunu mənə bildirdilər. Belə bir görüşün mümkünlüyündən çox məmnun oldum və bir daha bildirirəm ki, sizinlə görüşə böyük məmnuniyyətlə gəlmişəm.

Hələ Bakıda ikən sizin konfrans haqqında mənə məlumatlar gəldi. Bu konfransın işinə çox böyük əhəmiyyət verərək və indiki dövrdə onun bütün insanlar üçün faydalı olduğunu nəzərə alaraq sizin konfransa xüsusi məktub göndərdim. Məmnunam ki, məktubum sizə çatmış və onunla tanış olmusunuz. Fikrimcə, konfransın başlıca əhəmiyyəti ondan ibarətdir ki, siz vicdana çağırış, sülh və barışıq məsələlərini diqqət mərkəzinə çəkmisiniz. İndi bu, dünya üçün, bütün xalqlar üçün çox vacib, mühüm məsələdir. Təəssüf ki, son illərdə, iyirminci əsrin son mərhələsində dünyanın müxtəlif regionlarında sülh pozulmuş, insanlar arasında, dövlətlər arasında, ayrı-ayrı qruplar arasında toqquşmalar, vuruşmalar, müharibə gedir və bunların hamısı insanların rahat yaşamasına mane olur. Əsrimizin sonunda dünyada gedən ictimai-siyasi prosesləri təbii hesab edərək, heç vəchlə razılaşmaq olmaz ki, bu proseslər müharibə yolu ilə, toqquşmalar yolu ilə, qan tökmək yolu ilə getsin.

Yer üzərində yaşayan insanlara Allahın ən böyük tövsiyəsi ondan ibarətdir ki, onlar bir-biri ilə xoş məramda, sülh şəraitində, bir-birinə qarşılıqlı hörmət, qarşılıqlı ehtiram şəraitində yaşasınlar. Ona görə də din xadimlərinin vicdana çağırış, səbr, sülhün təmin olunması ilə bağlı təşəbbüsləri həm Allahın göstərdiyi yolla getmək deməkdir, həm də yer üzərində insanların sülh şəraitində yaşamalarına böyük köməkdir. Müharibənin, ayrı-ayrı dövlətlərin bir-biri ilə vuruşmasının, müxtəlif siyasi-ictimai qrupların bir-biri ilə savaşmasının əsas səbəbləri, şübhəsiz ki, siyasi xarakter, etnik xarakter daşıyır, birinin digərinin torpağını zorla əlindən almaq məqsədi daşıyır. Bunlar, şübhəsiz ki, dini xarakter daşıya bilməz.

İnsanların mənəvi sərvətlərinin hamısından dinin fərqi ondadır ki, o, dinin mənsubiyyətindən asılı olmayaraq həmişə insanları dostluğa, həmrəyliyə, birliyə dəvət etmişdir. Biz indi də bunun şahidiyik. Sizin bu konfransınız, müxtəlif dinləri təmsil edən xadimlərin toplaşaraq bir məsələni, bütün dünya xalqlarını narahat edən məsələni - vicdana çağırış, sülh, səbr məsələlərini müzakirə etməsi buna canlı sübutdur. Mən sizin bu təşəbbüsünüzü və belə fədakar fəaliyyətinizi alqışlayıram, ürəkdən bəyənirəm. Sizə göndərdiyim məktubda da bununla bağlı öz fikirlərimi bildirmişəm və çox məmnunam ki, indi üzbəüz, şəxsən görürüşüb bu sözləri sizə çatdırmaq mənə nəsib olmuşdur. Sizin bir yerə toplaşmağınız, həmrəyliyiniz, bir-birinizlə mehriban əlaqələriniz onu göstərir ki, insanlar dini, irqi mənsubiyyətdən asılı olmayaraq birlikdə yaşaya bilərlər, bir-biri ilə mehriban, dost ola bilərlər və öz həyatlarını qura bilərlər.

Bizim Azərbaycan Respublikası üçün sizin fəaliyyətiniz xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan çoxmillətli dövlətdir. Respublikamızda bir çox millətlər əsrlər boyu birlikdə yaşayırlar. Bildiyiniz kimi Azərbaycanda islam dini ilə yanaşı, xristianlıq və iudaizm dinləri də var və onlar bir-biri ilə çox mehriban şəraitdə fəaliyyət göstərirlər. Biz bunu bəyan etmişik. Azərbaycanın Prezidenti kimi, mən dəfələrlə qeyd etmişəm ki, ölkəmizin vətəndaşları dini, irqi mənsubiyyətindən, siyasi baxışlarından asılı olmayaraq eyni hüquqlara malikdirlər və onların hüquqları Azərbaycan dövləti tərəfindən qorunur. Əmin ola bilərsiniz ki, biz bu prinsiplərimizə daim sadiq qalacağıq və Azərbaycan vətəndaşlarının din, dil mənsubiyyətindən və siyasi baxışlarından asılı olaraq bir-biri ilə münaqişəyə girməsinə gələcəkdə də yol verməyəcəyik.

Böyük təəssüf hissilə qeyd edə bilərəm ki, bizim regionda, yəni Zaqafqaziyada - Azərbaycanda, Ermənistanda və Gürcüstanda etnik səbəblərə görə, etnik zəmin əsasında çox böyük gərginlik, toqquşmalar var, hətta müharibə gedir, qan tökülür. Bütün bunlar bizi həddindən artıq narahat edir. Əmin ola bilərsiniz ki, Azərbaycan dövləti və Prezident kimi şəxsən mən çalışırıq və bundan sonra da çalışacağıq ki, regionumuzda etnik prinsiplər əsasında olan münaqişələrə son qoyulsun.

Bizi - Azərbaycan Respublikasını çox ağır vəziyyətə salan, şübhəsiz ki, erməni silahlı qüvvələrinin Azərbaycan Respublikasına qarşı hərbi təcavüzüdür. Siz bilməlisiniz ki, Azərbaycan və Ermənistan arasında altı il bundan öncə, "Qarabağ problemi" əsasında meydana gəlmiş münaqişə indi artıq böyük müharibəyə çevrilmişdir. Güman edirəm, bizim xalqlarımız - həm Azərbaycan xalqı, həm də erməni xalqı belə bir münaqişəni istəmir. Təəssüf ki, ayrı-ayrı ekstremist, millətçi, avantürist qruplar, şəxsi məqsədlərinə nail olmağa

çalışan qruplar xalqlarımızı bu münaqişəyə cəlb etmişlər və dediyim kimi, həmin münaqişə böyük bir müharibə şəklini almışdır.

Müharibənin də nəticəsi bu gün ondan ibarətdir ki, erməni silahlı qüvvələri Azərbaycana qarşı təcavüz edərək ərazimizin 20 faizini işğal etmişdir. Azərbaycanın işğal olunmuş ərazisindən bir milyondan artıq vətəndaşımız el-obalarını itirərək qaçqın düşmüşdür və onlar indi çox ağır şəraitdə yaşayırlar. Biz müharibə istəmirik, ona son qoymağa çalışırıq. Ermənistanla Azərbaycan arasında sülh yaratmaq istəyirik. Çünki erməni xalqı ilə Azərbaycan xalqı əsrlər boyu qonşu olmuşdur və gələcəkdə də yan-yana yaşayacaqlar. Başqa yol yoxdur. Ona görə də bu müharibənin gələcəyi yoxdur, onun nəticəsi ancaq sülh olmalıdır. Sülh isə bir şərtlə ola bilər: iki dövlətin, iki respublikanın ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı təmin edilsin, yəni Azərbaycanın ərazi bütövlüyü təmin edilsin, erməni işğalçıları Azərbaycan ərazisindən çıxsınlar və azərbaycanlılar öz torpaqlarında yaşaya bilsinlər. Ermənistanın ərazi bütövlüyünə də heç kim qəsd etmək istəmir, onun da sərhədlərinin toxunulmazlığı təmin olunsun. Bu sadə formula, sadə prinsipdir. Ancaq bunu həyata keçirmək üçün böyük maneələr var və bunlardan biri də odur ki, bayaq dediyim kimi, altı ilə yaxındır müharibə gedir.

Biz Ermənistanla torpaq iddiası etmirik. Ancaq öz torpaqlarımızı da, şübhəsiz ki, Ermənistana verə bilmərik.

Bizim sülh təşəbbüslərimiz təəssüf ki, bir nəticə verməmişdir. Beynəlxalq təşkilatların - Birləşmiş Millətlər Təşkilatlatının, ATƏM-in bu məsələ üzrə yaradılmış xüsusi Minsk qrupunun fəaliyyəti də bir nəticə verməmişdir. Hətta din xadimləri də - şeyxülislam Hacı Allahşükür Paşazadə və erməni kilsəsinin rəhbəri də bir neçə dəfə görüşmüşlər.

Təəssüf ki, bu görüşlərin də nəticəsi olmamışdır. Ancaq biz yenə də sülhsevər siyasimizi davam etdiririk, bu məsələnin sülh yolu ilə həll olunmasına çalışacağıq. Eyni zamanda bildirmək istəyirik ki, Azərbaycan gücsüz də deyildir. Əgər bizim sülhsevər təşəbbüslərimiz nəticə verməsə, biz məcburuq öz torpaqlarımızı güclə azad edək, erməni işğalçılarını torpaqlarımızdan çıxaraq. Şübhəsiz ki, biz sülh yoluna üstünlük veririk və bu yolla gedəcəyik. Ancaq kimsə müharibəni davam etdirmək istəyirsə, biz bunu da edəcəyik. Başqa yolumuz yoxdur. Sizin diqqətinizə bir məsələni də çatdırmaq istəyirəm. Bu münaqişə yalnız ərazi xarakteri daşıyır, yəni erməni silahlı qüvvələri Azərbaycan ərazisinin bir hissəsini tutmuşdur, biz onları oradan çıxarmaq istəyirik. Ermənistanın güclü təbliğatı nəticəsində dünyanın bəzi dairələrində belə bir fikir yaranmışdır ki, guya Azərbaycan dövləti, Azərbaycan hökuməti Dağlıq Qarabağda yaşayan erməniləri qırmaq, o ərazidən qovmaq istəyir. Bunların hamısı yalandır. Belə iddiaların heç bir əsası yoxdur. Mən bir həqiqəti sizin qarşınızda məsuliyyətlə bəyan edirəm: Azərbaycan hökümətinin, Azərbaycan xalqının respublikada yaşayan ermənilərə qarşı heç bir zorakılıq niyyəti, yaxud onları zorla buradan çıxarmaq məqsədi yoxdur. Onlar öz yerlərində rahat yaşaya bilərlər və Azərbaycan dövləti, şəxsən bir Prezident kimi mən onların tamamilə təhlükəsiz, sərbəst yaşamasına, öz milli ənənələrindən, mədəniyyətindən, dinindən, dilindən azad surətdə istifadə etməkdə həyatlarını qurmasına təminat veririk.

Əvvəllər də belə olmuşdur. Dağlıq Qarabağda münaqişə başlayanadək əhalinin 70 faizi ermənilər, 30 faizi azərbaycanlılar idi. Ancaq bu münaqişə nəticəsində, sonra isə başlanmış bu böyük müharibə nəticəsində orada yaşayan 50 min nəfər azərbaycanlı öz ölkəsində, öz dövlətlərində qaçqın düşmüşdür və Dağlıq Qarabağa qayıtmaq imkanları yoxdur. Ona görə də əgər biz insan hüquqlarının qorunmasından danışırıqsa, şübhəsiz ki, ermənilərin də, azərbaycanlıların da hüquqları qorunmalıdır. Çünki o ərazidə həm ermənilər, həm də azərbaycanlılar yaşamışlar. Orada ermənilərin və azərbaycanlıların yan-yana, dostcasına, mehriban yaşamaları üçün şərait yaratmağa imkanımız var. Belə şərait illər boyu olmuşdur və bundan sonra da olacaqdır.

Son vaxtlar Ermənistan - Azərbaycan münaqişəsi, müharibəsi ilə əlaqədar ayrı-ayrı mətbuat orqanlarında təhlükəli şayiələr də yayılmışdır. Bu da ondan ibarətdir ki, bəzi adamlar qəsdən belə fikir yaymağa çalışırlar ki, guya bu müharibə xristian-müsəlman müharibəsinə çevrilə bilər. Bunlar əsassızdır, əvvəlcədən düşünülmüş, fitnəkar xarakter daşıyan təbliğatdır. Mən belə fikirlərə etirazımı bildirir və onları rədd edirəm. Sizi əmin etmək istəyirəm ki, bizim fəaliyyətimiz ancaq Azərbaycan Respublikasının beynəlxalq təşkilatlar tərəfindən tanınmış və qəbul olunmuş ərazi bütövlüyünü təmin etməyə, sərhədlərimizin toxunulmazlığını təmin etməyə yönəldilmişdir.

Azərbaycanda tarixən çox millətlər yaşamışdır. Burada azərbaycanlılarla yanaşı ruslar, ermənilər, yəhudilər, gürcülər, ukraynalılar və başqaları da yaşamış və gələcəkdə də yaşayacaqlar. Azərbaycan Respublikasının çoxmillətli dövlət olmasını ölkəmiz üçün böyük üstünlük hesab edirik.

Bu fikirlərimi sizə çatdırarkən istədim ki, Azərbaycanın bugünkü vəziyyəti haqqında daha geniş məlumatınız olsun. Eyni zamanda sizin müştərək fəaliyyətinizə müəyyən qədər kömək etmək istəyirəm. Bir daha qeyd edirəm ki, siz çox xeyirxah, dəyərli iş görürsünüz. Bu fəaliyyətinizdə sizə böyük uğurlar arzulayıram. Sizin hamınızı Azərbaycana dəvət edirəm. Çox şad olaram ki, hamınızla Azərbaycanda görüşüm. Əgər birlikdə gələ bilməsəniz, hər birinizi ayrılıqda qəbul etməyə hazıram. Ümidvar olduğumu bildirmək istəyirəm ki, sizinlə

əməkdaşlığımız davam edəcəkdir. İnsanlar üçün, bəşəriyyət üçün, dünya üçün bu xeyirxah fəaliyyətinizdə sizə müvəffəqiyyətlər diləyirəm.

Türkiyə Cümhuriyyətinin sizdən ötrü belə bir şərait yaratmasından görünür ki, bizim üçün dost və qardaş olan ölkə, doğrudan da, bütün millətlərin sülh yolu ilə birlikdə getməsinə çalışır. Güman edirəm ki, Türkiyə Cümhuriyyətinin dini işlər naziri də bu təşəbbüsünə görə böyük hörmətə layiqdir.

Mən sizinlə görüşməyimdən məmnun olduğumu bir daha bildirirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Müstəqilliyimiz əbədidir**
**Birinci kitab**

## Qaçqınlar Haqqında Qanunvericilik, İnsan Hüquqları və Miqrasiya Məsələlərinə dair Bakıda keçirilən beynəlxalq konfransda Heydər Əliyevin çıxışı (14 noyabr 1994-cü il)

Hörmətli xanımlar və cənablar!
Hörmətli konfrans iştirakçıları!
Möhtərəm qonaqlar!

Mən Azərbaycan Respublikasında belə bir mötəbər konfransın keçirilməsini çox yüksək qiymətləndirirəm. Üç gün müddətində konfrans iştirakçılarının apardığı işləri, müzakirələri Azərbaycan Respublikasının həyatı üçün çox əhəmiyyətli hesab edirəm. Konfransın iştirakçılarına və təşkilatçılarına öz hörmət və ehtiramımı bildirirəm.

Konfrans indi dünya ictimaiyyətini çox maraqlandıran və dünya ictimaiyyəti üçün, xüsusən Azərbaycan Respublikası, xalqımız üçün çox əhəmiyyətli olan bir mövzuya həsr olunmuşdur - qaçqınlar haqqında qanunvericilik, insan hüquqları və miqrasiya məsələləri. Bunlar indi dünyada gedən ictimai-siyasi proseslər üçün çox mühüm məsələlərdir və Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir. Ona görə də bu konfransın keçirilməsi ilə əlaqədar təşəbbüs göstərmiş və konfransın təşkil olunmasını təmin etmiş Birləşmiş Millətlər Təşkilatına, onun Qaçqınlar Üzrə Ali Komissarlığına, BMT-nin Azərbaycandakı nümayəndəliyinə, BMT-nin Qaçqınlar Üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəliyinə və Azərbaycan Respublikasının Ali Sovetinə təşəkkürümü bildirirəm.

Bəşər tarixində qaçqınlar məsələsi həmişə mühüm bir problem olmuşdur. Ancaq XX əsrin ortalarında, ikinci dünya müharibəsi bitəndən sonra bu məsələyə beynəlxalq təşkilatlar xüsusi münasibət göstərmişdir. Birləşmiş Millətlər Təşkilatının 1961-ci ildə qaçqınlarla əlaqədar xüsusi qərar qəbul etməsi və 1967-ci ildə qaçqınların statusunu müəyyən etmək haqqında qəbul olunan qərarlar bu məsələyə daha dərin, ətraflı münasibətin təzahürüdür.

BMT-nin bu mühüm və məşhur qərarlarından sonra dünyada, Yer kürəsinin qaçqınlarla əlaqədar olan regionlarında, ayrı-ayrı ölkələrdə çox işlər görülmüş, böyük təcrübə əldə olunmuşdur. İndi BMT-nin Qaçqınlar Üzrə Ali Komissarlığı çox yüksək səviyyədə fəaliyyət göstərir, bu məsələlərlə məşğul olur. Bu, cəmiyyət, insanlar üçün, hər bir insan üçün və insan hüquqlarının qorunması üçün çox əhəmiyyətli proseslərdir, tədbirlərdir. Bugünkü konfrans da həmin tədbirlərin tərkib hissəsidir.

Dünya Birliyinin, bəşəriyyətin bir hissəsi kimi, Azərbaycan xalqı, müstəqil Azərbaycan Respublikası BMT-nin Qaçqınlar Üzrə Ali Komissarlığı yaranandan indiyədək gördüyü işləri yüksək qiymətləndirir. Mən bu gün bir daha buna öz münasibətimizi bildirirəm. Ümidvar olduğumuzu bildirmək istəyirik ki, BMT, onun Qaçqınlar Üzrə Ali Komissarlığı bundan sonra daha böyük işlər görəcəkdir. Çünki son illər ərzində dünyada qaçqınlar problemi daha da kəskinləşib, qaçqınların sayı daha da artıb. Dünyanın bir çox regionlarında qaçqınlar problemi böyük bəlalara, xalqların, insanların, ölkələrin faciələrinə gətirib çıxarıbdır. Ona görə də indi bu, ümumbəşəri, ümumdünyəvi problemlərin içərisində ən mühüm problemlərindən biridir.

Azərbaycan xalqı, müstəqil Azərbaycan Respublikası son illərdə öz həyatında, tarixində bu problemlərlə üzləşmişdir. Həmin problemlər indi Azərbaycan Respublikasının həyatında yaranan çətinliklərin, gərginliklərin əsas səbəblərindən biridir. Ona görə də bu problemlər bizim üçün daha yaxındır, onlara münasibət bizim üçün daha böyük əhəmiyyətdir kəsb edir. Həmin məsələyə bizim xüsusi marağımız var və bu problemin ardıcıl surətdə həll olunması Azərbaycan Respublikasının bu gün və gələcəyi üçün çox əhəmiyyətlidir.

Məhz buna görə də belə mötəbər konfransın Azərbaycanda keçirilməsi həm respublikamızın vəziyyətindən doğan zərurətdir, eyni zamanda ölkəmizdə qaçqınlar probleminin nə qədər kəskin bir səviyyəyə gəlib çatdığının BMT tərəfindən, beynəlxalq təşkilatlar tərəfindən artıq hiss edildiyini göstərir. Belə bir konfransın Azərbaycanda keçirilməsini BMT-nin, bütün beynəlxalq təşkilatların Azərbaycan Respublikasına, ölkəmizdə olan qaçqınlar probleminə göstərdiyi böyük qayğının təzahürüdür. Bu qayğıya, bu diqqətə, belə münasibətə görə mən bir daha hörmət və təşəkkürmü bildirirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bu mötəbər konfrans Azərbaycan Respublikasında qaçqınlar probleminin həll olunması üçün və ümumiyyətlə, ölkəmizin düşdüyü bu ağır vəziyyətdən çıxması üçün əməli nəticələr verəcəkdir.

Siz, konfrans iştirakçıları bu günlərdə həmin məsələlərin hüquqi aspektlərini, humanitar cəhətlərini, qaçqınların, məcburi köçkünlərin statusu ilə, bu barədə qanunvericilik prinsipləri ilə əlaqədar məsələləri həm respublika miqyasında, həm də beynəlxalq miqyasda təhlil etmisiniz. Mən bildiyimə görə, xüsusən qaçqınlara humanitar yardım məsələlərinə diqqətinizi cəlb etmisiniz, insan hüquqları problemlərini qaçqınlar problemi ilə əlaqədar müzakirə etmisiniz. Şübhəsiz ki, bunlar hamısı çox əhəmiyyətlidir. Biz bunları gələcək işlərimiz üçün

yeni böyük bir addım hesab edirik və güman edirik ki, belə mühüm elmi, nəzəri, eyni zamanda praktiki təhlil və müzakirələrdən sonra bu sahələrdə ümumən dəyişiklik olacaq. Çünki Azərbaycanın timsalında BMT, onun Qaçqınlar Üzrə Ali Komissarlığı, beynəlxalq təşkilatlar, beynəlxalq hüquq orqanları yəqin ki, lazımi nəticələr çıxarıb bu barədə müəyyən yeni qərarlar qəbul edə bilərlər. Biz bunları böyük əhəmiyyətli hesab edirik. Ancaq bizim üçün ən mühüm cəhət ondan ibarət olacaqdır ki, bu konfransdan sonra bizim qaçqınlar probleminin həllində müəyyən dəyişikliklər, müəyyən müsbət nəticələr əldə edilsin.

Son illər, onilliklər ərzində dünyada qaçqınların və məcburi köçkünlərin sayı şübhəsiz ki, artmışdır. Bu, həm dövlətlər arasında gedən münaqişələr, həm də ayrı-ayrı regionlarda milli və etnik problemlərlə bağlı münaqişələr nəticəsində baş verir. Eyni zamanda bu, ayrı-ayrı qüvvələrin, ayrı-ayrı dövlətlərin, yəni bir dövlətin, bir qüvvənin o biri dövlətin, millətin hüquqlarını tapdalamaq, onların torpaqlarını ələ keçirmək, onlara qarşı zorakılıq etmək kimi hərəkətləri ilə əlaqədardır.

Azərbaycan xalqı son illər düşdüyü vəziyyətin bütün əzab-əziyyətini görərək, hiss edərək qaçqınlar probleminin bəşəriyyət üçün nə qədər ağır bir problem olduğunu dərindən dərk edir. Xalqımız dünyanın hər bir yerində qaçqınların, məcburi köçkünlərin vəziyyətini dərindən anlayır, onların çəkdiyi əzab-əziyyətləri öz əzab-əziyyətləri hesab edir. Dünyanın hər bir regionunda qaçqınların, məcburi köçkünlərin özünəməxsus xüsusiyyətləri var. Bunun həm səbəbləri, həm də qaçqınların düşdüyü vəziyyətlər cürbəcürdür və bəzən bir-birindən çox fərqlidir. Ancaq biz hesab edirik ki, Azərbaycan Respublikasının ərazisində olan qaçqınların, məcburi köçkünlərin vəziyyəti ən ağırdır, ən çətindir, ən dözülməzdir. Ölkəmizdə qaçqınların, köçkünlərin əmələ qəlməsi səbəbləri də başqa regionlardakından çox fərqlidir və bunlar hamısı Azərbaycan Respublikası üçün - kiçik bir ölkə, dövlət üçün olduqca çətin və ağır problemlər yaradır.

Siz, konfrans iştirakçıları qaçqınlar, məcburi köçkünlər problemlərini, insan hüquqları problemlərini müzakirə edərkən bunları müəyyən qədər qruplaşdırmaq barədə, yəni qaçqınların ayrı, məcburi köçkünlərin isə ayrı bir statusu haqqında söhbətlər aparmışınız, bu da təbiidir. Respublikamızda həm qaçqınlar var, həm də məcburi köçkünlər var və bunların hamısının hüquqları, şübhəsiz ki, pozulub, tapdalanıbdır. Hüquq, status bir tərəfə, amma mənəvi, siyasi cəhətdən biz bunların hamısını qaçqın kimi qəbul edirik. Hesab edirik ki, respublikamızda qaçqın vəziyyətində yaşayan adamların hamısına qaçqın kimi münasibət göstərmək lazımdır.

Konfrans iştirakçılarına və xüsusən BMT-nin Qaçqınlar Üzrə Ali Komissarlığına dünya miqyasında statistika daha yaxşı məlumdur, ancaq biz də bu məsələləri təhlil edərkən, müəyyən qədər müqayisə apararkən belə fikir deməyə əsasımız var ki, Azərbaycan Respublikası kimi kiçik bir ölkədə 7 milyonluq əhalinin bir milyondan çoxunun qaçqın vəziyyətində olması ən dəhşətli haldır. Bəlkə də dünyanın heç bir regionunda belə bir hala rast gəlmək mümkün deyildir.

Məlumdur ki, bizim respublikada bu qədər qaçqının olmasının səbəbi Ermənistanın, erməni millətçi dairələrinin Azərbaycan Respublikasına, Azərbaycanın ərazisinə qəsd etmək məqsədi ilə başladıqları əvvəl siyasi sonra isə hərbi əməliyyatların nəticəsidir. Bunların hamısı öz başlandığıcını 1988-ci ildən götürür. Ermənistanda yaşayan bütün azərbaycanlılar həmin il zorakılıq nəticəsində, onlara qarşı göstərilən təzyiq, təqiblər, ciddi təxribatlar və başqa fiziki əməliyyatlar nəticəsində, oradan məcburi çıxarılıb. Onlar Azərbaycana köçməyə məcbur olublar. Bundan sonra Axısxa türklərinin bir qismi başqa regionlardan Azərbaycana köçüb. Azərbaycan ağır vəziyyətdə olduğu, özü Ermənistandan zorakılıqla çıxarılan qaçqınları qəbul etdiyi halda, başqa ölkələrdən, başqa regionlardan Axısxa türklərini - bu qaçqınları da qəbul edib. Bundan sonra isə Azərbaycanın öz ərazisində öz vətəndaşları müharibə nəticəsində, Azərbaycana qarşı olan hərbi təcavüz nəticəsində yurd-yuvalarını tərk edib, qaçqın vəziyyətinə düşməyə məcbur olublar.

Dediyim kimi, indi Azərbaycanda bir milyondan artıq qaçqın var. Bu, qaçqın olmuş hər bir ailənin faciəsidir. Qaçqın vəziyyətinə düşmüş hər bir vətəndaşın faciəsidir. Bu, Azərbaycan xalqının, Azərbaycan Respublikasının faciəsidir. Şübhəsiz ki, dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar Azərbaycanın düşdüyü bu vəziyyətə, ölkəmizin bu faciəli halına gərək daha diqqətli olsunlar. Daha da kömək etsinlər. BMT-nin, onun Qaçqınlar Üzrə Ali Komissarlığının, bütün beynəlxalq təşkilatların qaçqınlarla əlaqədar, Azərbaycana Ermənistan tərəfindən təcavüzlə əlaqədar, torpaqlarımızın işğal olunması ilə əlaqədar burada son illərdə apardığı fəaliyyəti mən yüksək qiymətləndirirəm və bu gün konfrans iştirakçıları qarşısında və dünya ictimaiyyəti qarşısında bütün bu təşkilatlara Azərbaycan xalqı adından, Azərbaycan Respublikası adından, öz adımdan xüsusi təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Ancaq eyni zamanda, həqiqət naminə, bütün beynəlxalq təşkilatların, dünya ictimaiyyətinin Azərbaycanda olan qaçqınların vəziyyətinə daha yaxından münasibət göstərməsi üçün bunu da bildirmək istəyirəm: təəssüf ki, Azərbaycanın belə vəziyyəti dünya ictimaiyyətinin bütün təbəqələrinə məlum deyil. Bəlkə də bizim bu barədə apardığımız işlərin zəif olduğuna görə, eyni zamanda, bəlkə də beynəlxalq təşkilatlar Azərbaycanın bu faciəli vəziyyətini o qədər də dərindən hiss etmədiklərinə görə Azərbaycan Respublikasında qaçqınlarla əlaqədar vəziyyətin və ümumiyyətlə, ölkəmizdə qaçqınlar probleminin belə kəskin olduğunu bilmirlər. Biz bunu mətbuatdan da görürük və ayrı-ayrı ölkələrdəki görüşlərdə də, danışıqlarda da hiss edirik. Bu, görülən işlərin

müsbət tərəfi ilə yanaşı, bizim ümumi çatışmazlığımızdır, deyə bilərəm ki, bizim respublikanın qaçqınlar probleminə hələ lazımi diqqətin olmamasıdır.

Mən hesab edirəm ki, bu konfrans - ilk dəfə Azərbaycanda keçirilən çox səlahiyyətli, geniş tərkibi və mötəbər konfrans gərək Azərbaycanda münasibət nöqteyi-nəzərindən, dünya ictimaiyyətinin ölkəmizdəki qaçqınların vəziyyətini tam obyektiv bilməsi nöqteyi-nəzərindən bir dönüş nöqtəsi olsun. Bu baxımdan biz bu konfransın fəaliyyətdən, xarici ölkələrin, beynəlxalq təşkilatların burada iştirak edən nümayəndələrinin konfrans sonrakı fəaliyyətindən çox şey gözləyir, buna çox böyük ümid bəsləyirik.

Güman edirəm ki, Azərbaycanın düşdüyü vəziyyət konfransın işində dərindən təhlil olunmuşdur. Ermənistanın təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal edilməsi, əhalinin bu torpaqlardan qovulması, qaçqın düşməsi, onların nə qədər ağır vəziyyətdə olması təhlil edilmişdir. İşğal olunmuş ərazilərin dağıdılması, viran qoyulması halları artıq sizə məlumdur və yəqin ki, bunları təhlil etmisiniz. Azərbaycan Respublikasına bu baxımdan dəyən həm maddi, həm də mənəvi ziyan, tariximizə, mənəviyyatımıza, keçmişimizə dəyən zərər də sizə - konfrans iştirakçılarına məlumdur. Ona görə də mən rəqəmlər, yaxud ayrı-ayrı faktlar üzərində dayanmağa ehtiyac görmürəm.

1988-ci ildən sonra Ermənistan Respublikasının ərazisindən qovulan 200 mindən artıq azərbaycanlı, 50 mindən çox Axısxa türkü, Dağlıq Qarabağın ərazisindən - doğma yurdlarından qovulmuş azərbaycanlılar və nəhayət, Dağlıq Qarabağın ətrafındakı yeddi rayondan zorakılıqla qovulmuş azərbaycanlılar birlikdə bir milyon qaçqınlar ordusu təşkil edir. Bunların indi Azərbaycanın başqa bölgələrində ağır şəraitdə yaşaması bir tərəfdən ölkəmizin nə qədər çətin, faciəli vəziyyətdə olduğunu, ikinci tərəfdən də Azərbaycan xalqının nə qədər dözümlü, dəyanətli olduğunu göstərir, qaçqın düşmüş, çox əzab-əziyyətlər çəkmiş, faciəli həyat keçirən bu adamların nə qədər mətanətli və nə qədər də insanpərvər olduğunu göstərir.

Müharibə şəraitində olan, sosial-iqtisadi böhran içərisində yaşayan və müəyyən səbəblərə görə iqtisadiyyatı inkişaf etdirmək, yaxud iqtisadiyyatı yaratmaq üçün imkanları tamamilə məhdudlaşan və xüsusən son zamanlar, demək olar, dəmiryol blokadası şəraitində olan Azərbaycanın belə böyük qaçqınlar ordusunu saxlamasının Azərbaycan Respublikası üçün, onun dövləti, hökuməti üçün və onun insanları üçün necə ağır vəziyyət yaratdığını təsəvvür etmək o qədər də çətin deyildir.

Ancaq tarix sübut etmişdir ki, Azərbaycan xalqı dözümlü xalqdır, çox ağır mərhələlərdən mətanətlə keçib gəlmiş, indi ən böyük nailiyyətə - milli azadlığa, öz müstəqilliyinə nail olmuşdur. Xalqımız bütün bu çətinliklərə də dözəcək, onlardan keçib gedəcək və bunların hamısının öhdəsindən gələcəkdir.

Mən bu gün konfrans iştirakçıları qarşısında Azərbaycan Respublikasında qaçqın düşmüş, ağır şəraitdə, əzab-əziyyət içərisində, çadırlarda yaşayan, bəzən hətta ərzaq malları almağa imkanı olmayan, ancaq dözən, xalqına, respublikasına, torpağına sədaqət hissi ilə yaşayan qaçqınların hamısına hörmət və ehtiramımı bildirirəm. Konfrans iştirakçıları adından, bu möhtəşəm salondan Azərbaycanda yaşayan qaçqınların hamısına salamımı çatdırıram və onları əmin etmək istəyirəm ki, Azərbaycan Respublikasının dövləti qaçqınların vəziyyətini yaxşılaşdırmaq üçün əlindən gələni əsirgəməyəcəkdir. Qara günün ömrü az olacaqdır. Onlar qaçqın vəziyyətindən çıxaraq, öz yerlərinə qayıdacaqlar, bütün bu ağır, əzab-əziyyətli günlər arxada qalacaqdır.

Bir milyondan artıq qaçqını dolandırmağın bütün çətinlikləri Azərbaycan Respublikasının, Azərbaycan dövlətinin üzərinə düşmüşdür. Bu, təbiidir, bizim doğma işimizdir və hər bir Azərbaycan vətəndaşı, birinci növbədə Azərbaycanın dövlət orqanları qaçqınlara qayğı göstərməyi, onların problemləri ilə məşğul olmağı özlərinin ən müqəddəs, ən şərəfli vəzifəsi hesab etməlidir. Güman edirəm ki, biz qaçqınlara qayğı, diqqət məsələsinin nə qədər mühüm olduğunu günü-gündən dərk edirik və həmin problemlərin həlli bundan sonra da bizim diqqət mərkəzimizdə olacaqdır.

Eyni zamanda konfrans iştirakçılarının və xüsusən xarici ölkələrdən gələn qonaqlarımızın qarşısında demək istəyirəm ki, qaçqınların yaşaması üçün, onlara müəyyən, minimum bir şərait yaradılması üçün bir çox dövlətlərin, beynəlxalq təşkilatların humanitar yardımları bizdən ötrü böyük köməkdir. Biz bunu yüksək qiymətləndiririk. Biz qaçqınlarla görüşərkən onlar da xarici ölkələrin, beynəlxalq təşkilatların bu xeyirxah, insanpərvər işlərini, humanitar köməyini çox yüksək qiymətləndirirlər. Ona görə bütün ölkələrə, bu ölkələrin başçılarına, beynəlxalq təşkilatlara, xarici ölkələrin ayrı-ayrı iş adamlarına, ümumiyyətlə, qaçqınlarımıza kömək edən, diqqət və qayğı göstərən təşkilatlara, qruplara, insanlara, dövlətlərə, hökumətlərə, ölkələrə qaçqınlar adından, öz adımdan, hörmət və ehtiramımı, təşəkkür və minnətdarlığımı bildirirəm.

Ümidvar olduğumu bildirmək istəyirəm ki, konfransın materialları, qəbul etdiyi bəyanatlar, onun işi dünya ictimaiyyətini, ölkələri, beynəlxalq təşkilatları Azərbaycan qaçqınlarının vəziyyəti haqqında daha geniş məlumatlandırılacaq və bunun nəticəsində Azərbaycan Respublikasında olan qaçqınlara indən sonra hər cür yardım artacaqdır. Qaçqınlar belə ümidlərlə yaşayırlar. Arzu edirəm ki, bu ümidlər doğrulsun, Azərbaycan qaçqınları nə qədər ki, bu vəziyyətdədirlər - bundan sonra daha artıq yardım ala bilsinlər.

Güman edirəm ki, konfransın işi bir həqiqəti də göstərdi ki, Azərbaycan Respublikasında olan qaçqınların həm sayı, həm də indiki ağır vəziyyəti ilə müqayisədə onlara, Azərbaycan Respublikasına xarici ölkələr

tərəfindən edilən humanitar yardım o qədər də yetərli deyildir. Arzu edirəm ki, bunlar nəzərə alınsın və güman edirəm, nəzərə alınacaq, Azərbaycan qaçqınlarına bundan sonra göstərilən humanitar yardımın miqdarı, keyfiyyəti daha da artacaqdır. Eyni zamanda biz heç də belə fikirdə deyilik ki, Azərbaycan həmişə qaçqınlar diyarı olacaqdır, ölkəmizdə həmişə qaçqınlar yaşayacaqdır. Mən əminəm ki, bu məsələlər həll olunacaq, birinci növbədə Azərbaycanın Ermənistan silahlı qüvvələri tərəfindən, Ermənistan tərəfindən işğal olunmuş torpaqları azad ediləcək, qaçqınların öz yerlərinə qayıtması üçün imkan yaranacaq və onlar ev-eşiklərinə, el-obalarına qayıdacaqlar. Ermənistan Respublikasından çıxarılmış qaçqınlar da - əgər haqq-ədalət varsa, əgər dünyanın beynəlxalq təşkilatları hər şeyi doğrudan da ədalətli edə bilərlərsə, - onlar da öz evlərinə qayıdacaqlar. Axısxa türkləri artıq 50 ildir ki, öz yerlərindən didərgin düşmüşlər. Bu qədər vaxt keçməsinə, bir neçə nəsil meydana gəlməsinə baxmayaraq, onlar yenə də öz torpaqlarına qayıtmaq istəyirlər. Biz bu arzuların da yerinə yetməsinə tərəfdarıq, eyni zamanda o vaxtacan onları öz ölkəmizdə saxlamağa hazırıq.

Şübhə yoxdur ki, gələcək tarixi proseslər, dünyada gedən tarixi, ictimai-siyasi dəyişikliklər XX əsrdə ayrı-ayrı ölkələrin sərhədlərinin pozulması, insanların öz yerlərindən qovulması, böyük sayda adamların bir yerdən başqa yerə məcburən köçürülməsi kimi halların qarşısını alacaq, həyat hər şeyi öz yerinə qoyacaqdır. Azərbaycanlılar əsrlər boyu yaşadıqları ərazilərdə məskunlaşacaqlar, öz yerlərinə qayıdacaqlar. Azərbaycan xalqı bu ümidlərlə yaşayır, yaşayacaq və əgər bu, bizim nəsillərə nəsib olmasa da, gələcək nəsillər buna nail olacaqdır.

Ancaq indi bizim qarşımızda duran vəzifə Azərbaycanın 1988-ci ildən indiyə qədər Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş torpaqlarının azad edilməsidir, Azərbaycan Respublikasının beynəlxalq hüquq normaları əsasında tanınmış, qəbul olunmuş sərhədlərinin toxunulmazlığının, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsidir. Bu məsələlərin həll edilməsi bizdən ötrü, Azərbaycan Respublikası üçün ən ümdə vəzifədir və biz həmin məsələnin həlli ilə məşğul oluruq, bundan sonra da tam qətiyyətlə məşğul olacağıq.

Bilirsiniz ki, Ermənistanla Azərbaycan arasında altı ildən artıq gedən müharibədə altı aydır ki, atəşkəs rejimi yaranmışdır və davam edir. Bu müddətdə biz respublikanı müharibə şəraitindən çıxarmaq, müharibəyə son qoymaq üçün, münaqişəni sülh yolu ilə aradan qaldırmaq üçün bir çox təşəbbüslər etmişik, bir çox tədbirlər görmüşük, danışıqlar aparmışıq. Danışıqlar, təşəbbüslər prosesi davam edir və bu gün də, sabah da, gələcəkdə də bununla məşğul oluruq və olacağıq. Çalışırıq ki, respublikamızın ərazi bütövlüyünün təmin olunması şərtləri ilə bu məsələ həll edilsin. Bunun üçün Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərindən qeyd-şərtsiz çıxarılmalı, həmin ərazilərdən qaçqın düşmüş Azərbaycan vətəndaşları öz yerlərinə qayıtmalıdırlar. Bu ərazilər dedikdə biz Dağlıq Qarabağın ətrafında olan rayonları, o cümlədən Şuşa və Laçın rayonlarını nəzərdə tuturuq. Dağlıq Qarabağda yaşayan ermənilərin hüquqlarının qorunması, şübhəsiz ki, təmin olunmalıdır. Dağlıq Qarabağın statusu məsələsi müzakirə edilməlidir. Ancaq bütün bunlar ən mühüm şərt daxilində - Azərbaycan Respublikasının ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının təmin edilməsi və ölkəmizin didərgin düşmüş vətəndaşlarının hər birinin öz yerinə qayıtması şərti ilə həll edilməlidir. Biz çalışırıq bu məsələni həll edək və bunların hamısı qaçqın vəziyyətində yaşayan bir milyon vətəndaşın həyatı, aqibəti, bu günü və gələcəyi ilə bağlı həll edilməlidir.

Konfransın mövzusu insan hüquqları məsələsidir. İnsan hüquqları indi dünyada demokratik proseslərin hər yerdə bərqərar olunması üçün əsas prinsiplərdən biridir. Azərbaycan Respublikası öz həyatını demokratik prinsiplər əsasında quraraq, daim çalışacaqdır ki, insan hüquqlarının qorunmasına əməl edilsin. Bugünkü konfransda yəqin müqayisə etmək mümkün olardı ki, əgər bir adamı sözdən məhrum edirlərsə və ya o, müəyyən məhdudiyyətlərə məruz qalırsa, onun hüquqları pozulur: ancaq bir milyon insan - azərbaycanlı öz yerindən, yurdundan qovulmuşdur, evini, əmlakını itirmişdir, dədə-babalarının qəbirlərindən məhrum olmuşdur, əsrlər boyu yaşadığı yerlərdən məhrum olmuşdur. Bəs bu, insan hüquqlarının kütləvi surətdə, dəhşətli şəkildə pozulması deyilmi?

Biz ayrı-ayrı ölkələrdə ayrı-ayrı şəxslərin, fərdlərin insan hüquqlarının pozulmasının digər ölkələrdə böyük siyasi xadimlər tərəfindən, yaxud da ölkələrin parlamentlərində və ya yüksək beynəlxalq təşkilatlarda pislənməsinin və bu hüquqların qorunması üçün lazımi tədbirlər görülməsinin şahidi olmuşuq. Bu, həqiqətən demokratiyanın, insan hüquqları haqqında Helsinki aktının qorunmasıdır. Belə olan halda bir milyon vətəndaşın - azərbaycanlının hüquqlarının kütləvi surətdə pozulması haqqında nə üçün həyəcan təbili vurulmur, nə üçün hay-küy qalxmır, nə üçün bu, parlamentlərdə müzakirə olunmur? Beynəlxalq təşkilatlar nə üçün bu barədə öz cəsarətli fikirlərini bildirmirlər? Bunu anlamaq mümkün deyildir.

Mən bu fürsətdən istifadə edərək, bütün dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara müraciət edirəm, inkişaf etmiş demokratik ölkələrin parlamentlərinə, dövlət başçılarına müraciət edirəm, dünyada demokratiya yolunda fədakar fəaliyyət göstərən məşhur ictimai-siyasi xadimlərə müraciət edirəm, dünyadakı bütün insanlara, bəşəriyyətə müraciət edirəm və bir milyondan artıq azərbaycanlının hüquqlarının pozulmasının bəyan edərək bu hüquqların bərpa olunmasına dəvət edirəm. Güman edirəm ki, bu konfransı təşkil edən Birləşmiş Millətlər Təşkilatının Qaçqınların İşi Üzrə Ali Komissarlığı, BMT-nin, beynəlxalq təşkilatların nümayəndələri mənim

səsimi bütün dünyaya, öz təşkilatlarına çatdıracaqlar. Mən bu konfransın əsas nəticələrindən birini də Azərbaycan vətəndaşlarının, bir milyondan artıq azərbaycanlının hüquqlarının tapdalanmasının dünyada aşkar olunması hesab edirəm və onların hüquqlarının bərpa olunmasına dəvət edirəm. Ümidvaram ki, konfrans özünü bu vəzifəsini də yerinə yetirəcəkdir.

Konfransın işi sona çatır. Konfrans müvəffəqiyyətlə keçdiyinə görə və onun nəticələrinə böyük ümid bəsləyərək sizin hamınızı bu tədbirin uğurla sona çatması münasibətilə təbrik edirəm, beynəlxalq təşkilatlara, Birləşmiş Millətlər Təşkilatına və bu konfransın bütün digər təşkilatçılarına bir daha öz təşəkkürümü bildirirəm. Azərbaycan Respublikasının ərazisində yaşayan bir milyondan artıq qaçqına hörmət və ehtiramımı bildirirəm, onların hamısını bağrıma basıram, dözümlülüyünə, dəyanətinə, vətənpərvərliyinə görə öz torpaqlarına, dövlətinə sədaqətinə görə onlara təşəkkür edirəm. Əmin edirəm ki, onlar bu ağır vəziyyətdən çıxacaqlar, müstəqil Azərbaycan Respublikasının bütün vətəndaşları öz taleyinin, öz hüquqlarının sahibi olacaqdır. Sağ olun.

**Müstəqilliyimiz əbədidir**
**İkinci kitab**

**Azərbaycan, Ermənistan, Gürcüstan və Rusiya dövlət başçılarının, habelə Rusiya Federasiyasının subyektləri olan Şimali Qafqaz respublikaları, diyarları və vilayətləri rəhbərlərinin görüşündə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı**

**(3 iyun 1996-cı il)**

Hörmətli dövlət başçıları, hörmətli Şimali Qafqaz respublikalarının rəhbərləri!

Xanımlar və cənablar!

Mən sizin hamınızı salamlayıram və bu gözəl görüşdən çox məmnun qaldığımı bildirirəm. Desəm ki, bu, Qafqazın bütün xalqları, bütün dövlətləri nümayəndələrinin bütün tarix ərzində ilk görüşüdür, zənnimcə, yanılmaram. Bu, çox gözəl təşəbbüsdür, xüsusən indiki vaxtda, mühüm təşəbbüsdür. Bu təşəbbüsü Rusiya Federasiyasının prezidenti, bizim hörmətli dostumuz Boris Nikolayeviç Yeltsin irəli sürmüşdür. Boris Nikolayeviç, mən bu təşəbbüsə görə sizə təşəkkür edirəm və əminəm ki, bu görüş, imzaladığımız bəyannamə və burada apardığımız fikir mübadiləsi Qafqazda sülhün və sabitliyin möhkəmlənməsinə, şübhəsiz, kömək göstərəcəkdir.

Qafqaz elə bir regiondur ki, Yer kürəsinin bir çox regionlarından özünün bir sıra xassələrinə görə seçilib fərqlənir. Qafqaz özünün müstəsna gözəl təbiəti ilə, çoxmillətli tərkibi, burada yaşayan xalqların özünəməxsus ənənə və adətləri ilə səciyyələnir. Qafqazın tarixinə bu xalqların dostluğu və qardaşlığı haqqında neçə-neçə parlaq sifələr yazılmışdır. Son vaxtlar Qafqazın siyasi xəritəsi əhəmiyyətli dərəcədə dəyişmişdir. Sovet İttifaqının süqutundan sonra müstəqil suveren dövlətlər - Azərbaycan Respublikası, Ermənistan Respublikası və Gürcüstan Respublikası yaranmışdır. Şimali Qafqazda, Rusiya Federasiyasının ərazisində respublikalar daha çox hüquqlar, daha çox səlahiyyətlər almışlar.

Zənnimcə, belə desəm ədalətli olar ki, Şimali Qafqaz respublikaları, xalqları keçmiş çar imperiyasının, Sovet İttifaqının tərkibində heç vaxt belə hüquqlara, belə müstəqilliyə və belə səlahiyyətlərə malik olmayıblar. Bu isə Rusiyanın həqiqətən federativ quruluşuna və Rusiyada dövlət quruluşunun doğrudan da demokratikləşdirilməsinə sübutdur.

Amma bununla yanaşı, son vaxtlar Qafqaz faciəli hadisələrlə, hərbi münaqişələrlə qarşılaşmışdır. Bu gün bütün Qafqazı münaqişələr bürümüşdür və bu, bütövlükdə Qafqaza, bütün xalqlara çox böyük ziyan vurur, onları müsibətlərə, iztirablara, fəlakətlərə düçar edir. Odur ki, vəzifəmiz bu vəziyyəti aradan qaldırmaqdır.

Təəssüflər olsun ki, bu münaqişələr hələ Sovet İttifaqının mövcudluğu dövründə başlanmışdır. Ən əvvəl başlayan münaqişə Dağlıq Qarabağla əlaqədar Ermənistanla Azərbaycan arasında olan münaqişədir. Bu münaqişə hələ 1988-ci ildə başlanmışdır. Mən əminəm və bu gün inamla deyirəm ki, keçmiş Sovet İttifaqının rəhbərləri bu münaqişəyə yol verməmək, bu qan tökülməsinə yol verməmək, onun dərinləşməsinə yol verməmək üçün hər cür imkana malik idilər. Amma onlar uzaqgörən siyasətçilər olmalıdırlar, bəziləri isə bu münaqişənin qızışmasına, məncə, bu və ya digər dərəcədə kömək etdilər.

Bu münaqişə nəinki Azərbaycana, həm də Ermənistana, bütün Qafqaza olduqca böyük ziyan vurur. Əslinə qalsa, bütün Qafqazda, keçmiş Sovet İttifaqının bütün məkanında da münaqişələrin hamısı bu münaqişədən başlanmışdır. Bu münaqişə nəticəsində Azərbaycan son dərəcə böyük ziyan çəkmişdir. Məlum olduğu kimi, Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilmişdir, işğal olunmuş torpaqlardan bir milyondan çox Azərbaycan vətəndaşı zorakılıqla qovulmuşdur. Onlar olduqca ağır şəraitdə yaşayırlar, əksəriyyəti dörd ildir çadırlarda məskunlaşıb. Təəssüf ki, işğal olunmuş torpaqlar viran qoyulmuş, qarət edilmiş və Azərbaycana çox böyük həm mənəvi, həm də maddi ziyan vurulmuşdur.

Lakin bütün bunlara baxmayaraq, biz hər halda belə bir fikrə gəldik ki, hərbi əməliyyatları davam etdirməkdənsə, məsələnin həllinə sülh yolu ilə nail olmaq daha yaxşıdır. İki il bundan əvvəl biz Ermənistanın rəhbərliyi, Ermənistan prezidenti cənab Ter-Petrosyan ilə razılıq əldə etdik və atəşkəs haqqında saziş imzaladıq. Bu atəşkəs rejimi indi də qalmaqdadır və davam edir.

Mən bunu çox müsbət məqam sayıram. Atəşkəs rejimini böyük siyasi saziş imzalanan vaxtadək davam etdirmək niyyətimiz, iradəmiz, istəyimiz bu gün bizim bəyannamədə də əksini tapmışdır. Biz sülh istəyirik, biz hərbi əməliyyatlara yenidən başlanmasını istəmirik. Biz Ermənistan ilə Azərbaycan arasında sülh olmasını istəyirik. Taleyin hökmü ilə biz yanaşı yaşayırıq, qonşuyuq və buna görə də uzun müddət düşmənçilik etmək olmaz, xüsusən də əbədi olaraq düşmənçilik etmək olmaz. Biz sülh istəyirik, məsələnin dincliklə nizamlanmasını istəyirik. Bu məsələ barəsində təkliflərimiz dəfələrlə elan edilmişdir. Bundan ötrü Azərbaycanın ərazi bütövlüyü təmin olunmalı, qaçqınlar öz doğma torpaqlarına, yurd-yuvalarına, öz ocaqlarına qayıtmalıdırlar. Təbii ki, bu şərtlər əsasında Dağlıq Qarabağa Azərbaycan Respublikası tərkibində muxtariyyət statusu - müasir beynəlxalq praktikada olan ən yüksək muxtariyyət statusu verilməklə.

Həmin şərtləri mən bu gün bir daha elan edir və ümidvaram ki, biz məsələnin həllinə, münaqişənin aradan qaldırılmasına, sülh yaranmasına bundan sonra da birgə səylərlə çalışacağıq.

Lakin bizi təkcə öz taleyimiz, xalqlarımızın, özümüzün taleyi narahat etmir, biz həm də bütün Qafqaz üçün narahatıq. Təəssüf ki, bütün Qafqaz, bayaq dediyim kimi, münaqişələr alovuna bürünmüşdür. Əlbəttə, bütün bunlar da separatizmin nəticəsidir, təcavüzkar millətçiliyin, davakar millətçiliyin nəticəsidir, şovinizmin nəticəsidir. Bilirsinizmi, bu münaqişələr də Sovet İttifaqının mövcudluğu dövründə başlanmışdır. Zənnimcə, bütün bunlar həm də Sovet İttifaqı Kommunist Partiyasının, daha doğrusu, Sovet İttifaqı Kommunist Partiyası rəhbərlərinin və keçmiş Sovet İttifaqı rəhbərlərinin düzgün olmayan milli siyasətinin nəticəsidir.

O illərdə buraxılmış və bu münaqişələrə gətirib çıxarmış sirlər məlumdur və aşkardır. Bu sirlər Qafqaz xalqları barəsində də, Zaqafqaziya xalqları barəsində də buraxılmışdır. Onların barəsində çox danışmaq olar. O illərdə mən Sov. İKP MK Siyasi Bürosunun üzvü olduğuma və bir çox müzakirələrdə iştirak etdiyimə görə bunlar yadımdadır və indi bu barədə danışmağı lazım bilirəm, çünki tarix bütün həqiqəti bilməlidir.

Məsələ burasındadır ki, o vaxtlar Sovet İttifaqının, Kommunist Partiyasının ayrı-ayrı rəhbərləri tərəfindən yol verilmiş bu şovinizm ona gətirib çıxarırdı ki, Sovet İttifaqında yaşayan xalqların, o cümlədən də Qafqazda yaşayan xalqların mənafeləri, milli adətləri, milli ənənələri nəzərə alınmırdı.

Yadımdadır, Kabarda-Balkariya Respublikasının rəhbərini əvəz etmək məsələsinə baxılarkən və Malbaxov öz vəzifəsindən gedərkən buraya bu regionla, bu respublika ilə heç bir əlaqəsi olmayan, təbii ki, yerli millətə mənsub olmayan bir nəfəri - sibirlini təyin etmək planlaşdırılırdı. O vaxt mən buna etiraz etdim. Lakin Kommunist Partiyasının bəzi rəhbərlərinin, ən əvvəl Qorbaçovun volyuntarist qərarında bu etiraz, əlbəttə, qətiyyən nəzərə alınmadı.

Eyni əhvalat Qazaxıstanda da baş verdi. O vaxtlar oraya respublikaya, bütöv Qazaxıstan Respublikasına elə bir adamı göndərdilər ki, o heç vaxt orada yaşamamışdı, işləməmişdi, təbii ki, yerli millətə mənsub deyildi. Belə faktlardan çox gətirmək olar. Lakin mən onlardan yalnız birindən qısaca danışdım ki, indi bizim hamımızın, Qafqazın məruz qaldığı bu münaqişələrin, bu müsibətlərin, bu faciələrin səbəblərindən birinin hər halda nədən ibarət olduğunu xatırladım.

Çox şükürlər olsun ki, indi Rusiyada, demokratik Rusiyada bu məsələlər daha yaxşı, daha normal həll edilir. Hesab edirəm ki, nəinki təkcə Qafqaz üçün, həm də özümüzün bütün siyasi fəaliyyətimiz üçün borcumuz, ən vacib borcumuz millətçiliyə, separatizmə, şovinizmə gedən yolları kəsmək, bunun qarşısını almaqdır. Bu, Qafqaz üçün xüsusilə əhəmiyyətlidir. Təkrar edirəm, mən inanıram ki, indi Rusiyada bu prinsiplər üstün tutulur və əminəm ki, bu, Qafqazda münaqişələrin tezliklə aradan qaldırılmasına kömək edəcəkdir.

Bizi Qafqazda baş verən bütün hadisələr, ən əvvəl Çeçenistanda olan hadisələr narahat edir. Mən Çeçenistanda münaqişənin dincliklə aradan qaldırılması üçün prezident Boris Yeltsinin atdığı addımları alqışlayıram. Ümidvaram və əminəm ki, bu addımlar davam etdiriləcək, Çeçenistanda sülh yaradılacaq və bunun Qafqazda - istər Şimali Qafqazda, istərsə də Zaqafqaziyada digər bütün münaqişələrin aradan qaldırılması üçün çox böyük əhəmiyyəti olacaqdır.

Buna görə də mən prezident Boris Yeltsinin bu addımını bir daha alqışlayır və ümidvar olduğumu bildirirəm ki, bu addım davam etdiriləcəkdir. Zaqafqaziyada münaqişələrə son qoyulması üçün biz Rusiya Federasiyasının, Rusiya prezidentinin, Rusiya dövlətinin böyük köməyinə möhtacıq. Rusiyanın və şəxsən prezident Boris Yeltsinin göstərdikləri sülhyaratma səyləri, o cümlədən də Dağlıq Qarabağ münaqişəsinin həlli üçün Ermənistanla Azərbaycan arasında vasitəçilik səyləri böyük əhəmiyyətə malikdir. Buna görə də ümid etmək istərdik ki, bu səylər davam etdiriləcək və məsələnin tamamilə tənzimlənməsinə gətirib çıxaracaqdır.

Ümumiyyətlə, mən bugünkü görüşdən çox məmnun qaldığımı bir daha bildirmək istəyirəm. Mən istəyirəm ki, Qafqazda sülh olsun, Qafqazda sabitlik olsun, axı Qafqazda müxtəlif millətlərin nümayəndələri, müxtəlif dinlərə etiqad bəsləyən adamlar yaşayırlar, onların çoxu müsəlman dininə mənsubdur. Təəssüf ki, o vaxtlar Sovet İttifaqında dinə ümumən düzgün münasibət göstərilmirdi, xüsusən də müsəlman dininə təcavüzkar bir münasibət var idi. Elə bu da yaranmış münaqişələrin səbəblərindən biridir. İndi Rusiyada bu məsələlərə zənnimcə, çox düzgün münasibət bəslənilir. Odur ki, bizim borcumuz, bizim hər birimizin borcu, - mən öz borcumdan danışıram, - bu məsələlərə maksimum diqqətlə yanaşmaqdan, bütün dinlərə, bütün əqidələrə, milliyyətindən asılı olmayaraq, bütün adamlara hörmət etməkdən ibarətdir. Təkrar edirəm, bununla əlaqədar Qafqaz xalqlarını sıx birləşdirməyə və Qafqazı dinc bir regiona çevirməyə imkan var.

Mən prezident Boris Yeltsinin fikri ilə razıyam ki, yaxşı olardı, bu görüşlər davam etdirilsin, ənənəyə çevrilsin. Hesab edirəm ki, biz bundan daha çox faydalanarıq. Məsələn, Qafqazda, nəinki Qafqazda, həm də keçmiş Sovet İttifaqında uzun illər işləmiş bir şəxs kimi rəhbərlərin belə tərkibi ilə ilk dəfə qarşılaşıram. Bu, olduqca xoş və fərəhli haldır.

Fürsətdən istifadə edərək, hazırda Rusiyadakı vəziyyət barədə də bir neçə kəlmə demək istəyirəm. İndi Rusiya öz həyatının çox məsul mərhələsini yaşayır, çox mühüm ictimai-siyasi proseslər baş verir, Rusiya prezidentinin seçkilərinə hazırlıq görülür. Təbii ki, bu, rusiyalıların işidir. Rusiya vətəndaşlarının işidir. Bizim

buna ancaq rəğbətimiz, hörmətimiz və ya hər hansı rəyimiz ola bilər. Lakin bununla yanaşı, biz Rusiyanın taleyinə və Rusiyanın gələcəyinə biganə deyilik. Çünki respublikamız, - mən öz respublikamı nəzərdə tuturam, - Azərbaycan Respublikası Rusiya ilə çoxəsrlik tarixlə, iqtisadi, mədəni, elmi, texniki əlaqələrlə, humanitar əlaqələrlə bağlıdır və bu əlaqələr yaşamalı və davam etməlidir. Biz onları qıra bilmərik. Buna görə də onların inkişafı üçün hər şey etməliyik. Bununla əlaqədar biz Rusiyanın sabah necə olacağına, hansı Rusiya ilə əlaqələr quracağımıza biganə deyilik.

Rusiyada iqtisadi və siyasi islahatlar aparılır. Bu baxımdan Rusiya bizə, MDB-yə daxil olan digər dövlətlərə nümunə göstərir. Çox işlər görülmüşdür. Bu islahatlar Rusiyada başlanmışdır. Biz Rusiyanın təcrübəsindən çox şey əxz edirik. Çünki eyni vəziyyətdə yaşayırıq və eyni keçid dövründəyik. Bu islahatların həyata keçirilməsinin təşəbbüsçüsü, bu islahatların fəal aparıcısı Boris Nikolayeviç Yeltsindir. O, beş ildir Rusiya prezidentidir. Əlbəttə, biz, - mən Azərbaycanı nəzərdə tuturam, öz rəyimi deyirəm, - bunun qızğın tərəfdarıyıq ki, Rusiyada siyasi və iqtisadi islahatlar davam etsin, Rusiya demokratik bir ölkə olsun. Biz Rusiyada demokratiyanın çiçəklənməsini, demokratiyanın tərəqqisini görmək istəyirik. Bizim bu tərkibdə burada olmağımız Rusiyada məhz həyatın demokratikləşdirilməsinin, dövlət quruluşunun demokratikləşdirilməsinin nəticəsidir. Biz bu xəttin davam etdirilməsini istəyirik.

Buna görə də biz demokratik Rusiya tərəfindəyik. Rusiyada demokratiya prinsiplərinin daha da bərqərar olmasına, iqtisadi islahatlar aparılmasına, bazar iqtisadiyyatının inkişaf etdirilməsinə tərəfdarıq. Təbii ki, bütün bunlara prezident Boris Nikolayeviç Yeltsin başçılıq edir və bizim rəğbətimiz, dəstəyimiz də, şübhəsiz, onun tərəfindədir.

Mən fürsətdən istifadə edərək, Rusiyanın xeyirxah qonşusu kimi ümidvar olduğumu bildirmək istəyirəm ki, Rusiya xalqı düzgün qərar qəbul edəcək və biz demokratik Rusiya ilə iş görəcəyik.

Diqqətinizə görə sağ olun.

**Müstəqilliyimiz əbədidir**
**Altıncı kitab**

## Türk Dövlətləri başçılarının 2-ci zirvə toplantısının açılışında Heydər Əliyevin nitqi (18 oktyabr 1994-cü il)

Hörmətli Prezident Süleyman Dəmirəl, hörmətli məclis iştirakçıları, hörmətli dövlət başçıları, hörmətli nazirlər, qonaqlar!

Mən bu gün İstanbulda bu toplantının keçirilməsi münasibətilə buraya toplaşmış altı müstəqil dövlətin başçılarını və ümumiyyətlə, bizim ölkələrin vətəndaşlarını Azərbaycan Respublikası adından təbrik edirəm. Sonra bu təşəbbüsə görə, bu toplantının yaranmasına görə Türkiyənin Prezidentini, hörmətli dostumuz və qardaşımız Süleyman Dəmirələ öz minnətdarlığımı bildirmək istəyirəm. Mən çox məmnunam ki, bu gün İstanbulda bir kökdən olan, bir mənşədən olan, eyni dilə mənsub olan altı ölkənin başçıları, dövlət başçıları səviyyəsində bu toplantı keçirilir və bu, iki il öncə Ankarada keçirilmiş Zirvə toplantısının yaxşı ənənəsinin davamıdır. Mən bunu Azərbaycan Respublikası adından bəyənirəm və bu ənənənin davam etməsinin vacibliyini bildirmək istəyirəm.

Mən burada, İstanbulda bu toplantıya gəlmiş hörmətli dostumuz, qardaşımız, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevi, Qırğızıstan Respublikasının Prezidenti Əsgər Akayevi, Türkmənistan Respublikasının Prezidenti Saparmurad Niyazovu, Özbəkistan Respublikasının Prezidenti İslam Kərimovu salarlayıram. Burada toplaşan bütün şəxsləri salamlayıram və hesab edirəm ki, bu görüş də Ankaradakı görüş kimi, gələcəkdə bizim əlaqələrimizin inkişaf etməsi üçün yaxşı əsas yaradacaq.

Ankara görüşündən iki il keçir. İki il müddətində bir çox işlər görülüb. Ancaq bu gün etiraf etmək lazımdır ki, Ankara görüşündə əldə olunmuş qərarların hamısı tam yerinə yetirilmir. Ona görə də bu gün hörmətli Prezident Süleyman Dəmirəlin dediyi fikirlərlə, müddəalarla və onun təklifləri ilə tam razıyam. Eyni zamanda hesab edirəm ki, biz hamımız hərə öz tərəfindən bu fikirləri, müddəaları yerinə yetirməyə çalışsaq, bundan sonra daha çox nailiyyətlər əldə edə bilərik.

Şübhəsiz ki, bizim toplantı xalqlarımızın, ölkələrimizin tarixi kökləri, əsrlər boyu toplanmış adət ənənələrinin birliyi, dil birliyi və fəaliyyət birliyi əsasında qurulub. Bu, çox böyük əsasdır. Ona görə də bu əsasda bizim ölkələr arasında bütün sahələrdə əməkdaşlığı inkişaf etdirməyə, genişləndirməyə, bütün istiqamətlərdə bu əməkdaşlığı təmin etməyə bizim böyük imkanlarımız var. Azərbaycan Respublikası belə qərara gəlib ki, bundan sonra da bu imkanlardan istifadə etsin və əməkdaşlığı genişləndirsin.

Üç ildir ki, Orta Asiya, yaxud da Mərkəzi Asiya dövlətləri və Azərbaycan dövləti artıq müstəqil dövlətlərdir və dünya dövlətləri birliyinə müstəqil dövlət hüququ ilə daxil olublar. Ötən iki il müddətində bizim dövlətlərimiz, mən xüsusən Azərbaycan haqqında demək istəyirəm, Türkiyə Cümhuriyyəti ilə əlaqələri çox surətlə inkişaf etdiriblər. Bu dövrdə bu iki ölkə - Türkiyə ilə Azərbaycan arasında olan əlaqələr, mən deyə bilərəm ki, çox böyük sürətlə inkişaf etdirilir. Azərbaycanın üç il müstəqil dövlət kimi yaşadığı bir dövrdə biz Türkiyənin daim hörmətini, ehtiramını hiss etmişik.

Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan respublikaları da indi müstəqil dövlətlər içərisindədirlər. Bu respublikalarla Azərbaycan arasında tarixi ənənələr, dostluq və qardaşlıq əlaqələri əsrlər boyu mövcud olmuşdur. Biz əsrlər boyu bir yerdə yaşamışıq, bir adət-ənənələrdən istifadə etmişik və bir-birəmizə həmişə kömək etmişik. Müstəqil olmadığımız 70 illik bir dövrdə də, sovetlər birliyinin tərkibində olduğumuz vaxtda da ölkələrimiz arasında, yəni Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında dostluq, qardaşlıq əlaqələri həmişə sıx olub, həmişə çox möhkəm olubdur və biz bir-birimizə həmişə dayaq olmuşuq. Doğrudur, o vaxt biz Sovetlər İttifaqının tərkibində idik, Türkiyə Cümhuriyyəti ilə əlaqələr saxlamağa bizim istənilən səviyyədə imkanlarımız olmayıbdır. Ancaq Azərbaycan ilə Xəzər dənizinin o tərəfində olan Qazaxıstan, Türkmənistan, Özbəkistan, Qırğızıstan arasında əlaqə həmişə sıx olub, çox etibarlı olub və mən bu gün artıq müstəqil dövlət olan dost, qardaş ölkələrin başçıları ilə görüşərkən, burada, İstanbulda bu tarixi bir daha yada salmaq istəyirəm və bir daha bildirmək istəyirəm ki, biz bu dostluq, qardaşlıq ənənələrinə həmişə sadiq olmuşuq, bundan sonra da sadiq olacağıq.

Ancaq bir həqiqəti də qeyd etmək istəyirəm ki, ölkələrimiz müstəqillik əldə edəndən sonra, iki il bundan öncə Ankarada bizim ölkələrimizin rəhbərləri toplaşıb, görüşüb birgə bəyanat qəbul edəndən sonra ola bilər ki, Azərbaycan tərəfinin buraxdığı silər nəticəsində Azərbaycan Respublikasının, Qazaxıstanla, Özbəkistanla, Türkmənistanla, Qırğızıstanla əlaqələri çox zəif olub. Təxminən bir il bundan öncə, mən Azərbaycan Respublikasına başçılıq etməyə başladığın gündən bu qardaş respublikalarla əlaqələrin bərpa olunması üçün çox çalışmışam və bildirmək istəyirəm ki, bu əlaqələrin zəifləməsi və bəzən də qırılmasının səbəbləri ancaq Azərbaycandadır. Ona görə də Azərbaycan tərəfindən bu əlaqələrin uzun müddət zəiflədilməsinə görə və xüsusən 1992-ci ildə Ankara bəyannaməsindən sonra Azərbaycan tərəfindən bu dövlətlərlə əlaqələri inkişaf etdirmək üçün təşəbbüs göstərilmədiyinə görə mən dostlarımdan, qardaşlarımdan üzr istəyirəm və bunu etiraf

edirəm. Eyni zamanda bildirmək istəyirəm ki, Azərbaycan bu əlaqələri gücləndirilməsinə çalışır və bundan sonra da çalışacaqdır. Bu toplantı bizim əlaqələrin inkişaf etməsinə, daha da geniş olmasına çox böyük şərait yaradacaqdır.

Ümumiyyətlə, bir kökdən, bir mənşədən olan və adət-ənənələri bir olan xalqların, ölkələrin, dövlətlərin əməkdaşlığının böyük gələcəyi var və mən hesab edirəm ki, biz bu imkanlardan səmərəli istifadə etməliyik.

Hörmətli Prezident Süleyman Dəmirəlin dediyi kimi, bizim həm iqtisadiyyat sahəsində, həm ticarət sahəsində, həm elm sahəsində, həm ekologiya sahəsində, həm mədəniyyət sahəsində, həm də təhsil səsində əməkdaşlıq etmək üçün böyük imkanlarımız var. İndi bizim Cümhuriyyət də, yeni müstəqillik əldə etmiş digər cümhuriyyətlər də, respublikalar da keçid dövrü yaşayırlar. Məsələn, Azərbaycanı götürsək, biz iqtisadi cəhətdən böyük sosial-iqtisadi böhran içərisindəyik. Ona görə də bu keçid dövründə bir-birimizə köməyimiz və iqtisadi əlaqələrimizin inkişaf etməsi hər bir ölkənin bu böhran vəziyyətindən çıxmasına kömək edəcəkdir.

Azərbaycan üç ildir ki, müstəqillik yolu ilə gedir, hüquqi, silivizasiyalı, demokratik dövlət qurmaq yolu ilə gedir. Azərbaycanda siyasi plüralizm, şəxsiyyət azadlığı, insan hüquqlarının qorunması, öz azadlığı, mətbuat azadlığı bərqərar olubdur, çoxpartiyalı sistem artıq fəaliyyət göstərir. İqtisadiyyat sahəsində biz iqtisadi islahatlar yolu ilə gedirik və bazar iqtisadiyyatı yolu ilə getmək əzmindəyik. Beləliklə də dünya birliyinə, dünya iqtisadiyyatına qoşulmağa çalışırıq. Ancaq bu əlaqələri - həm ikitərəfli, həm də çoxtərəfli əlaqələri burada təmsil olunan dövlətlərlə səmərəli, faydalı qurmaq Azərbaycan üçün daha da əhəmiyyətlidir, daha da mənfəətlidir. Ona görə də mən bildirmək istəyirəm ki, biz o əlaqələri bundan sonra da qurmağa, yaratmağa çalışacağıq.

Qeyd etdiyim kimi, Azərbaycan müstəqillik qazandıqdan sonra üç il müddətində Türkiyə Cümhuriyyəti ilə Azərbaycan arasında çox geniş proseslər gedibdir və biz bunlardan ümumiyyətlə məmnunuq. Ancaq hesab edirik ki, bizim bütün imkanlarımızdan hələ indiyə qədər istifadə olunmayıb. Azərbaycanın professorları, alimləri Türkiyənin universitetlərində uzunmüddətli əməkdaşlıq ediblər. Eləcə də Azərbaycanda Türkiyədən gələn tələblər oxuyublar. Elm sahəsində, təhsil sahəsində, mədəniyyət sahəsində əlaqələrimiz böyükdür. Bu əlaqələr müəyyən inkişaf mərhələsi keçibdir, bunun əsasında biz bundan sonra daha çox işlər görə bilərik. İqtisadiyyat sahəsində, şübhəsiz ki, bizim imkanlarımız böyükdür. Məsələn, Qara dəniz hövzəsindəki ölkələrin əməkdaşlıq etməsi təcrübəsi artıq dünyaya məlumdur və bu sahədə müəyyən nailiyyətlər əldə olunubdur. Ancaq eyni zamanda mən hesab edirəm ki, Xəzər dənizi hövzəsində də əməkdaşlığı təşkil etmək mümkündür.

Sizə məlumdur ki, Azərbaycan bazar iqtisadiyyatına keçərək, xarici ölkələrin investisiyalarını Azərbaycana cəlb etməyə çalışaraq həm öz sənaye potensialından, həm intellektual potensialından, həm də təbii sərvətlərindən başqa ölkələrlə müştərək istifadə etməyə çalışır və bu sahədə müəyyən addımlar atır.

Bildiyiniz kimi, sentyabr ayının 20-də Bakıda Azərbaycan ilə xarici ölkələrin şirkətləri arasında Xəzər dənizinin Azərbaycan sektorunda üç neft yatağından müştərək istifadə olunması üçün 30 illik müqavilə bağlanmışdır. Bu müqaviləni on bir şirkət imzaldı: Azərbaycan Dövlət Neft Şirkəti və xarici ölkələrin on şirkəti. Bunlar yeddi dövlətə mənsub olan şirkətlərdir. Bu, Azərbaycan, Türkiyə, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Rusiya, İsveç və Səudiyyə Ərəbistanın şirkətləridir. Biz hesab edirik ki, bu müqavilə Azərbaycanın müstəqilliyini bir daha nümayiş etdirir. Azərbaycanın dünya iqtisadiyyatına bağlanmaq üçün açıq bir ölkə olduğunu göstərir. Eyni zamanda o, həm xarici şirkətlər üçün, həm onların mənsub olduqları dövlətlər üçün, həm də Azərbaycan üçün müştərək fəaliyyət göstərməyə, böyük nailiyyətlər əldə etməyə imkan yaradır. Mən hesab edirəm ki, bu təcrübədən daha da geniş istifadə oluna bilər. Ona görə də Xəzər dənizi sahəsində əməkdaşlıq problemi, mənə belə gəlir ki, mühüm bir problemdir və bu, müzakirə olunarsa, bu barədə müəyyən fikir əldə edilə bilərsə, biz buna tərəfdar ola bilərik. Ancaq Xəzərin təbii sərvətləri böyükdür - onun həm neft sərvəti, həm də başqa təbii sərvətləri. Şübhəsiz ki, bizim işlərimiz dünyanın müasir, qabaqcıl texnologiyasının tətbiq olunması vasitəsilə həyata keçirilməlidir və ona görə də biz Xəzər dənizinin ekologiyasının təmin olunmasının, başqa təbii sərvətlərinin toxunulmazlığının təmin edilməsini əsas götürməliyik və Azərbaycan neft müqaviləsini imzalayarkən bütün bu məsələlərin həll olunması üçün Xəzər dənizi ətrafındı olan bütün ölkələrlə sıx əməkdaşlıq etmək məramındadır və biz bu əməkdaşlığı təqdir edirik.

Ancaq hesab edirəm ki, təkcə Xəzər dənizinə bilavasitə çıxan ölkələr yox, başqa ölkələr də indi bu işə qoşula bilər və ümumiyyətlə, həm Azərbaycanın, həm də digər ölkələrin təbii sərvətlərindən, o cümlədən enerji daşlayıcılarından istifadə edilməsi və onların ixrac olunması, dünya bazarına birqə çıxarılması şübhəsiz ki, bizim ölkələrimiz üçün çox əhəmiyyətli ola bilər. Hər halda, bizim qonşu dövlətlərin bu barədə Azərbaycanın ərazisindən istifadə etmək fikirləri olsa, bu enerji daşıyıcılarını Azərbaycan buna şərait yaradacaqdır və bu barədə əməkdaşlıq etməyə hazırdır. Eyni zamanda mən ümumiyyətlə, bizim regionda olan bu təbii sərvətlərdən istifadə olunmasında Türkiyənin ərazisindən istifadə edilməsinə çox üstünlük verirəm və hesab edirəm ki, biz bu barədə də birgə əməkdaşlıq edə bilərik. Bizim tarixi, milli, mədəni ənənələrimiz əsasında son vaxtlar görülən işlər təqdirə layiqdir. Məsələn, "Türksoy" proqramının yaranmasını və onun artıq fəaliyyət göstərməsini biz böyük məmnuniyyətlə qəbul edirik. Yaxud da ki, bizim xalqlarımızın, türkdilli xalqların ümumi qüdrətinin yaranması sahəsində başlanan işlər də bizim tərəfimizdən bəyənilib və biz orada öz səylərimizi göstərəcəyik. Bir

sözlə, mən bu barədə çox geniş danışıb vaxt almaq istəmirəm. Hesab edirəm ki, hörmətli Prezident Süleymən Dəmirəl çox əhəmiyyətli fikirlər söylədi. Bu fikirlərlə razı olduğumu və hamımızın birlikdə həm iqtisadiyyat, həm ticarət, həm elm, həm də mədəniyyət sahəsində əməkdaşlıq etməyinizə Azərbaycanın hazır olduğunu bildirmək istəyirəm.

Bilirsiniz ki, Azərbaycan müstəqilliyini əldə edib və mən sizə çatdırmaq istəyirəm ki, Azərbaycanın müstəqilliyi üç il bundan qabaq bu gün - oktyabrın 18-də elan edilib. Bu gün Azərbaycanın bayram günüdür və səciyyəvidir ki, biz burada, İstanbulda, Türkiyədə məhz bu gün toplaşmışıq. Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan öz müstəqilliyini elan edərkən dünya dövlətlərindən birinci olaraq Türkiyə Azərbaycanı müstəqil dövlət kimi tanınmış, Azərbaycanın dünya dövlətləri tərəfindən müstəqil dövlət kimi tanınmasına yol açmışdır. Ona görə də bu gün Azərbaycanın müstəqilliyinin 3-cü ildönümü münasibətilə mən burada, İstanbulda Türkiyə Cümhuriyyətinə və Türkiyənin Prezidenti Süleyman Dəmirələ, Türkiyə xalqına Azərbaycan xalqı adından təşəkkürümü bildirirəm. Əmin ola bilərsiniz ki, Azərbaycan xalqı bu tarixi hadisəni heç vaxt yadından çıxarmayacaqdır.

Ancaq bu üç illik müstəqillik dövrü Azərbaycanın siyasi həyatında çox çətin dövr olmuşdur. Bunu bizim qardaş ölkələrin başçıları da, bütün dünya ictimaiyyəti də bilir. Bütün dünya bilir ki, Azərbaycanın daxilində ictimai-siyasi sabitliyi pozmağa çalışan qüvvələr olubdur, böyük dəyişikliklər olubdur. Bu, hamıya məlumdur. Mən bu barədə geniş danışıb vaxtınızı almaq istəmirəm. Ancaq qeyd etmək istəyirəm ki, 1993-cü ili iyun ayında Azərbaycanın daxilində böyük çəkişmələr baş verirdi və bəzi cinayətkar qüvvələr, siyasi qüvvələr Azərbaycanı parçalamağa, ölkəmizin daxilində ictimai-siyasi sabitliyi pozmağa və Azərbaycanın dövlətçiliyinə qəsd etməyə çalışdılar. Azərbaycan vətəndaş müharibəsi həddinə gəlib çatmışdır. Böyük məmnuniyyətlə qeyd edə bilərəm ki, biz vətəndaş müharibəsinin qarşısını aldıq və keçən ilin iyun ayından indiyə qədər Azərbaycanın daxili vəziyyətini sabitləşdirməyə çalışmışıq. O zaman da, Azərbaycanın bu ağır vəziyyətində də biz rəhbərləri burada olan dost ölkələrimizin, qardaş ölkələrimizin müsbət münasibətini daim hiss etmişik. Buna görə mən təşəkkür edirəm.

Təəssüf ki, bu hadisələr yenidən təkrar olunmağa başladı. Bu il oktyabr ayının əvəlində yenə də bəzi qüvvələr ölkəmizin daxilində ictimai-siyasi sabitliyi pozmaq, dövlətçiliyimizə qəsd etmək və Azərbaycanda dövlət çevrilişi etmək üçün cəhd göstərməyə çalışdılar.

Ancaq siz yəqin müşahidə etdiniz və mən bunu bildirmək istəyirəm ki, Azərbaycan xalqı artıq öz müstəqilliyini əldən vermək istəmir. Buna görə də mənim televiziya ilə çağırışımdan bir neçə dəqiqə sonra Bakının vətəndaşları, yüz minlərlə vətəndaş Azərbaycan Prezidentinin sarayının önünə toplaşdılar, Azərbaycan dövlətçiliyini, Azərbaycan Prezidentini qorumaq əzmində olduqlarını bildirdilər. Biz dövlət çevrilişi edən silahlı qüvvələrin qarşısını xalqın gücü ilə, xalqın iradəsi ilə aldıq, qan tökülmədən bu hadisənin qabağını ala bildik. Bu o demək deyil ki, indi bizim respublikamızda tam əmin-amanlıq yaranıb, ictimai-siyasi vəziyyət tam normallaşıbdır. Ancaq bir həqiqət dünyaya məlum oldu ki, Azərbaycan xalqı öz müstəqilliyini əldən vermək istəmir, öz dövlətçiliyini qoruyur və bundan sonra da qoruyacaqdır. Xalqımız üçün həmin o gərgin və ağır günlərdə dünya ictimaiyyəti Azərbaycanın dövlətçiliyinin qorunmasına tərəfdar çıxdı və Azərbaycan dövləti ilə həmrəyliyini bildirdi. Buna görə də mən bu gün bu fürsətdən istifadə edib həmin günlərdə bizimlə həmrəy olanların hamısına öz minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Ancaq Azərbaycanda daxili vəziyyətin belə gərgin olması eyni zamanda onun altı ildən artıq müddətdə Ermənistan tərəfdən təcavüzə məruz qalması ilə əlaqədardır. Bu müddətdə Azərbaycan torpaqlarının 20 faizi işğal edilibdir, 20 mindən artıq adam vətəni müdafiə edərkən həlak olubdur, 100 minə qədər adam yaralanıbdır, 5 min Azərbaycan vətəndaşı Ermənistanda əsir saxlanılır. İşğal olunmuş torpaqlarımızda şəhərlər, kəndlər, qəsəbələr, binalar hamısı dağıdılıbdır və həmin torpaqlardan bir milyondan artıq vətəndaşımız qaçqın düşərək Azərbaycanın başqa regionlarında yerləşdirilibdir.

Bunlar, təbii ki, Azərbaycanın daxili vəziyyətini, o cümlədən iqtisadi, sosial vəziyyətinin gərginləşdirir. Biz bu vəziyyətdən çıxmağa çalışırıq. Birinci növbədə bir milyondan artıq qaçqını saxlamağa, ağır vəziyyətdə olan bu adamları təmin etməyə çalışırıq. Bu sahədə bizə beynəlxalq təşkilatlar da kömək edir. Mən böyük məmnuniyyət hissi ilə deyə bilərəm ki, Türkiyə, İran, Səudiyyə Ərəbistanı Azərbaycanda qaçqınlar üçün çadır şəhərcikləri yaradıblar, onların bir qismini öz öhdələrinə götürüblər və bizə kömək edirlər. Beynəlxalq təşkilatlar, Birləşmiş Millətlər Təşkilatının Qaçqınlara Yardım Komissarlığı, YUNİSEF və başqa təşkilatlar da Azərbaycana kömək göstərirlər. Bir neçə ölkə bu beynəlxalq humanitar yardımı təşkil edib Azərbaycana göndərməyə çalışır və elə indi də fəaliyyətdədirlər. Ona görə də mən bütün beynəlxalq təşkilatlara təşəkkürümü və minnətdarlığımı bildirirəm və bu gün dost, qardaş ölkələrə müraciət edərək demək istəyirəm ki, hazırda bizim qaçqınları təmin etmək üçün köməyə ehtiyacımız var - həm iqtisadi köməyə, həm də mənəvi köməyə. Hər bir kömək üçün minnətdar olacağıq. Güman edirəm ki, mənim bu fikirlərim də nəzərdən qaçmayacaqdır.

Ancaq Azərbaycanın əsas problemi müharibə vəziyyətindən çıxmaqdır. Bildiyiniz kimi, biz məsələni sülh yolu ilə həll etmək istəyirik, bu məqsədlə beynəlxalq təşkilatlara əməkdaşlıq edirik. Rusiya bu sahədə vasitəçi

rolu oynayır. Başqa böyük dövlətlər də vasitəçilik edirlər. ATƏM təşkilatı, onun tərkibində olan Minsk qrupu çox böyük fəaliyyət göstərir və onların vasitəçiliyi nəticəsində beş ay bundan öncə Ermənistanla Azərbaycan arasında müharibədə atəşin kəsilməsinə nail olmuşuq. Artıq beş aydır ki, atəş kəsilib. Biz bu atəşkəs rejiminə sadiqik, atəşkəs rejimini saxlayırıq. Sentyabrın 29-da mən Birləşmiş Millətlər Təşkilatının tribunasından Azərbaycan Respublikası adından atəşkəs rejiminin saxlanmasına riayət olunacağını bəyan etmişəm və bu gün də bəyan edirəm. Biz çalışırıq ki, bu atəşkəs vaxtında beynəlxalq təşkilatların iştirakı ilə böyük sülh yaranmasına nail olaq. Biz ümumiyyətlə, dünyada gedən bütün silahlı münaqişələrin həll edilməsinin tərəfdarıyıq. Ancaq sizə məlumdur ki, bu münaqişələrdən ən dəhşətlisi və ən uzun sürən münaqişə Ermənistanla Azərbaycan arasında altı illik tarixi olan münaqişədir.

Mən qeyd etdim ki, biz məsələni sülh yolu İlə həll etmək istəyirik. Ancaq bizim şərtlərimiz ondan ibarətdir ki, erməni silahlı qüvvələri işğal olunmuş torpaqlardan şərtsiz çıxmalıdırlar. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası bu barədə dörd qətnamə qəbul etmişdir. Ancaq bu qətnamələr Ermənistan tərəfindən indiyəqədər yerinə yetirilməyibdir. Biz bunların yerinə yetirilməsinə tələb edirik. ATƏM təşkilatı Minsk qrupunun fəaliyyətini, Rusiyanın vasitəçiliyini qiymətləndiririk və onların vasitəsilə Azərbaycanla Ermənistan arasında sülh bağlanmasına çalışırıq. Ancaq yenə deyirəm, bizim şərtlərimiz işğal edilimiş torpaqlarımızdan erməni silahlı qüvvələrini şərtsiz olaraq çıxması ilə bağlıdır. O cümlədən Laçın rayonundan və Şuşa rayonundan erməni silahlı qüvvələri çıxmalıdır. Belə bir şəraitdə Azərbaycan Respublikası Dağlıq Qarabağın statusunu müzakirə etməyə hazırdır və ona müəyyən statusun verilməsinə tərəfdardır.

Güman edirəm ki, burada təmsil olunan dövlətlər də bizim bu ağır məsələmizin həllinə səy göstərəcəklər. Bu məsələnin həll edilməsi beynəlxalq prinsiplərin bərqərar olunmasını tələb edir. Beynəlxalq hüquq normaları, beynəlxalq hüquq prinsipləri hər bir yerdə dövlətlərin ərazi bütövlüyünün təmin olunması, hər bir dövlətin sərhədlərin toxunulmazlığını tələb edir və bir dövlətin başqa bir dövlətin ərazisini zorla ələ keçirməsinə yol verilməməsini tələb edir. Ona görə də biz həmin beynəlxalq hüquq normalarına sadiq olaraq, bu məsələnin sülh yolu ilə həll edilməsinə çalışırıq. Ümidvarıq ki, bizə dost, qardaş olan dövlətlər də bu barədə bizə bundan sonra kömək edəcəklər.

Mən hesab edirəm ki, bizim dostluğumuz, bütün sahələrdə əməkdaşlığımızın böyük gələcəyi var. Mən bu ənənənin davam etdirilməsinin tərəfdarıyam. Gələcək görüşü təxirə salınmadan keçirilməsinin tərəfdarıyam. Təəssüf ki, Ankara görüşündən sonra bu görüşə qədər iki il vaxt keçdi. Hörmətli Prezident Süleyman Dəmirəl 1995-ci ildə belə bir görüşün Türkiyədə keçirilməsini və Türkiyənin ev sahibi olmasını bəyan edib. Mən də bunu Azərbaycanda keçirilməsini və Azərbaycanın ev sahibi olmasını təklif edirəm. Ancaq burada ümumi razılıqla bu görüşün bir ildə sonra hansı dövlətdə keçirilməsi lazım bilinərsə, mən o qərarı qəbul etməyə hazıram. Yəni əsas məqsədimiz bu ənənənin davam etməsidir, bu görüşlərin daimi olmasıdır. Gələn il bu görüş hansı ölkədə keçiriləcəksə, o ölkəyə mən də getməyə hazıram.

Diqqətinizə görə sağ olun.

**Müstəqilliyimiz əbədidir**
**İkinci kitab**

**Qara Dəniz Hövzəsi İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşündə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi (25 oktyabr 1996-cı il)**

Hörmətli cənab sədr!

Hörmətli dövlət və hökumət başçıları!

Xanımlar və cənablar!

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində ənənəvi görüşümüzdə iştirak edən hörmətli dövlət və hökumət başçılarını, nümayəndə heyətlərinin üzvlərini, beynəlxalq təşkilatların nümayəndələrini böyük məmnuniyyətlə salamlayıram.

Zirvə görüşümüzün sədri seçilməsi münasibətilə Rusiya Federasiyasının baş naziri hörmətli Viktor Stepanoviç Çernomırdini ürəkdən təbrik edirəm, diqqətə, mehribanlığa və qonaqpərvərliyə, Rusiyanın paytaxtı gözəl Moskva şəhərində işləməyimiz üçün əla şərait yaratdıqlarına görə Rusiya hökumətinə və bütün rusiyalılara minnətdarlığımı bildirirəm.

Rusiyanın prezidenti Boris Nikolayeviç Yeltsinin bizim Zirvə görüşümüzə göndərdiyi təbrik məktubunu böyük rəğbətlə dinlədim, ona öz dərin hörmət və ehtiramımı bildirirəm, tezliklə sağalmasını, Rusiyada demokratiya və tərəqqi naminə səmərəli işləməsini arzulayıram.

Biz Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının işində iştirak etməyimizə böyük əhəmiyyət veririk. Bu təşkilat yaşamağa qabil olduğunu, zəruri və perspektivli olduğunu getdikcə daha artıq dərəcədə nümayiş etdirir.

Razılıq hissi ilə demək olar ki, 1992-ci ildə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının dövlət başçılarının birinci Zirvə görüşündən sonra keçən dövr ərzində xeyli iş görülmüş, xüsusən energetika, nəqliyyat, rabitə, ticarət sahəsində əməkdaşlığımız genişlənmiş və dərinləşmişdir.

Qara dəniz regionunda çox mühüm nəqliyyat arteriyaları sistemi vardır və hər hansı birgə layihənin müvəffəqiyyətlə həyata keçirilməsi kommunikasiyaları inkişaf etdirmək sahəsində əməkdaşlıqdan asılıdır. Bu baxımdan Şərq-Qərb və Şimal-Cənub dəhlizlərini yaratmaq yolu ilə müasir tranzit Avrasiya nəqliyyat şəbəkəsinin formalaşdırılması fəaliyyətimizin perspektivli istiqamətlərindən biridir. Həmin dəhlizlər nəticə etibarilə Qara dəniz regionunun bütün ölkələrinin nəqliyyat infrastrukturunu birləşdirməli və milli infrastrukturların Transavropa nəqliyyat sisteminin müvafiq qovşaqlarına inteqrasiya edilməsi perspektivini açmalıdır.

Qara dəniz hövzəsini Qafqazla, Xəzər hövzəsi ilə bağlayan amillər çoxdur. Buna görə də, zənnimcə, başqa Xəzəryanı ölkələrin də Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının işinə cəlb edilməsi təşkilatımızın potensialını və imkanlarını əhəmiyyətli dərəcədə genişləndirə bilər.

Azərbaycan Respublikası öz coğrafi mövqeyinə görə Avropa ilə Asiya arasında nəqliyyat və telekommunikasiya əlaqəsini təşkil etmək imkanlarına malikdir və biz bu istiqamətdə bütün əlaqədar ölkələrlə sıx əməkdaşlıq etmək niyyətindəyik.

Biz Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrinin elektroenergetika sistemlərini birləşdirmək layihəsinə böyük əhəmiyyət veririk. Sevindirici haldır ki, Sofiyadakı Qara Dəniz Energetika Mərkəzi Avropa İttifaqı, beynəlxalq banklar və maliyyə strukturları bu layihənin həyata keçirilməsinə qoşulmuşlar.

Mən Qara Dəniz Ticarət və İnkişaf Bankının yaradılması haqqında sazişin təşkilatımızın iştirakçıları olan dövlətlər tərəfindən ratifikasiya edilməsini alqışlayıram və ümidvaram ki, gələn ilin əvvəllərindən həmin bank işləməyə başlayacaq, iri regional layihələrin investisiyalaşdırılmasını təmin edəcəkdir.

Ötən illər ərzindəki fəaliyyətimizin uğurlarını lazımınca qiymətləndirməklə yanaşı, qeyd etmək istəyirəm ki, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, zənnimcə, hələ də kifayət qədər çevik təşkilata çevrilməmişdir. Birgə layihələrin müvəffəqiyyətlə həyata keçirilməsi üçün əməkdaşlığın hüquqi bazasını daha dəqiq müəyyənləşdirmək, elə güclü təşkilat mexanizmi yaratmaq lazımdır ki, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının bütün strukturlarının işini əlaqələndirə bilsin.

Biz birgə səylərlə Qara Dəniz İqtisadi Əməkdaşlıq regionunda özəl sahibkarlıq üçün əlverişli şərait yaratmalıyıq və bundan ötrü təşkilatın işgüzar şurasının işini gücləndirməliyik.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının açıqlığı, Avropa İttifaqı, MDB, İqtisadi Əməkdaşlıq Təşkilatı ilə, digər belə regional birliklər və təşkilatlarla səmərəli əməkdaşlığı onun ən mühüm vəzifəsi və müvəffəqiyyətinin rəhnidir. Bu cür əlaqələr həm iqtisadiyyat sahəsində birgə layihələrin müvəffəqiyyətlə həyata keçirilməsinə, həm də təşkilatımızın beynəlxalq nüfuzunun artmasına kömək edərdi.

Hörmətli xanımlar və cənablar!

XXI əsrin, yeni minilliyin başlanğıcını bəşəriyyət böyük ümidlə gözləyir, sülhün, sabitliyin və əmin-amanlığın bərqərar olacağına ümid bəsləyir. Bizim borcumuz bu tarixi məqsədin həyata keçməsinə öz töhfəmizi

verməkdən ibarətdir. Bu isə bizdən sülhün əleyhinə, müharibələrin, hərbi münaqişələrin qızışdırılmasına yönəldilən hər hansı niyyətin qarşısını qətiyyətlə almağı tələb edir.

Bir çox müharibələrin ağır nəticələrini öz üzərində hiss etmiş Qara dəniz hövzəsi regionunun buna xüsusi ehtiyacı vardır. Son vaxtlar genişlənmiş separatçılıq, davakar millətçilik, beynəlxalq terrorizm təzahürlərini biz əzm və qətiyyətlə dəf etməliyik. Biz beynəlxalq hüquqi prinsipləri, yəni hər bir ölkənin ərazi bütövlüyü, suverenliyi prinsiplərini qətiyyətlə müdafiə etməliyik.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının proqramlarının həyata keçirilməsi üçün Qafqazın necə böyük əhəmiyyətə malik olduğu məlumdur. Bununla yanaşı Qafqaz hərbi münaqişələrdən çox əzab-əziyyət çəkir, Qafqazın bütün ölkələri, bütün xalqları əzab-əziyyət çəkirlər. Ona görə də Qafqazda hərbi münaqişələrə son qoyulması Qara dəniz hövzəsində uğurlu iqtisadi əməkdaşlıq üçün ən mühüm şərtdir.

Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunu ələ keçirmək məqsədi ilə Ermənistan Respublikasının törətdiyi təcavüz ölkəmizə çox böyük ziyan vurmuşdur. Respublikamızın ərazisinin iyirmi faizi işğal edilmiş, bir milyondan çox soydaşımız öz yaşayış yerlərindən qovulmuş, qaçqına çevrilmişdir və çadır şəhərciklərində çox ağır şəraitdə yaşayır.

1994-cü ilin may ayında atəşkəs haqqında saziş əldə edilmişdir. Ona indiyədək əməl olunur. Lakin tam mənada sülh yoxdur. Biz Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına ardıcıl surətdə çalışırıq. Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, qaçqınların öz yaşayış yerlərinə qaytarılması, Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağa yüksək muxtariyyət verilməsi münaqişənin həll edilməsi üçün əsas prinsiplərdir. Məncə, belə universal prinsip Qafqazda bütün hərbi münaqişələrə sülh yolu ilə son qoyulmasının əsasını təşkil edə bilərdi.

Zati-aliləri!

Şübhə etmirəm ki, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında bizim birgə işimiz regionumuzda sülhün və sabitliyin möhkəmlənməsinə, xalqlarımızın rifahının və tərəqqisinin yüksəlişinə kömək edəcəkdir.

Buna görə də mən bir daha bəyan edirəm ki, Azərbaycan Respublikası həmin nəcib məqsədlərə nail olmaq naminə təşkilatımız çərçivəsində ən sıx əməkdaşlığa hazırdır.

Diqqətinizə görə təşəkkür edirəm.

**Müstəqilliyimiz əbədidir**
**Yeddinci kitab**

**Amerika Birləşmiş Ştatlarının dövlət katibi Kolin Pauellin**
**Azərbaycan Respublikasının və Ermənistan Respublikasının prezidentləri,**
**ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşündə**
**Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin bəyanatı**
**(Ki Uest şəhəri, 3 aprel 2001-ci il)**

Amerika Birləşmiş Ştatlarının dövlət katibi hörmətli cənab Pauell!
Hörmətli Minsk konfransının həmsədrləri!
Hörmətli görüş iştirakçıları!
Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri!
Xanımlar və cənablar!

Hər şeydən əvvəl, məni Amerika Birləşmiş Ştatlarına səfərə dəvət etdiyiniz üçün, cənab dövlət katibi, sizə minnətdarlığımı bildirmək istəyirəm. Qonaqpərvərliyə və işimiz üçün çox gözəl şərait yaradıldığına görə Amerika Birləşmiş Ştatlarının hökumətinə, Ki Uest şəhərinin hakimiyyət orqanlarına və bu görüşün bütün təşkilatçılarına təşəkkür edirəm.

Bu görüşün xüsusi xarakteri ondan ibarətdir ki, ilk dəfə olaraq ATƏT-in Minsk qrupu elə bir formatda toplaşmışdır ki, ATƏT-in Minsk konfransının həmsədrləri Ermənistan və Azərbaycan prezidentləri, digər görüş iştirakçıları ilə birlikdə Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması məsələsini bu formatda müzakirə edirlər.

Təəssüf ki, əvvəllər belə formatda görüşlər keçirilməmişdir. İndiyədək uğur qazana bilməməyimizin səbəblərindən biri də bəlkə elə budur. Ümidvaram ki, bu görüş 12 ildən artıq davam edən münaqişənin həllində müsbət rol oynayacaqdır.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi Dünya Birliyinə kifayət qədər yaxşı məlumdur. Mübaliğəsiz deyərdim ki, bu münaqişə dünyada uzun müddət ərzində öz həllini tapmayan münaqişələrdən biridir.

Buna görə də fürsətdən istifadə edərək, münaqişənin tənzimlənməsinə mane olan əsas səbəblər barəsində qısaca danışmaq və bəzi mülahizələrimi bildirmək istəyirəm.

Məlumdur ki, bu münaqişə əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağı qoparıb özünə birləşdirməyə çalışan Ermənistanın Azərbaycana ərazi iddiaları ilə əlaqədar yaranmışdır. 1988-ci ildə bu münaqişə başlananda Ermənistan və Azərbaycan müttəfiq respublikalar kimi Sovet İttifaqının tərkibinə daxil idilər. Lakin Sovet İttifaqı rəhbərliyinin Azərbaycana qarşı ədalətsiz mövqeyi, bəlkə də münaqişənin qarşısını almaq istəməməsi nəticəsində münaqişə inkişaf edərək müharibəyə çevrildi.

Qeyd etmək istəyirəm ki, Azərbaycan Dağlıq Qarabağ regionuna 1923-cü ildə Azərbaycan hökuməti tərəfindən muxtar vilayət statusu verilmişdi və vilayət özünün muxtariyyət hüquqlarından bütünlüklə istifadə edirdi. Buna görə də münaqişənin yaranması üçün heç bir obyektiv səbəb yox idi. Münaqişə başlananda Dağlıq Qarabağda 185 min əhali yaşayırdı. Onların 74 faizini ermənilər, 25,2 faizini isə azərbaycanlılar təşkil edirdi.

Ermənistan qonşu ölkəyə qarşı ərazi iddialarını həyata keçirməyə cəhd göstərərək, əvvəlcə Dağlıq Qarabağdakı separatçı, terrorçu qüvvələri silahlı qarşıdurmaya təhrik etdi, sonra isə özü Azərbaycana qarşı hərbi təcavüzə başladı.

Dağlıq Qarabağ separatçıların və Ermənistan silahlı qüvvələrinin tam hərbi nəzarəti altına düşdü. Onlar buradan bütün azərbaycanlıları - təxminən 50 min adamı qovaraq, etnik təmizləmə həyata keçirdilər. Bütün bunlar qətllər və zorakılıq ilə müşayiət olunurdu. Xocalı şəhərinin sakinləri - azərbaycanlılar isə soyqırımına məruz qaldılar.

Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağı işğal edərək, Dağlıq Qarabağ Vilayətinin hüdudlarından kənarda hərbi əməliyyatlar apardılar və Azərbaycanın daha yeddi iri inzibati rayonunu da ələ keçirdilər.

Beləliklə, 1993-cü ilədək Azərbaycan ərazisinin 20 faizi zəbt olundu və həmin ərazilər indiyədək Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bu ərazidə hər şey dağıdılıb, talan edilib, yerlə-yeksan olubdur, 900-dən çox irili-xırdalı yaşayış məntəqəsi, 600-dək məktəb, 250 tibb müəssisəsi, bütün muzeylər, tarix və mədəniyyət abidələri məhv edilibdir.

Münaqişənin gedişində 30 min Azərbaycan vətəndaşı həlak olubdur, 200 mindən çox adam yaralanıb və əlil olub, minlərlə adam əsir düşüb, girov götürülüb, itkin düşübdür. Bir milyona yaxın azərbaycanlı, yəni ölkənin hər səkkiz vətəndaşından biri öz torpağından məhrum olubdur və artıq doqquzuncu ildir ki, çadırlarda dözülməz dərəcədə ağır şəraitdə yaşayır. Bu çadırlarda tam bir yeni nəsil doğulub boya-başa çatmışdır.

Bu gün dünyada bir dövlətin başqa bir dövlətin ərazisini işğal etməsi, orada kütləvi etnik təmizləmə aparması kimi ikinci bir hala rast gəlmək mümkün deyildir. Təəssüf ki, Dünya Birliyi bu faciəni sükutla seyr edir. Azərbaycanın təcavüzkarı cilovlamaq barədə qanuni tələbləri isə dəstəklənmir.

Doqquz il bundan əvvəl, 1992-ci il martın 24-də ATƏM-in Nazirlər Şurası özünün Helsinkidə çağırılmış fövqəladə iclasında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hərtərəfli tənzimlənməsinə nail olmaq üçün Minsk konfransının keçirilməsi barədə qərar qəbul etmişdir. Bununla da münaqişənin tənzimlənməsinə dair beynəlxalq təsisat yaradılmışdır. Konfransın mandatını və danışıqlar prosesinin strukturunu müəyyənləşdirən bu qərar çox böyük əhəmiyyət daşıyır.

1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğalı məsələsini bir neçə dəfə müzakirə etmişdir. Dörd qətnamə - 30 aprel tarixli 822 nömrəli, 29 iyul tarixli 853 nömrəli, 14 oktyabr tarixli 884 nömrəli və 11 noyabr tarixli 874 nömrəli qətnamələr qəbul edilmişdir.

Bu qətnamələrdə BMT-nin Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistan silahlı qüvvələrinin dərhal və qeyd-şərtsiz çıxmasını, habelə qaçqınların və məcburi köçkünlərin daimi yaşayış yerlərinə, öz doğma torpaqlarına qayıtması üçün şərait yaradılmasını qətiyyətlə tələb etmişdir. BMT Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü birmənalı şəkildə dəstəkləmiş, Dağlıq Qarabağ regionunun Azərbaycana mənsubiyyətini təsdiq etmişdir. Təhlükəsizlik Şurası həmçinin ATƏM-in Minsk qrupunun vasitəçilik fəaliyyətini də dəstəkləmişdir.

Lakin bütün bu qətnamələr yerinə yetirilməmişdir və BMT-nin Təhlükəsizlik Şurası indiyədək öz qərarlarının yerinə yetirilməsinin qayğısına qalmamışdır.

1994-cü ilin dekabrında ATƏM-in Budapeştdə keçirilən zirvə görüşündə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏM-in fəaliyyətinin intensivləşdirilməsi barədə qərar qəbul olunmuşdur. ATƏM-in üzvü olan dövlətlərin başçıları nizamlamanın mərhələli xarakterini müəyyən etmiş və ATƏM-in Minsk konfransının həmsədrlərinə silahlı münaqişənin dayandırılması barədə saziş hazırlamağı tapşırmışdılar. Saziş bütün tərəflər üçün münaqişənin əsas nəticələrinin aradan qaldırılmasını özündə əks etdirməli və Minsk konfransının çağırılması üçün əsas olmalı idi. Münaqişə zonasında sülhün təmin edilməsi üçün ATƏM-in çoxmillətli qüvvələrinin yerləşdirilməsi barəsində də qərar qəbul olunmuşdu.

1996-cı ilin dekabrında ATƏT-in Lissabon zirvə görüşündə münaqişənin nizama salınmasının baza formulu müəyyən edilmişdi. ATƏT-in üzvü olan bütün ölkələr, Ermənistan Respublikasından başqa, nizamlanmanın üç əsas prinsipini dəstəkləmişdilər. Bu prinsiplər Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsini, Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinə təminat verilməklə Azərbaycanın tərkibində Dağlıq Qarabağa ən yüksək dərəcəli özünüidarə statusu verilməsini nəzərdə tuturdu.

Beləliklə, beynəlxalq birlik nizamlamanın hüquqi bazasını müəyyən etmiş, danışıqlar təsisatını yaratmış və vasitəçilərin vəzifələrini müəyyən etmişdi.

ATƏT-in Lissabon zirvə görüşündən sonra Minsk qrupunun həmsədrləri dünyanın üç ən böyük dövləti - Rusiya, ABŞ, Fransadır. Biz bu ölkələrə böyük ümidlər bəsləyirdik və güman edirdik ki, onların səyləri ilə münaqişə tənzimlənəcək, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq və qaçqınlar özlərinin daimi yaşayış yerlərinə qayıdacaqlar. Lakin, təəssüf ki, hələlik bütün bunlar həyata keçməmişdir. BMT-nin və ATƏT-in qəbul etdikləri qərarların heç birini Ermənistan yerinə yetirmir.

Minsk qrupunun həmsədrləri Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair üç təklif vermişlər. Onların 1997-ci ilin iyununda təqdim etdikləri ilk təklif münaqişənin paket həllini, 1997-ci ilin oktyabrında verdikləri ikinci təklif isə münaqişənin mərhələli həllini nəzərdə tuturdu. 1998-ci ilin noyabrında həmsədrlər yeni, üçüncü təklif - "ümumi dövlət" təklifini vermişlər.

Azərbaycan həmsədrlərin birinci və ikinci təkliflərini danışıqlar prosesinin aparılması üçün əsas kimi qəbul etmişdir, baxmayaraq ki, bu təkliflərin bəzi müddəaları beynəlxalq hüququn norma və prinsiplərinə zidd idi. Azərbaycanın ərazi bütövlüyü prinsipini tam təmin etmirdi. Hətta belə bir vəziyyətdə də Ermənistan bu təklifləri qəbul etməkdən imtina etdi və açıq-aşkar qeyri-konstruktiv mövqe tutdu.

Həmsədrlərin "ümumi dövlət" təklifini biz qəbul etmədik. Heç bir beynəlxalq-hüquqi bazası olmayan "ümumi dövlət" məfhumu Dağlıq Qarabağı müstəqil dövlət və ərazi qurumu kimi nəzərdə tutur, ona Azərbaycan ilə bərabər hüquqlu "ümumi dövlət" subyekti statusu verir. Bu təklif beynəlxalq hüququn prinsip və normalarına tamamilə ziddir. Azərbaycanı öz ərazisinin bir hissəsindən məhrum edir və faktiki olaraq Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalını qanuniləşdirir.

Biz hesab edirik ki, ATƏT-in Minsk qrupunun həmsədrləri beynəlxalq hüquq prinsiplərini rəhbər tutaraq, danışıqlar prosesinə daha səmərəli təsir göstərməli, münaqişənin tezliklə tənzimlənməsinə, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasına, qaçqınların daimi yaşayış yerlərinə qaytarılmasına səy göstərməli idilər. Azərbaycanın ayırmaz tərkib hissəsi olan Dağlıq Qarabağa Azərbaycanın tərkibində ən yüksək dərəcəli özünüidarə statusu verilə bilər.

Təəssüf ki, həmsədrlər əsasən vasitəçilik fəaliyyəti ilə məşğul olaraq, danışıqlar prosesinə beynəlxalq hüquq normalarına müvafiq surətdə lazımi təsir göstərməmişlər. Rusiyanın, ABŞ-ın, Fransanın simasında ATƏT-in Minsk qrupunun rəhbərlərinə bəslədiyimiz ümidlər hələlik gözlənilən nəticələri vermir.

1999-cu ilin aprelindən Vaşinqtonda ABŞ hökumətinin təşəbbüsü ilə Ermənistan və Azərbaycan prezidentləri arasında birbaşa görüşlər başlanıbdır. Ötən dövr ərzində biz prezident Koçaryan ilə Cenevrədə, Moskvada, İstanbulda, Parisdə, Minskdə, Davosda, Yaltada, habelə respublikamızın sərhədində çoxsaylı görüşlər keçirmişik.

Ermənistan prezidenti ilə dialoqumuz zamanı biz əsasən münaqişənin tezliklə sülh yolu ilə tənzimlənməsi və Ermənistan ilə Azərbaycan arasında uzunmüddətli möhkəm sülh yaradılması üçün qarşılıqlı surətdə məqbul kompromislərin axtarışı ilə məşğul olmuşuq. Qeyd etmək istəyirəm ki, 1999-cu ilin axırlarında biz kompromis əldə edilməsinə yaxın idik. Lakin tezliklə Ermənistan əldə olunmuş razılaşmalardan geri çəkildi.

Çətin danışıqlar gedişində Ermənistan tərəfi həmişə sərt qeyri-konstruktiv mövqe tutmuşdur və bu gün də bu mövqedə qalır. Ermənistan Azərbaycanın ərazisinin 20 faizini işğal etdiyinə və danışıqlarda bu üstünlükdən istifadə etdiyinə görə, biz Ermənistanla razılığa gələ bilmirik. Ermənistan hər vəchlə Azərbaycanın ərazisinin bir hissəsini qoparmağa, özünə birləşdirməyə və ya Dağlıq Qarabağ üçün müstəqillik statusuna nail olmağa çalışır.

Təəssüf ki, bizim görüşlərimizdən arxayınlaşaraq, ATƏT-in Minsk qrupunun həmsədrləri passiv gözləmə mövqeyi tutmuşlar və onlar öz fəaliyyətini "prezidentlər nə barədə razılığa gəlsələr, bu, ATƏT üçün məqbul olacaqdır" prinsipi ilə məhdudlaşdırmışlar.

Biz isə hesab edirik ki, prezidentlərin görüşü ATƏT-in Minsk qrupu həmsədrlərinin fəaliyyətini əvəz etmir. Əksinə, bunlar bir-birini qarşılıqlı surətdə tamamlayaraq, münaqişənin qəti həlli üçün danışıqlar prosesinin irəliləyişini təmin etməlidir.

Beynəlxalq hüququn prinsip və normalarına, BMT-nin nizamnaməsinə uyğun olaraq, BMT-yə daxil olan hər bir müstəqil dövlət ərazi bütövlüyünə, onun sərhədlərinin pozulmazlığına hamı tərəfdən və xüsusən bu münaqişənin həllinə görə məsuliyyəti öz üzərinə götürmüş ATƏT tərəfindən əməl olunmalıdır. ATƏT və onun Minsk qrupu bu prinsipə möhkəm əməl etməli, onun ciddi şəkildə yerinə yetirilməsinə hər cür kömək göstərməlidirlər.

Bu gün danışıqlar prosesində yaranmış vəziyyət isə beynəlxalq münasibətlərdə təhlükəli presedent yaradır.

Beynəlxalq birlik beynəlxalq hüququn norma və prinsiplərinə ciddi əməl olunmasını, bunların möhkəmləndirilməsini təmin etmək əvəzinə, qətiyyətsizlik nümayiş etdirir. Beynəlxalq hüququn ərazi bütövlüyünün toxunulmazlığı, sərhədlərin pozulmazlığı kimi fundamental norma və prinsipləri şübhə altına alınır və bununla da Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda yaşayan 100 min erməniyə görə beynəlxalq praktikanın, beynəlxalq hüququn on illər boyu formalaşmış dayaqları sarsıdılır. Hərbi təcavüzün tanınması nəticəsində əldə edilmiş sülh, sabitlik və təhlükəsizlik isə möhkəm və əbədi ola bilməz.

Mən Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsində yaranmış vəziyyətin tarixini şərh edərək bəyan edirəm ki, Azərbaycan sülhə, 1994-cü ilin mayında əldə olunmuş atəşkəs rejiminə əməl edilməsinə sadiqdir. Biz bundan sonra da münaqişənin sülh yolu ilə tam tənzimlənməsinə nail olmaq üçün səylər göstərəcəyik.

Bununla yanaşı, güman edirəm ki, dediklərim bizim nə qədər çətin vəziyyətdə olduğumuzu təsəvvür etməyə sizə imkan verir. Buna görə də mən ATƏT-in Minsk qrupunun həmsədrlərinə - Rusiyaya, ABŞ-a, Fransaya müraciət edərək, onları silahlı münaqişənin aradan qaldırılması, möhkəm sülh yaradılması üçün öz səylərini fəallaşdırmağa çağırıram.

Sübut etməyə ehtiyac yoxdur ki, ərazisinin 20 faizinin işğal altında olduğu, yüz minlərlə vətəndaşının çadırlarda yaşadığı Azərbaycan münaqişənin aradan qaldırılmasında, sülh əldə edilməsində hamıdan çox maraqlıdır. Aydındır ki, Ermənistan ilə Azərbaycan arasında sülh yaradılması bütün Cənubi Qafqazda həm sabitlik üçün, həm də təhlükəsizlik üçün müstəsna əhəmiyyət daşıyacaqdır.

Biz bu görüşə böyük ümidlərlə gəlmişik və ATƏT-in Minsk qrupu həmsədrlərinin - Rusiyanın, ABŞ-ın, Fransanın fəal səylər göstərəcəyini, habelə Ermənistan Respublikasının konstruktiv mövqe tutacağını gözləyirik.

Diqqətinizə görə təşəkkür edirəm.

**3 aprel 2001**

## Moldova Respublikasının Baş Nazirinin müavini, Xarici İşlər və Avropa İnteqrasiyası Naziri Andrey Stratan ATƏT-in İllik Təhlükəsizliyin İcmalına dair konfransında GUAM adından bəyanatla çıxış etmişdir

2005-ci ilin iyun ayının 21-də Moldova Respublikasının Baş Nazirinin müavini, Xarici İşlər və Avropa İnteqrasiyası Naziri Andrey Stratan ATƏT-in İllik Təhlükəsizliyin İcmalına dair konfransında GUAM adından Vyana şəhərində bəyanatla çıxış etmişdir.

Çıxışında Helsinki Yekun Aktının 30-cu ildönümü və Paris Xartiyasının 15-ci ildönümü ərəfələrində ATƏT-in İllik Təhlükəsizliyin İcmalına dair Konfransında iştirak etməkdən xüsusi məmnunluq hiss etdiyini söyləyən A.Stratan, bu tədbirin nailiyyətlərin və təşkilatın üzləşdiyi problemlərin nəzərdən keçirilməsi üçün çox gözəl imkan olduğunu vurğulamışdır.

A.Stratan GUAM-ın adından danışmaqdan məmnun olduğunu ifadə etmiş və ölkələr arasında təhlükəsizlik sahəsində, xüsusən də ATƏT çərçivəsində əməkdaşlığa xüsusi diqqət yetirildiyini bildirmişdir.

O, həmçinin, GUAM ölkələrin bəzilərinin üzləşdiyi təhlükəsizlik problemlərini ardıcıl olaraq ATƏT-in diqqətinə çatdırıldığını və Moldovanın şərq, Gürcüstanın Abxaziya və Tsinxivali, Azərbaycanın Dağlıq Qarabağ regionlarındakı mövcud konfliktlər Avro-Atlantik məkanda təhlükəsizlik və sabitliyə təhlükə törətməklə adı çəkilən dövlətlərin suverenliyi, ərazi bütövlüyü və müstəqilliyini sarsıdır, demokratik islahatlar və iqtisadi inkişafın tam həcmdə həyata keçirilməsini çətinləşdirir, Avropaya inteqrasiya prosesinə mənfi təsir göstərdiyini söyləmişdir. GUAM ilk növbədə ərazi bütövlüyü və beynəlxalq sərhədlərin toxunulmazlığını ehtiva edən beynəlxalq hüququn norma və prinsiplərinə, həmçinin BMT və ATƏT çərçivəsində qəbul edilmiş müvafiq qətnamə və qərarlara uyğun olaraq ATƏT də daxil olmaqla münaqişələrin həlli istiqamətində beynəlxalq səylərin sürətlənməsinə çağırır.

GUAM Dnestryanı münaqişə kontekstində Moldova-Ukrayna sərhədinin Dnestryanı hissəsində mövcud problemlərin həllində ATƏT-in iştirakını dəstəkləyir və hesab edir ki, bu münaqişənin ümumi həlli istiqamətindəki səylərə real və praktiki töhfə verir.

GUAM Gürcüstanda Cənubi Osetiya münaqişəsinin həllində Birgə Sülhməramlı Qüvvələrin və ATƏT-in Gürcüstandakı Missiyasının aktiv nəzarəti altında keçirilməsi nəzərdə tutulan münaqişə ərazisinin mərhələli demilitarizasiyasına dair razılaşmanın həyata keçirilməsi istiqamətində ATƏT-i öz səylərini intensivləşdirməyə təkid edir və Birgə Nəzarət Komissiyasının iclasında Cənubi Osetiyanın Gürcüstan tərkibində siyasi statusunu müəyyənləşdirilməsi də daxil olmaqla Gürcüstanda münaqişənin sülh yolu ilə davamlı həll edilməsinə yeni təkan verməyə dair qərarına uyğun olaraq, ATƏT-i münaqişə tərəflərinin yüksək səviyyəli nümayəndələrinin görüşün keçirilməsinə çağırır.

Gürcüstan dövləti tərkibində Abxaziya münaqişəsinin sülh yolu ilə həll edilməsinə nail olmaq istiqamətində ATƏT də daxil olmaqla beynəlxalq birliyin davam edən səyləri ilə yanaşı, GUAM ATƏT-in bütün regionda BMT/ATƏT-in birgə Suxumi Ofisinin vasitəsilə bütövlüklə regionda insan hüquqlarına dair vəziyyətin effektiv monitorinqinin aparılmasına dair səylərin aktivləşdirilməsinə və Qali rayonunda onun şöbəsinin açılmasına çağırır.

***GUAM, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyünə hörmət prinsipi əsasında həllinə tam və birmənalı dəstəyini bir daha qeyd edərək, Azərbaycan Respublikasının çərçivəsində Dağlıq Qarabağ regionunda erməni və Azərbaycan icmaları arasında sülh və əməkdaşlığın yaradılması məqsədilə Praqa görüşlərinin nəticələr əsasında tərəflər arasında danışıqların sürətlənməsi alqışlayır və ATƏT-i, xüsusilə də Minsk Qrupunu bu məqsədlə öz səylərini artırmağa çağırır.***

Avropada Adi Silahlara dair Müqavilə Avropa təhlükəsizliyinin təməl daşıdır. Adaptasiya olunmuş "Avropada Adi Silahlara dair Müqaviləni" vaxtında qüvvəyə minməsini dəstəkləyərək, GUAM İstanbul Öhdəliklərinin həyata keçirilməsini ratifikasiya prosedurasına başlanılması üçün vacib şərt olduğu barədə öz mövqeyini bir daha vurğulayır. Rusiya Federasiyasının öz beynəlxalq öhdəliklərini yerinə yetirmək üçün bütün mümkün addımları atacağına, və bununla da regionda etibarın və sabitliyin artırılmasına öz töhfə verəcəyinə ümidvar olduğunu bildirmişdir.

GUAM Dövlətləri Gürcüstan və Rusiya Federasiyası Xarici İşlər Nazirlərinin 30 may 2005-ci il tarixli Birgə Bəyanatında göstərildiyi kimi Gürcüstan ilə Rusiya Federasiyası arasında Gürcüstan ərazisində qalan Rusiya hərbi bazalarının 2008-ci ilə qədər Gürcüstan ərazisindən çıxarılmasına dair əldə edilmiş razılaşmanı alqışlayır və ümidvar olduğunu bildirirlər ki, Bəyanatda əksini tapmış bütün öhdəliklər nəzərdə tutulmuş müddət ərzində tamamilə yerinə yetiriləcəkdir.

Konfrans zamanı müzakirə ediləcək əsas məsələlər – hərtərəfli təhlükəsizlik, digər regional təşkilatlarla əməkdaşlıq və terrorçuluğa qarşı mübarizə həmçinin GUAM-n gündəliyinin başında durur. GUAM terrorçuluq,

mütəşəkkil cinayətkarlıq və digər təhlükəli cinayətlərə qarşı mübarizə sahəsində özünəməxsus təcrübəyə malikdir. Beləliklə, GUAM-a üzv olan Dövlətlər arasında Əməkdaşlığa dair Razılaşma imzalanaraq yuxarıda qeyd olunan hallara qarşı mübarizə məqsədilə GUAM Virtual Mərkəzinin və Dövlətlərarası İnformasiya Analizi Sisteminin yaradılması layihələrinin həyata keçirilməsinə artıq başlanmışdır. C-b Stratanın dediyinə görə, Kişinyov Sammitində qəbul edilmiş sənədlərdə GUAM Dövlətlərinin Prezidentləri təhlükəsizliyin müxtəlif aspektlərinə, o cümlədən Konfransın müzakirə mövzularına xüsusi diqqət yetirmişlər.

**21 iyun 2005-ci il**

**Kiyevdə GUAM ölkələri dövlət başçılarının zirvə görüşü keçirilmişdir**

AzərTAc-ın xüsusi müxbirləri xəbər verirlər ki, mayın 23-də Kiyevdə Prezident sarayında GUAM-ın üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşü keçirilmişdir. Zirvə görüşünün geniş iclasının gündəliyinə GUAM-ın regional qurumdan beynəlxalq təşkilata çevrilməsinin elan olunması, Nizamnamənin və Birgə bəyannamənin imzalanması, habelə bir sıra digər məsələlərin müzakirəsi daxil idi.

Ukrayna Prezidenti Viktor Yuşşenko zirvə görüşünü açaraq, GUAM ölkələrinin dövlət başçılarını - Azərbaycan Prezidenti İlham Əliyevi, Gürcüstan Prezidenti Mixail Saakaşvilini, Moldova Prezidenti Vladimir Voronini, habelə qonaqları - Litva Prezidenti Valdas Adamkusu, Bolqarıstanın vitse-prezidenti Angel Marini, Rumıniyanın, ABŞ Dövlət Departamentinin, ATƏT-in nümayəndələrini salamladı. O dedi ki, bu zirvə görüşü gələcək inkişaf üçün böyük əhəmiyyət daşıyır. GUAM-ın beynəlxalq təşkilata çevrilməsi beynəlxalq münasibətlərin keyfiyyətcə yeni sisteminin formalaşmasının ümumi proseslərinin bir hissəsidir. Beynəlxalq təşkilatların və digər ölkələrin nümayəndələrinin bu görüşdə iştirak etməsi GUAM-a olan marağı bir daha nümayiş etdirir. Bu qurumla Avropa İttifaqı arasında əməkdaşlığın genişləndirilməsi GUAM-ın üzvü olan ölkələrin ərazi bütövlüyünün təmin edilməsi, sülh və təhlükəsizliyin möhkəmləndirilməsi üçün də faydalı olacaqdır. GUAM ölkələrinin qarşılaşdıqları münaqişələrə yalnız birgə səylərlə son qoymağın mümkünlüyünü bildirən Ukrayna Prezidenti dedi ki, biz bütün qonşu ölkələri bu münaqişələrin həlli üçün təsirli səylər göstərməyə çağırırıq. O vurğuladı ki, GUAM bu istiqamətdə Avropa İttifaqı, ATƏT, habelə ABŞ və digər dövlətlərlə fəal və konstruktiv qarşılıqlı fəaliyyətə hazır olduqlarını bildirmişlər.

Azərbaycan Prezidenti İlham Əliyev zirvə görüşündə nitq söylədi. Dövlətimizin başçısı görüşün yüksək səviyyədə keçirilməsinə görə Ukrayna tərəfinə təşəkkür etdi. GUAM-ın əhəmiyyətini, Avropaya inteqrasiya baxımından bu təşkilat çərçivəsində əməkdaşlığın zəruriliyini vurğulayaraq bildirdi ki, ölkələrimiz özlərinin müstəqilliyini möhkəmləndirməyin yeni mərhələsini yaşayır və daha sıx regional əməkdaşlığa keçirlər. Bu baxımdan energetika amili münasibətlərimizdə üstün yer tutacaqdır. İqtisadi layihələr ölkələrimizin mövqeyini möhkəmləndirməyə və Avropa İttifaqına inteqrasiya prosesini sürətləndirməyə kömək edəcəkdir. Dövlətimizin başçısının fikrincə, GUAM ölkələrinin iqtisadiyyatının inkişafı üçün nəqliyyat problemlərinin həllinin də böyük əhəmiyyəti vardır.

Azərbaycan Prezidenti separatizm və terrorizmlə mübarizənin zəruriliyini də vurğulayaraq dedi ki, terrorizmlə təklikdə mübarizə aparmaq mümkün deyildir. Dövlətimizin başçısı xatırlatdı ki, GUAM-ın üzvü olan dörd ölkədən üçünün ərazi bütövlüyü pozulmuşdur. Separatizmlə mübarizədə vahid yanaşma olmalıdır, əks halda, bu, fəlakətli nəticələrə gətirib çıxara bilər.

Prezident İlham Əliyev əminliyini vurğuladı ki, yeni format alan GUAM beynəlxalq aləmdə özünü göstərəcək və regionumuzda təsirli təşkilat olacaqdır.

Gürcüstan Prezidenti Mixail Saakaşvili çıxışında MDB-nin nizamnaməsində kollektiv təhlükəsizlik baxımından qarşıya qoyulan məsələlərin yerinə yetirilmədiyini xatırlatdı. Separatizmlə və terrorizmlə mübarizə barədə Prezident İlham Əliyevin fikirlərini yüksək dəyərləndirən Mixail Saakaşvili bütün sahələrdə əməkdaşlığın gücləndirilməsində, neft və qazın dünya bazarlarına çatdırılmasında Azərbaycanın oynadığı rolun əhəmiyyətini vurğuladı. O, enerji daşıyıcılarının Gürcüstan və Qara dəniz vasitəsilə Ukrayna, Moldova ərazilərindən keçməklə nəqlinin həm siyasi, həm də kommersiya baxımından çox faydalı olacağını bildirdi. Gürcüstan Prezidenti Dağlıq Qarabağ, Abxaziya və Dnestryanı münaqişələrin həlli ilə bağlı fikirlərini də açıqladı. GUAM-ın heç bir başqa ölkəyə, birliyə və təşkilata qarşı yaradılmadığını xatırladan Mixail Saakaşvili dedi ki, təşkilatımızın gücləndirilməsi üzv ölkələrin istəyidir və bu istiqamətdə səylər birləşdiriləcəkdir.

Sonra çıxış edən Prezident Vladimir Voronin Moldovanın GUAM-da sədrliyi dövründə görülmüş işlərdən danışdı. Bildirdi ki, bu müddətdə üzv ölkələrin fəal işi sayəsində GUAM beynəlxalq təşkilata çevrilmiş, onun Katibliyi fəaliyyətə başlamışdır. O, “GUAM Ölkələrinin Gənclər Forumu” beynəlxalq təşkilatının yaradılmasını da mühüm hadisə kimi qiymətləndirdi. Prezident Voronin daha sonra vurğuladı ki, bu ilin fevralında Bakıda keçirilmiş görüş energetika sahəsində GUAM ölkələrinin strategiyasının hazırlanmasının zəruriliyini aydın şəkildə müəyyənləşdirməyə imkan vermişdir.

Zirvə görüşündə qonaqlar - Litva Prezidenti Valdas Adamkus, Bolqarıstanın vitse-prezidenti Angel Marin, Rumıniyanın xarici işlər naziri Mixay Rezvan Unquryanu, QİƏT-in baş katibi Leonidas Xrizantopulos və başqaları çıxış edərək GUAM-ın sağlam təməl üzərində qurulduğunu, bu cür təşkilatlar çərçivəsində əməkdaşlığın demokratik dəyərlərin inkişafı və müxtəlif sahələrdə mühüm nailiyyətlər qazanmaq baxımından fayda gətirəcəyini bildirdilər. Qara dəniz və Xəzər dənizi hövzəsi ölkələrinin iqtisadi inkişafı üçün energetika sahəsində birgə layihənin reallaşdırılmasının günün tələbi olduğunu, regional əməkdaşlığın genişlənməsi istiqamətində səyləri dəstəklədiklərini vurğuladılar.

Sonra dövlət başçılarına xarici işlər nazirlərinin, iqtisadiyyat, energetika, nəqliyyat nazirləri və gömrük xidmətləri rəhbərlərinin, hüquq mühafizə orqanları rəhbərlərinin, sərhəd xidmətləri rəhbərlərinin, ticarət və sənaye palataları rəhbərlərinin birgə iclasları və imzalanacaq sənədlər barədə ətraflı məlumat verildi. Bildirildi ki, həmin sənədlər GUAM ölkələri arasında əlaqələrin, gələcək əməkdaşlığın daha da möhkəmlənməsinə xidmət edəcəkdir.

GUAM-da sədrlik Moldovadan Ukraynaya keçdi. Zirvə görüşündə cari məsələlər barədə də müzakirələr aparıldı.

## Azərbaycan Prezidenti İlham Əliyevin Bəyanatı
## (23 may 2006-cı il)

-Hörmətli xanımlar və cənablar!

İlk növbədə, zirvə görüşünün gözəl təşkilinə görə Ukrayna tərəfinə bir daha təşəkkür etmək istərdim. Biz özümüzü çox rahat hiss edirdik, bizə böyük qonaqpərvərlik göstərilmişdir və zirvə görüşünün iştirakçılarına olan diqqətə görə Prezident Viktor Andreyeviç Yuşşenkoya çox minnətdarıq.

Bugünkü zirvə görüşü tarixi hadisədir, çünki təşkilatımız transformasiya olunur və onun fəaliyyətinin tamamilə yeni mərhələsi başlanır – Demokratiya və İqtisadi İnkişaf Uğrunda təşkilat – GUAM. Bu mərhələ ölkələrimizin gələcək inkişafını, regionumuzda inteqrasiya proseslərini, demokratik təsisatların möhkəmləndirilməsi proseslərini də, yəqin ki, xeyli dərəcədə irəlicədən müəyyənləşdirəcəkdir. Başqa sözlə, buraya hər bir ölkənin inkişafını öncədən müəyyən edən bütün istiqamətlər daxildir. Təşkilatın yaranmasından ötən 10 il ərzində ölkələrimiz ağır məqamlar yaşamışdır. Əlbəttə, bu ağır vəziyyətdən ləyaqətlə çıxmağımız bir daha göstərdi ki, ölkələrimiz yetkin, müstəqil dövlətlərdir və öz xalqlarının mənafelərinə əsaslanan müstəqil siyasət aparır, habelə əməkdaşlıq üçün açıqdır. GUAM-ın yeni təşkilata çevrilməsi, - əminəm ki, o, səmərəli beynəlxalq təşkilat olacaq, - əlbəttə ki, GUAM-ın üzvü olan ölkələrin rəhbərliyinin böyük xidmətidir. Əminəm ki, gələcəkdə təşkilatımızın müvəffəqiyyəti həm ikitərəfli əsasda, həm təşkilat çərçivəsində, həm də digər beynəlxalq təşkilatlarda sıx qarşılıqlı fəaliyyətdən asılı olacaqdır. Mən əminəm ki, indi, təşkilatımızın beynəlxalq təşkilata çevrildiyi vaxtda biz müxtəlif beynəlxalq qurumlarda da vahid mövqelərdən çıxış edəcək, bir-birimizə yardım göstərəcək, bir-birimizi dəstəkləyəcək və fəal əməkdaşlıq edəcəyik.

Bu gün ölkələrimizin həyatının bütün tərəfləri ilə bağlı məsələlərin çox geniş dairəsi müzakirə edildi. Demokratik inkişaf məsələləri də gündəliyin mərkəzində idi, çünki möhkəm demokratik təsisatlar, ictimai nəzarət və azadlıqlar olmasa, heç bir uğurlu iqtisadi nailiyyət uzunmüddətli və davamlı ola bilməz. Əlbəttə, iqtisadiyyat geri qalarsa, ölkələrin uğurlu inkişafı və demokratik proseslərin irəliləməsi də çətinləşəcəkdir. Odur ki, bu proseslərin paralel surətdə inkişafı müvəffəqiyyətin rəhnidir. Bu baxımdan həmin sahədə əlaqələri daha da genişləndirməyin, habelə diqqəti iqtisadiyyatın gələcək inkişafını öncədən müəyyənləşdirə biləcək konkret layihələr üzərində cəmləşdirməyin zəruriliyi məsələsində GUAM-ın bütün iştirakçıları arasında tam anlaşma var.

Ölkələrimizin ərazisi Asiya ilə Avropa arasında, Xəzər hövzəsi ilə Avropa arasında təbii dəhlizdir. Əlbəttə ki, fəal nəqliyyat infrastrukturu yaradılması uğurlu iqtisadi inkişafı, əslində, bir çox illər öncədən müəyyən edəcəkdir. Çünki qloballaşma proseslərinin baş verdiyi, regionda çox güclü iqtisadi fəaliyyət getdiyi, rəqabətin artdığı indiki vaxtda fəal, sabit, səmərəli nəqliyyat kommunikasiyalarının olması müvəffəqiyyətin rəhnidir. Bu baxımdan həmçinin kommunikasiya layihələri olan enerji layihələri GUAM çərçivəsində əməkdaşlığın ümumi fonunu əhəmiyyətli dərəcədə tamamlayır. Azərbaycana gəldikdə, ölkəmizdə həyata keçirilən dünya miqyaslı iri enerji layihələri artıq reallığa çevrilir və təşkilatımız çərçivəsində inteqrasiyanın daha da genişlənməsinə kömək edəcəkdir. İnteqrasiya proseslərini inkişaf etdirmək üçün siyasi iradə var, yaxşı iqtisadi baza var. Ölkələrimizin iqtisadiyyatının inkişaf dinamikasını izləsək, artımın, özü də ikirəqəmli ədədlə ifadə edilən sanballı artımın olduğunu görərik. Artım üçün potensialın olması da göz qabağındadır. Biz bütün mövcud imkanlardan istifadə etməli, inteqrasiya proseslərini təkcə hansısa ayrı-ayrı layihələr çərçivəsində deyil, həm də ümumiyyətlə, maksimum hərəkətə gətirməliyik. Beləliklə də, bütün sahələrdə maksimum səmərəli əməkdaşlığı təmin etməliyik.

Regionda təhlükəsizlik tədbirlərini möhkəmləndirmədən, sabitliyi möhkəmləndirmədən, terrorizmlə, təcavüzkar separatizmlə mübarizəni gücləndirmədən səylərimiz uğurlu olmayacaqdır. Ona görə ki, regionda təhlükə qalmaqdadır, vəziyyətin sabitliyinin pozulması riski qalmaqdadır. Təəssüf ki, ölkələrimiz ərazilərində dondurulmuş münaqişələrin mövcud olduğu dövlətlərdir, ərazilərimizdə heç bir beynəlxalq təşkilatın əsla nəzarət etmədiyi zonalar mövcuddur. Bunlar Avropanın bədənində “qara ləkələrdir”. Vəziyyətin sabitliyini pozan separatçı, kriminal rejimlər, əlbəttə ki, ölkələrimizin səmərəli əməkdaşlığı və inkişafı üçün başlıca maneədir.

Bu gün zirvə görüşündə təcavüzkar separatizm və dövlətlərimizin ərazi bütövlüyünün pozulması problemlərinə ölkələrimizin münasibətlərini çox dəqiq müəyyən edən olduqca mühüm sənədlər də imzalandı. Bunlar Kiyev Bəyannaməsi, məhz tənzimlənməmiş münaqişələr haqqında Birgə bəyannamədir. İşğalçı və separatizmi dəstəkləyən ölkələr istisna olmaqla, bütün dünya, bütün dövlətlər ölkələrimizin ərazi bütövlüyünü tanımışdır, Birləşmiş Millətlər Təşkilatı tanımışdır. Odur ki, ölkələrimizin ərazilərindəki münaqişələrin sülh yolu ilə hər hansı şəkildə həlli yalnız ərazi bütövlüyünün bərpa edilməsini nəzərdə tutan beynəlxalq hüquq prinsipləri əsasında mümkündür.

Gürcüstan, Moldova və Azərbaycan ərazilərində separatizmlə bağlı baş vermiş proseslərin mənşəyi, dinamikası və nəticəsi eynidir. Etnik təmizləmə siyasəti ilə müşayiət olunmuş təcavüzkar separatizm ölkələrimizin ərazi bütövlüyünün pozulmasına gətirib çıxarmışdır. Mənim heç bir şübhəm yoxdur ki, ölkələrimizin ərazi bütövlüyü bərpa ediləcəkdir. Əlbəttə, biz istəyirik ki, bu, sülh yolu ilə və beynəlxalq hüquq normaları çərçivəsində baş versin. Əminəm ki, biz buna nail olacağıq.

Biz fəal olmalıyıq, fəal surətdə birləşməliyik, əməkdaşlıq etməliyik və GUAM çərçivəsində bugünkü işbirliyi ruhu əminliklə deməyə imkan verir ki, təşkilatın gələcəyi uğurludur. Bu, ilk növbədə, bizdən, bizim fəallığımızdan, təşkilatın fəaliyyətinin səmərəliliyindən, konkret layihələrlə dolğunlaşdırılmasından asılı olacaqdır. Biz şüarlardan uzağıq və bu gün müzakirələrdə, GUAM-ın üzvü olan ölkələrin dövlət başçılarının və qonaqların çıxışlarında konkretlik olduqca çox idi. Bu, nikbinlik doğurur, çünki indi real işlər, real qərarlar, real layihələr vaxtıdır. Bu layihələri irəlilətmək üçün iradəmiz var, artıq onları həyata keçirmək üçün maliyyə ehtiyatlarımız var, gələcəkdə artıq qlobal enerji layihələrindən danışmağa imkan verən çox güclü nəqliyyat-energetika infrastrukturu yaratmışıq. Hazırda regionda həyata keçirilən bütün layihələr bu və ya digər dərəcədə regional xarakter daşıyır, baxmayaraq ki, sərmayə qoyuluşunun həcminə görə onlar dünya miqyaslı iri enerji layihələridir. İndi isə artıq qlobal dünya enerji layihələrinin perspektivləri açılır. Ölkələrimiz bu layihələrdə fəal iştirak edir və bizim iştirakımız olmadan onlar gerçəkləşə bilməz.

Mən bugünkü müzakirələrin gedişindən, zirvə toplantısı çərçivəsində hökm sürən ab-havadan, mühüm sənədlərin qəbul olunmasından, habelə təşkilatın müstəqil həyata başlamasından məmnunam. Biz hamımız Demokratiya və İqtisadi İnkişaf Uğrunda təşkilata – GUAM-a gələcəkdə uğurlar arzulayırıq.

Diqqətinizə görə təşəkkür edirəm.

**AzərTAc**
**23 May, 2006.**

## Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində növbəti mərhələ (2003-2006-cı illər)

**Alı BALAYEV,**
*tarix elmləri namizədi*

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1993-2003-cü illər ölkəmizin müstəqilliyinin qorunması, siyasi sabitliyin təmin edilməsi, iqtisadi tənəzzülün qarşısının alınması, ictimai və iqtisadi həyatın bütün sahələrində köklü islahatların aparılması, dövlətimizin beynəlxalq arenada mövqeyinin möhkəmlənməsi ilə yanaşı, Dağlıq Qarabağ münaqişəsində atəşkəsə nail olunmaqla problemin danışıqlar yolu ilə çözülməsi istiqamətində həyata keçirilən səylərlə tarixə düşdü.

2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev bütün digər sahələrdə olduğu kimi, Dağlıq Qarabağ münaqişəsinin ədalətli, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi sahəsində də Heydər Əliyevin siyasi xəttini layiqincə uğurla davam etdirdiyini təsdiqlədi.

İlham Əliyevin Azərbaycan Prezidenti kimi fəaliyyətinin ilk üç ili göstərdi ki, o, ulu öndər Heydər Əliyevin siyasi kursunu sadəcə davam etdirməklə kifayətlənməmiş, bu kursun dövrün, zamanın tələblərinə uyğun təkmilləşdirilməsinə və siyasi qətiyyət göstərərək ölkəmiz üçün taleyüklü məsələlərin yoluna qoyulmasına nail olmuşdur.

Üçillik zaman kəsiyində ölkəmizdə siyasi hüquqi, iqtisadi islahatlar uğurla davam etdirilmiş, iri infrastrukturlar, layihələr həyata keçirilmiş, ölkəmizin beynəlxalq əlaqələri və nüfuzu daha da güclənmiş, sosial-iqtisadi inkişafı parametrlərinə görə Azərbaycan dünyanın lider dövlətlərindən birinə çevrilmişdir.

Prezident İlham Əliyev ən böyük və hələlik, həllinə nail ola bilmədiyimiz problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq normaları əsasında nizamlanması üçün son dərəcə aktivlik nümayiş etdirmişdir. Bu istiqamətdə həyata keçirilmiş məqsədyönlü siyasət nəticəsində Ermənistan bir sıra dövlətlər və nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən təcavüzkar dövlət kimi tanınmışdır. Lakin dünyadakı ikili standartlar problemin ədalətli həlli qarşısında sədd çəkir.

Bununla belə, Prezident İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, sülh danışıqları torpaqlarımızın azad edilməsi istiqamətində yeganə vasitə deyil.

İlham Əliyevin prezidentliyinin ilk üç ili Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı danışıqlar prosesinin sürətlənməsi ilə yadda qaldı.

Hələ Azərbaycan Respublikasının Baş naziri işləyərkən, 2003-cü il sentyabr ayının 4-də İlham Əliyev ATƏT-in Minsk qrupunun rusiyalı həmsədri Yuri Merzlyakovla görüşündə qətiyyətlə qeyd etdi ki, XXI əsrdə, Azərbaycanın və Ermənistanın BMT, MDB, Avropa Şurası kimi beynəlxalq təşkilatların üzvü olduğu, dünya strukturlarına inteqrasiya etdiyi bir dövrdə işğalın davam etməsi yolverilməzdir [3, s. 107, 520].

2004-cü il fevral ayının 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Parlament Assambleyası sədrinin Dağlıq Qarabağ münaqişəsi üzrə xüsusi nümayəndəsi Qoran Lenmarkerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etdi. Prezident qonağın nəzərinə işğal altındakı Azərbaycan ərazilərinin vəziyyətini, ölkə iqtisadiyyatına vurulmuş böyük zərəri, 1 milyona yaxın azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşməsini çatdırmış və ATƏT-in səylərinin bu məqamda nəticəsiz qaldığını da vurğulamışdır.

Qonaq Avropa strukturlarının münaqişənin həllində, eləcə də regionda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsində səylərinin artırılmasının zəruriliyi haqqında Prezident İlham Əliyevin fikirləri ilə razılaşdığını bildirmişdi [l, №28 (3643)].

2004-cü il iyul ayının 23-də Azərbaycan Prezidenti ATƏT-in yeni təyin olunmuş sədri Mauritsio Pavezi ilə görüşündə də 16 ildən çox mövcud olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həlli yollarını müzakirə etdi [10, №170 (3780)].

2004-cü il sentyabr ayının 15-də [8, №216 (3831)] Astanada keçirilmiş MDB-nin zirvə toplantısında Azərbaycanın və Ermənistanın dövlət başçıları və xarici işlər nazirləri səviyyəsində aparılan danışıqlar müsbət qiymətləndirildi. Həmin müddətdə Varşavada görüş zamanı əldə olunmuş razılaşmaya əsasən keçirilmiş və üç saatdan çox davam etmiş təkbətək danışıqlarda İlham Əliyevlə R.Koçaryan münaqişənin sülh yolu ilə aradan qaldırılması ilə bağlı olan müxtəlif məsələləri geniş müzakirə etdilər [9, № 216 (3831)].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2004-cü il sentyabr ayının 22-də BMT Baş Məclisinin 59-cu sessiyasında iştirak etdi [11, №224 (3839)]. Cənab Prezidentin 2004-cü il sentyabrın 24-də Nyu-Yorkda, ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədri səfir Stiven Mənnlə görüşündə Ermənistan Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələsi müzakirə edildi [7, №158 (4077)].

2004-cü il noyabr ayının 23-də BMT Baş Məclisinin 59-cu sessiyasının geniş iclasında "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyətin gündəlikdəki 163-cü maddə kimi müzakirə olunması Azərbaycan diplomatiyasının mühüm uğuru oldu. İclasda Azərbaycan Respublikasının xarici işlər naziri E. Məmmədyarov bəyanat verdi [12, №272 (3887)].

2001-ci ildə Azərbaycan Respublikası Avropa Şurasına qəbul olunduqdan sonra Ermənistanın işğalçı dövlət olması AŞ PA-nın tribunasından bütün dünyaya bəyan edildi. Böyük britaniyalı deputat, Avropa Demokratlar Qrupunun üzvü cənab Devid Atkinsonun hazırladığı və "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair məruzə" adlanan bu sənəd 2004-cü ilin noyabrında AŞ PA-nın Siyasi Komitəsində müzakirə edildi. Sənəddə 20 mindən çox insanın həlak olması, bir milyon insanın qaçqın vəziyyətinə düşməsi faktı göstərilmişdi. Qəbul edilmiş qətnamədə bəzi qeyri-obyektiv müddəalar nəzərə çarpsa da (məsələn, Dağlıq Qarabağdakı separatçı rejimin ayrıca tərəf kimi təqdim edilməsi) nisbətən ədalətli sənədlərdən biri idi. D.Atkinsonun məruzəsində əks olunmuş müddəalar Dağlıq Qarabağ münaqişəsinə dair obyektiv həqiqətləri əks etdirirdi. Bu məruzədə Dağlıq Qarabağın və Azərbaycan Respublikasının 7 rayonunun Ermənistan ordusu və separatçı erməni hərbi qüvvələri tərəfindən işğal edilməsi, həmin ərazilərdə genişmiqyaslı etnik "təmizləmə" əməliyyatlarının aparılması, monoetnik ərazinin yaradılması planının həyata keçirilməsi, məsələnin həllində Azərbaycan Respublikasının dövlət suverenliyinin, Azərbaycan və erməni icmalarının mənafelərinin qorunmasının zəruriliyi kimi mühüm məsələlər öz əksini tapmışdı [2, №5 (3924)].

2005-cı ü yanvar ayının 11-də Azərbaycan Respublikası Milli Məclisinin Sədri Murtuz Ələsgərov Yunanıstanın Azərbaycan Respublikasında fövqəladə və səlahiyyətli səfiri Merkurios Karafotiası qəbul etdi. Görüşdə Ermənistan Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan səfir bildirdi ki, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normalan, Azərbaycanın ərazi bütövlüyü əsasında həllini tapmalıdır. Səfir, həmçinin ATƏT-in fəaliyyətinin daha da gücləndirilməsini vacib saydı [13, №8 (3927)].

2005-ci il yanvar ayının 11-də Çexiyanın paytaxtı Praqa şəhərində Azərbaycan və Ermənistanın xarici işlər nazirləri Elmar Məmmədyarovun və Vardan Oskanyanın görüşü keçirildi. İki ölkə xarici işlər nazirlərinin görüşlərinin əsası 2004-cü il aprel ayının 16-da qoyulmuş və "Praqa prosesi" adını almışdı. Buradakı görüşlərdə nazirlərlə yanaşı, ATƏT-in Minsk qrupunun Rusiya, Fransa və ABŞ-dan olan həmsədrləri də iştirak edirdilər.

"Praqa prosesində" əsas məsələ "mərhələli həll" prinsipidir. Praqa görüşünə getməzdən öncə Ermənistan XİN-in rəhbəri V.Oskanyan bəyanatla çıxış edərək bildirmişdi ki, "Biz konkret məsələləri və detalları müzakirə edəcəyik. Lakin bu detallara daha dərindən vardıqca, danışıqlar prosesində çətinliklərin meydanaçıxma ehtimalları çoxdur. Bu halda biz kompromislərə hazır olmalıyıq". Ermənistan tərəfi kompromisə getməmək üçün ciddi cəhdlər edir-i. Bu ölkənin rəhbərliyi Dağlıq. Qarabağın münaqişədə tərəf kimi qəbul edilməsinə çalışırdı. Bu vəziyyətdə separatçıların Azərbaycan Respublikası ilə meydanda tək qaldığını görən R.Koçaryan hakimiyyəti yenidən "Praqa prosesi"nə qayıtdı [17, №8 (3927)].

2005-ci il iyul ayının 1-də ABŞ paytaxtında ATƏT-in Parlament Assambleyasının illik sessiyasında Dağlıq Qarabağ münaqişəsi üzrə xüsusi nümayəndə Qoran Lenmarker "Ələ keçməyən imkan - Dağlıq Qarabağ münaqişəsinə dair bəzi fikirlər" adlı hesabatını məclis iştirakçılarına təqdim etdi. Bu hesabatda deyilir ki, beynəlxalq ictimaiyyət "Dağlıq Qarabağa müstəqillik verməyə hazır deyildir". Qafqazda bir çox xalqlar yaşayır, bölgəni kiçik, müstəqil dövlətlərə bölmək təhlükəli olardı. Dağlıq Qarabağ münaqişəsinin həlli vacibdir. Bu, beynəlxalq normalara və Avropa dəyərlərinə əsaslanmalıdır.

Q.Lenmarker hesabatda dörd mühüm amilə diqqət yetirmişdi:

1) iştirakçı dövlətlər milli təhlükəsizliklərini risk qarşısında qoyduqlarını anlamalıdırlar;

2) ölkələrdə demokratiya meyarlarına, insan hüquqlarına hörmət olunmalıdır;

3) iqtisadi inteqrasiya möhkəm qarşılıqlı asılılıq yaradır və inkişafa zəmin olaraq bütün əhaliyə təsir edir;

4) gediş-gəliş azadlığı, xüsusilə gənclər arasında, inteqrasiyanı bir qədər artırır [19, №150 (4069)].

2005-ci il iyul ayının 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı müzakirələr apardı [7, №158 (4077)].

2005-ci il avqustun 24-də RF XİN-də ATƏT-in Minsk qrupunun Rusiya, ABŞ və Fransadan olan həmsədrlərinin iştirakı ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü keçirildi. Elmar Məmmədyarov və Vardan Oskanyan arasında ikitərəfli görüşdə Rusiya xarici siyasət idarəsinin başçısı Sergey Lavrov da iştirak etmişdi. Danışıqlarda Azərbaycan XİN başçısının müavini Araz Əzimov, ATƏT-in monitorinq qrupunun rəhbəri Anjey Kasprşik iştirak etmişdir [16, №196 (4115)].

2006-cı il yanvar ayının 9-da AŞ PA-nın Dağlıq Qarabağ problemi üzrə alt komitəsinin Strasburqda keçirilmiş iclasında Böyük Britaniya parlamentinin üzvü Lord Rassel Consonun hazırladığı xüsusi hesabat qəbul olundu. Yeni hesabatda Azərbaycan Respublikası ərazilərinin işğalı, Dağlıq Qarabağdakı rejimin separatçı olması, bir milyon azərbaycanlının yurdundan didərgin düşməsi kimi faktlar öz əksini tapmışdı. Yeni sənədin

Azərbaycan Respublikasının maraq və mənafeləri ilə tam uzlaşdığını təkcə Azərbaycan Respublikası nümayəndə heyətinin üzvləri deyil, həm də ermənilər də qəbul edirdilər. Nümayəndə heyətinin rəhbəri Səməd Seyidovun sözlərinə görə, AŞ PA-nın Dağlıq Qarabağ problemi üzrə qətnaməsində əks olunmuş bütün məqamlar, Azərbaycan Respublikasının ərazi bütövlüyünün pozulması, etnik "təmizləmələr", məcburi köçkünlərin problemləri, işğal olunmuş ərazilərdə qanunsuz yaşayış məskənlərinin salınması qeyd olunmuşdu [15, №5 (4248)].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2006-cı il fevral ayının 11-də Paris yaxınlığındakı Rambuye sarayında ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT sədrinin xüsusi nümayəndəsi ilə görüşdü. Ermənistan Respublikasının Prezidenti Robert Koçaryanla təkbətək görüşündə Dağlıq Qarabağ münaqişəsinin Praqa prinsipləri əsasında nizama salınması ilə bağlı olan məsələlər müzakirə obyektinə çevrildi. [18, №31(5254)].

2006-cı il fevralın 22-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasına səfərə gəldı. Prezidentlərin iştirak etdiyi geniştərkibli yığıncaqda iki ölkə arasında münasibətlərin inkişaf etdiyi vurğulanmışdı. İclasda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin aradan qaldırılması yolları da müzakirə edildi [4, №40(4263)].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2006-cı il mart ayının 13-də Bakıda Prezident sarayında ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədri Stiven Mənni qəbul etdi. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı müzakirələr aparıldı [6, №55 (4278)].

Nəzərdən keçirilən dövrdə 2003-2006-cı illər ərzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dağlıq Qarabağ probleminin aradan qaldırılması məqsədilə Ermənistan prezidenti ilə 6, ATƏT-in həmsədrləri ilə 20, xarici ölkələrə 57 səfəri zamanı müxtəlif ölkələrin dövlət rəhbərləri ilə çoxsaylı görüşlər keçirmişdir [14, №245 (2519)].

Beləliklə, İlham Əliyevin prezidentliyinin ilk üç ilində Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü və beynəlxalq hüquq normalan çərçivəsində nizamlanması üçün müasir təbliğat metodları ilə çevik diplomatik iş aparılmışdır. Bütün xarici səfərlərində, ikitərəfli və çoxtərəfli görüşlərində İlham Əliyev bu problemi ön plana çəkmiş, ölkəmizin qətiyyətli və haqlı mövqeyini bəyan etmişdir. Azərbaycanın beynəlxalq münasibətlərdə rolu və yeri getdikcə güclənməyə başlamış, problemin ədalətli həlli üçün imkanlar yaranmışdır. 2005-ci ilin yanvarında AŞ PA-nın da Ermənistanı təcavüzkar kimi tanınması, bu dövlətə qarşı beynəlxalq qınağın və təzyiqlərin artması Azərbaycan diplomatiyasının böyük uğuru hesab edilməlidir. Diplomatik uğursuzluğu ilə barışmaq məcburiyyətində qalan Ermənistan münaqişənin "Praqa prosesi", yəni "mərhələli həlli" əsasında nizamlanmasına razılıq verməli olmuşdur. Prezident İlham Əliyevin dəfələrlə səsləndirdiyi kimi, Azərbaycan heç zaman ərazi itkisi ilə barışmayaraq, öz ərazisində ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcəkdir. Ölkəmizin getdikcə artan iqtisadi potensialı, günü-gündən güclənən ordusu, möhkəmlənən beynəlxalq nüfuzu, düzgün qurulan diplomatik siyasəti münaqişənin ədalətli həllinə real imkanlar yaratmışdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində bu gün həyata keçirilən siyasət bu nəticənin düzgünlüyünü biri daha sübut edir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Avropa strukturları Ermənistan Azərbaycan. Dağlıq Qarabağ münaqişəsinin həllində səylərini artırmalıdır // Azərbaycan, №28 (3643), 5 fevral 2004

2. Avropa Şurası Qarabağ münaqişəsinin ərazi bütövlüyü prinsipi əsasında həllinə tərəfdardır // Azərbaycan, №5 (3924), 8 yanvar 2005

3. Azərbaycan 2003 inkişaf strategiyasında yeni mərhələ. Bakı, 2005, 520 s.

4. Azərbaycan və Rusiya prezidentlərinin geniş tərkibdə görüşü // Azərbaycan, №40 (4263), 23 fevral 2006

5. Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədri Stiven Mənni qəbul etmişdir // Azərbaycan, №225 (3840). 26 sentyabr 2004

6. Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Stiven Mənni qəbul etmişdir // Azərbaycan, №55 (4278). 14 mart 2006

7. Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul etmişdir // Azərbaycan, №158 (4077), 12 iyul 2005

8. Azərbaycan Prezidenti İlham Əliyevin Astanaya səfəri // Azərbaycan, №216 (3831), 16 sentyabr 2004

9. Azərbaycan Prezidenti İLham Əliyevin Ermənistan Prezidenti Robert Koçaryan ilə təkbətək görüşü // Azərbaycan, №216 (3831), 16 sentyabr 2004

10. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Bakı ofisinin rəhbərini qəbul etmişdir // Azərbaycan, №170 (3780), 24 iyul 2004
11. Azərbaycan torpaqlarının işğalı, ərazi bütövlüyünün pozulması və etnik təmizləmənin nəticələri ilə heç zaman barışmayacaq // Azərbaycan, №224 (3839), 25 fevral 2004
12. BMT-nin Baş Məclisi Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyəti müzakirə etmişdir // Azərbaycan, №272 (3887), 24 noyabr 2004
13. Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir // Azərbaycan, №8 (3927), 12 yanvar 2005
14. Həsənov Əli. Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir // Xalq qəzeti, №245 (25419), 31 oktyabr 2006
15. Qaraxanlı R. AŞ PA-dan Koçaryana yeni il sürprizi // Azərbaycan, №5 (4228). 12 yanvar 2006
16. Moskvada Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair danışıqlar davam etdirilmişdir // Azərbaycan. №196 (4115), 25 avqust 2005
17. "Praqa prosesi" Praqada davam etdirildi // Azərbaycan, №8 (3927), 12 yanvar 2005
18. Prezidentin mətbuat xidmətinin məlumatı // Azərbaycan, №31 (4254), 12 fevral 2006
19. Şəfəq Akif qızı. ATƏT PA sədrinin xüsusi nümayəndəsi Dağlıq Qarabağın müstəqilliyini münaqişənin həllinə alternativ hesab etmir // Azərbaycan, №150 (4069). 2 iyul 2005

**ОЧЕРЕДНОЙ ЭТАП В ПРОЦЕССЕ УРЕГУЛИРОВАНИЯ НАГОРНО-КАРАБАХСКОГО КОНФЛИКТА (2003-2006 гг.).**

*Алы Балаев.*

В статье рассматривается целенаправленная деятельность руководства Азербайджана по справедливому разрешению нагорно-карабахской проблемы. Отмечается, что одной из причин неурегулированности данного конфликта является пассивная и необъективная позиция, занятая Минской группой ОБСЕ. Автором дается подробный анализ всех встреч и обсуждений, которые проводил Президент Азербайджана Ильхам Алиев в направлении решения этих проблем.

**“Dirçəliş-XXI əsr”**.-2010.-№143-144.-S.292-297.

## Bir milyon azərbaycanlının taleyinə beynəlxalq birlik hələ də biganə yanaşır

1988-1993-cü illərdə Ermənistan Silahlı Qüvvələrinin ölkəmizə hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi – Dağlıq Qarabağ, eləcə də ona bitişik olan 7 rayonun (Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan) ərazisi işğal olundu, bir milyona yaxın soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşdü. Məcburi köçkünlər hazırda ölkənin 62 şəhər və rayonunda 1600-dən çox sıx məskunlaşma obyektində müvəqqəti yaşayırlar.

Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində 20 min nəfərdən artıq azərbaycanlı həlak olub, 4866 nəfər itkin düşüb, təxminən 100 min nəfər yaralanıb, 50 min nəfər müxtəlif dərəcəli xəsarət alaraq əlil olub. Hərbi təcavüz ölkəmizin 17 min kv. km. ən məhsuldar torpaqlarının işğalına, 900 yaşayış məntəqəsinin, 130939 evin, 2389 sənaye və kənd təsərrüfatı obyektinin, 1025 təhsil və 798 səhiyyə ocağının, 1510 mədəniyyət müəssisəsinin, 5198 km avtomobil yollarının, 348 körpünün, 7568 km su və 76940 km elektrik xətlərinin dağıdılmasına səbəb olub.

BMT Təhlükəsizlik Şurası münaqişənin tezliklə, sülh yolu ilə həlli, işğal olunmuş ərazilərin azad edilməsi, qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması haqqında 1993-cü ildə 822, 853, 874, 884 saylı qətnamələr qəbul edib. Lakin onlar indiyədək yerinə yetirilməyib.

İlk dövrlərdə məcburi köçkünlərin böyük əksəriyyəti 12 çadır düşərgəsində, 16 fin tipli yığma evlərdən ibarət qəsəbədə, fermalarda, dəmir yolu üzərindəki yük vaqonlarında, ictimai binalarda, yataqxanalarda, təhsil müəssisələrinə məxsus binalar və uşaq bağçalarında, sanatoriya, pansionat, istirahət evlərində, turist bazalarında, tikintisi yarımçıq qalmış binalarda, qohum evlərində və digər kommunal şəraiti olmayan, sanitar normalara cavab verməyən yerlərdə çox ağır şəraitdə məskunlaşmışdı.

Hazırda Azərbaycan əhalisinin hər doqquz nəfərdən biri didərgin düşmüş şəxsdir ki, bu da dünyada əhali nisbətinə görə çox yüksək göstəricidir. Nüfuzlu dövlətlər və beynəlxalq təşkilatlar isə Ermənistanın işğalçılıq siyasətinin ortaya çıxardığı bu mənzərəyə sadəcə seyrçidirlər. Azərbaycana qarşı hərbi təcavüz və onun vurduğu maddi-mənəvi zərər dövlətimizin bir nömrəli problemi olaraq qalır.

Qaçqın və məcburi köçkünlərin bütün sosial problemləri Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli 298 nömrəli sərəncamla təsdiq edilmiş "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" və həmin sərəncamın icrası ilə əlaqədar Nazirlər Kabinetinin 2004-cü il 4 noyabr tarixli 232 s nömrəli sərəncamı ilə təsdiq edilmiş "Tədbirlər planı"nda öz əksini tapıb.

Beynəlxalq birlik problemə biganəlik nümayiş etdirdiyi üçün yük tam şəkildə Azərbaycan dövlətinin çiyinləri üzərinə düşüb. Bu günlərdə iqtisadi inkişaf naziri Şahin Mustafayev bildirib ki, qaçqın və məcburi köçkünlərin mənzil, sosial, iqtisadi şəraitinin yaxşılaşdırılması üzrə tədbirlərin dövlət büdcəsindən maliyyələşdirilməsinə indiyə qədər 4,6 milyard dollar ayrılıb. Dövlət Neft Fondundan isə bu məqsədlə daha 1 milyard dollar vəsait ayrılıb. Didərginlərin yaşayış vəziyyətinin yaxşılaşdırılması istiqamətində 2001-2010-cu illər ərzində 20 min ailəlik 67 yeni qəsəbə və fərdi evlər tikilərək onların istifadəsinə verilib.

Azərbaycan dövlətinin gördüyü bütün tədbirlərə baxmayaraq qaçqın və məcburi köçkün probleminin miqyası o qədər böyükdür ki, onların humanitar, sosial vəziyyəti mürəkkəb olaraq qalır. Hazırda 400 min məcburi köçkün ağır vəziyyətdə yaşayır. Onların 216 mini Bakı şəhərindədir. Dövlət proqramı bütün məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasını nəzərdə tutur. Bu barədə baş nazirin müavini, Qaçqınlar və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov bildirib. Onun sözlərinə görə, dövlət proqramına uyğun olaraq, öncə çadır düşərgələri ləğv edilib. İlbəil ən ağır vəziyyətdə yaşayanlar prioritet seçilir: "Birinci prioritet çadır düşərgələri idi. Onlar artıq köçürülüb. Bundan sonra Fin qəsəbələrinin köçürülməsinə başlanılıb. Sonra isə məktəblər, uşaq bağçaları, düşərgələr, hərbi hissələr, tələbə yataqxanalarından köçürülmə başlanacaq".

Son illər ərzində xarici donorlar tərəfindən qaçqın və məcburi köçkünlərə göstərilən ərzaq və qeyri-ərzaq yardımının həcmi əhəmiyyətli dərəcədə – 4 dəfə azaldılıb. Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda müvəqqəti məskunlaşmış 230 min nəfərdən çox məcburi köçkün artıq bir neçə ildir donor təşkilatlar tərəfindən ərzaq yardımı ilə təmin olunmur. Ümumiyyətlə, 1 milyondan çox qaçqın və məcburi köçkündən hazırda yalnız 30 faizi aylıq ərzaq yardımı ilə təmin olunur. 2001-ci ildə beynəlxalq humanitar təşkilatlar tərəfindən 214 min nəfər məcburi köçkünə ərzaq yardımı dayandırılıb.

Məcburi köçkünlərin maliyyə imkanları məhdud olduğundan onlara müvəqqəti istifadə üçün ayrılmış torpaq sahələrindən səmərəli istifadə olunmasının təmin edilməsində də çətinliklər var. Yeni xırda istehsal sahələrinin yaradılması kiçik və orta biznesin inkişafı, kənd təsərrüfatı, mikro maliyyə və sair layihələrin həyata keçirilməsinə böyük tələbat yaranıb. Köçkünlərin sıx məskunlaşma yerlərində-fermalarda, yataqxanalarda, tikintisi yarımçıq qalmış binalarda, uşaq sağlamlıq düşərgələrində və sair yerlərdə infrastruktur, elektrik xətləri,

içməli su kəmərləri, daxili yollar, dam örtükləri, təhsil, səhiyyə obyektlərinin vəziyyətinin yaxşılaşdırılmasına ciddi ehtiyac duyulur.

Apardığımız araşdırma zamanı məlum oldu ki, Bakı şəhərində köçkünlərin məskunlaşdığı yataqxanaların əksəriyyəti ya qəzalı, ya da ki, istismar müddəti başa çatmış binalardır. Bu isə təhlükəli məqamlardan xəbər verir. Xatırladaq ki, paytaxtda 47 min ailə – 216 min köçkün məskunlaşıb. Onlar 262 yataqxanada məskunlaşıblar. Dərnəgül qəsəbəsində məcburi köçkünlərin daha çox məskunlaşdıqları yataqxanaların istismar müddəti nə az, nə çox 20 il öncə başa çatıb. Hazırda həmin yataqxanaların zirzəmiləri bərbad vəziyyətdədir. Demək olar ki, binalarda kanalizasiya sistemləri sıradan çıxıb. Bəzi yataqxanalarda pilləkənlər yararsız hala düşüb. Onların hər an uçma təhlükəsi var. Əksər yataqxanaların damları uçub. Kanalizasiya sistemi işləmədiyindən bəzi yataqxanaların divarlarından bayıra su sızır. Bu isə hər an təhlükə deməkdir.

Eyni vəziyyət Bakı Dövlət Universitetinin, Texniki Universitetin yataqxanalarında hökm sürməkdədir. Onu da qeyd edək ki, məcburi köçkünlərin məskunlaşdığı yataqxanaların istismar müddəti 30 ildir. Lakin həmin yataqxanalar 50 ilə yaxındır istismardadır. Ən dözülməz vəziyyətə isə məcburi köçkünlərin məskunlaşdıqları yarımçıq tikililərdə rast gəldik. Bakıda xeyli belə bina var. Həmin binalar əsasən Binəqədi, Nizami və Xətai rayonlarında yerləşir. Bu binalarda kommunal xidmətdən danışmağa dəyməz. İş o yerdədir ki, binalarda kanalizasiya sistemi olmadığından burada məskunlaşan qaçqınlar çirkli suları birbaşa küçəyə axıdırlar. Elektrik sistemi bərbad vəziyyətdədir. Bir sözlə, bu binalarda yaşamaq təhlükəlidir.

Yuxarıda adını çəkdiyimiz yataqxanalarda və yarımçıq binalarda apardığımız müşahidələr 18 ildir orada məskunlaşan məcburi köçkünlərin həyatının zindan əzabı olduğuna əminlik yaratdı.

Buradakı mənzərəni görüb heyrətlənməmək mümkün deyil. 16 kvadratmetrlik darısqal, heç bir kommunal şəraiti olmayan otaqlarda ailələr yaşayır. Valideynlər deyir ki, uşaqları rütubətdən xəstəlik, revmatizm tapıblar. Antisanitariya hökm sürür. Adamlar küçələrdən su gətirməli olurlar. Bir binada hərəsində azı 4 nəfər olmaqla 90 ailə yaşayır və bu qədər əhalinin hamısı yataqxanada mövcud olan yeganə hamamdan istifadə etmək məcburiyyətindədirlər. Ayaqyolu da ümumidir. Burada ailələrin əksəriyyəti övladlarını mənzilsizlik probleminə görə evləndirə bilmirlər.

İmişli rayonu ərazisində yerləşən Fin tipli qəsəbədə də olub məcburi köçkünlərin vəziyyətini öyrəndik. Qəsəbədə qarşımıza ilk çıxan iki gənc işsizlikdən və şəraitsizlikdən gileyləndi. Onların sözlərinə görə, bu səbəbdən gənclər qəsəbəni tərk edib Bakıya gediblər. Burada qalanlar isə çiy kərpic kəsib satmaqla məşğuldur. Ən yaxşı halda onlar hər həftənin ikinci günləri mal-qara bazarına çıxırlar. Bakıdan mal-qara almağa gələn qəssabların malını yükləyib çörək pulu qazanırlar. Onlar bildirdilər ki, bu yay şəhərciyi su basıb, xeyli evlər uçub. Nəticədə xeyli insana ziyan dəyib. Sakinlər yolların bərbad vəziyyətdə olmasından şikayətləndilər. Onlar şagirdlərin dərsə gedə bilmədiklərini dedilər.

Buradakı məktəbə də baş çəkdik. Cəmi 6 “fin” otağından ibarət olan məktəbdə tədrisin mənzərəsi çılpaqlığı ilə göz qabağında idi. Otaqlar qışda soyuq olduğu üçün şagirdlər dərsdən yayınmaq məcburiyyətində qalır. Qəsəbədə parka, uşaqların əylənməsi üçün meydançaya rast gəlmədik. Bu və digər səbəblərdən məcburi köçkünlər arasında ali təhsil alanların sayı kəskin şəkildə azalıb.

Şəhərcikdə içməli su təchizatı da ürəkaçan deyil. Kanalizasiya sistemi olmadığından, çirkab suları həyət-bacaya dolur. Bəzi məhəllələrdə üfunətdən nəfəs almaq olmurdu. Həmsöhbət olduğumuz Kamil adlı köçkün dedi ki, onlar beynəlxalq təşkilatlardan əllərini üzüblər. Ümidləri yenə də öz dövlətimizə qalıb. Hökumətin onları köçürüləcəkləri günü gözləyirlər.

Bu faktlar Azərbaycanda məcburi köçkünlərin probleminin nə dərəcədə ciddi olduğunu göstərir. Azərbaycan Prezidenti İlham Əliyev də xarici qonaqlarla bütün görüşlərində, xarici səfərlərində, ictimaiyyət qarşısında çıxışlarında məcburi köçkünlərin problemlərinin ciddiliyinə xüsusi yer ayırır və dünya birliyini bu insanların taleyinə biganə qalmamağa çağırır. Prezidentin köçkün ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında imzaladığı sərəncamda da deyilir ki, məcburi köçkünlərin böyük əksəriyyəti hələ də yaşayış üçün yararlı olmayan ictimai binalarda, yataqxanalarda və digər müvəqqəti məskunlaşma yerlərində ağır şəraitdə yaşayır və ciddi sosial problemlərlə üzləşirlər.

Azərbaycanda qaçqın və məcburi köçkün probleminin 20 ildən artıqdır davam etməsində beynəlxalq birliyin də məsuliyyəti böyükdür. Dünya 1 milyona yaxın günahsız insanın taleyinə hələ də biganəlik nümayiş etdirir. Ümumbəşər İnsan Hüquqları Deklarasiyasının 14-cü bəndində qeyd olunur ki, nə qədər ki, dünyada müharibələr, təqib olunmalar, hüququ tapdalanmalar, dözümsüzlük və insanlığa laqeydlik mövcuddur, qaçqınlar və məcburi köçkünlər də mövcud olacaq. Məcburi köçkünlərin acınacaqlı vəziyyəti müasir dövrün ən böyük faciələrindən biridir, onların müqəddəratı isə insan hüquqlarını müdafiə problemi kimi hər birimizi narahat etməlidir.

Qaçqınlar və məcburi köçkünlər öz günahları olmadan XX əsrin çox böyük sarsıntılarının iştirakçıları olmuş bizim kimi insanlardır. Onların arasında həkimlər və hüquqşünaslar, müəllimlər, fəhlələr, analar, atalar və

uşaqlar var. Dünya birliyi hər bir qaçqın və məcburi köçkünün hüququnun bərpa olunması uğrunda ciddi addımlar atmalıdır. Unutmaq lazım deyil ki, bu gün məcburi köçkünlük, qaçqınlıq kimi ağır həyata məhkum olunmuş minlərlə uşağın, gəncin sıralarından dünyaya töhfə verən dahilər də çıxa bilər. Tarixə nəzər yetirdikdə belə faktların çox olduğunu görə bilərik. Albert Eynşteyn, Ziqmund Freyd, Mixail Barışkin, Marlen Ditrix, Aleksandr Soljenitsın, Bertold Brext, Sun Yat-Sen, Rixard Vaqner, Viktor Hüqo, Cüzeppe Qaribaldi və Vladimir Nabokov kimi məşhurlar da qaçqın olublar. Dünya bu gün Azərbaycanda və digər yerlərdə qaçqın, məcburi köçkün problemini bəşəriyyətin problemi olaraq qəbul edib bu vəziyyətin aradan qaldırılmasına nail olmadıqca, qaçqınlar və məcburi köçkünlər problemi də beynəlxalq cəmiyyətə çağırış olaraq qalır.

**Məhəbbət ORUCOV**

**P**.S. Yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.

**“525-ci qəzet”.-**2011.-16 dekabr.-№230.-S.4.

## Finlandiya parlamentində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair dinləmələr keçirilmişdir

**Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənovun başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan-Finlandiya Parlamentlərarası Dostluq Qrupunun təşəbbüsü ilə Helsinkiyə, Finlandiya parlamentinə (Eduskunta) gəlmişdir. Noyabrın 7-də Finlandiya parlamentində Ermənistanın ölkəmizə qarşı silahlı təcavüzünün nəticələrinə dair qətnamə layihəsinin müzakirəsi ilə əlaqədar "Dağlıq Qarabağ - işğal edilmiş və unudulmuş ərazilər" mövzusunda dinləmələr olmuşdur.**

Dinləmələrdə Finlandiya parlamentinin üzvləri, Azərbaycanın İsveçdəki səfiri Rafael İbrahimov, Nazirlər Kabineti Aparatının qaçqınların, məcburi köçkünlərin problemləri, miqrasiya və beynəlxalq təşkilatlarla iş şöbəsinin müdiri Qurban Sadıqov, iqtisadi inkişaf nazirinin müavini Sevinc Həsənova, Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun direktoru, deputat Ayaz Orucov, Azərbaycan-Finlandiya Parlamentlərarası Dostluq Qrupunun rəhbəri deputat Elxan Süleymanovun başçılığı ilə bu qrupun üzvləri Fazil Mustafa, Zahid Oruc və Ceyhun Osmanlı iştirak etmişlər.

Finlandiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Eero LEHTİ tədbiri açaraq qeyd etmişdir ki, Azərbaycan ilə Finlandiya arasında əməkdaşlıq yüksək səviyyədədir. Finlandiya 1991-ci ildə Azərbaycanın müstəqilliyini tanımış və artıq 1992-ci ildə diplomatik münasibətlər yaradılmışdır. Lakin iqtisadi əlaqələr arzu edilən səviyyədə deyildir, bu münasibətlərin genişləndirilməsi üçün çox böyük potensial vardır.

Eero Lehti demişdir ki, bu gün Finlandiya parlamentində müzakirə edilən Dağlıq Qarabağ münaqişəsi Finlandiya KİV-lərində yetərincə işıqlandırılmır. 20 ildən bəri davam edən Dağlıq Qarabağ münaqişəsini dondurulmuş münaqişə adlandırmaq olmaz, çünki dinc əhali hələ də həlak olur. Bu problem beynəlxalq məsələdir, çünki onun həll edilməmiş qalması təkcə regiona deyil, bütün dünyaya ziyan vurur. Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tənzimlənməlidir və dünya birliyi bu fikrin tərəfdarıdır.

Eero Lehti qeyd etmişdir ki, bugünkü dinləmənin məqsədi regionda kəskin münaqişələrdən biri sayılan Dağlıq Qarabağ problemini bir daha müzakirə etməkdir. Finlandiya da öz növbəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində rol oynaya bilər.

Avronest Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı Elxan SÜLEYMANOV çıxış edərək, Azərbaycan üçün çox əhəmiyyətli olan bu seminarın keçirilməsinə görə Finlandiya parlamentinin üzvlərinə təşəkkür etmişdir. Finlandiya Avropa İttifaqının fəal üzvlərindən biridir və demokratik, hüquqi dövlət quruculuğu sahəsində təcrübəyə malikdir. Azərbaycan üçün demokratiyanın genişləndirilməsində və ölkədə müvafiq təsisatların yaradılmasında Finlandiyanın təcrübəsindən istifadə etmək vacibdir.

Natiq Azərbaycan dövlətinin tarixi haqqında ətraflı məlumat verərək qeyd etmişdir ki, Azərbaycan tarixən müxtəlif xalqların, millətlərin və dinlərin dinc yanaşı mövcud olduğu, mədəniyyətlərin qaynayıb-qarışdığı, qarşılıqlı nifrətə yer olmayan bir ölkə kimi formalaşmış və inkişaf etmişdir.

Elxan Süleymanov Ermənistan-Azərbaycan münaqişəsindən söhbət açaraq vurğulamışdır ki, bu problemin beynəlxalq hüquq normalarına müvafiq qaydada həll edilməsi Azərbaycanın xarici siyasət prioritetlərindən biridir. Beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qətnamələr bu günə qədər yerinə yetirilməmişdir. Həmin sənədlərdə qeyd edilir ki, Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş 20 faiz ərazisi nəzarət edilməyən zonalara çevrilmişdir. Bu ərazilərin azərbaycanlı əhalisinin hüquqları kütləvi şəkildə pozulmuşdur, işğalçı qüvvələr etnik təmizləmə siyasəti aparmış, bunun nəticəsində bir milyondan çox insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. E.Süleymanov demişdir ki, Finlandiya daha fəal hərəkət edə və Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü prinsiplərinə və beynəlxalq hüquq normalarına uyğun həllində ciddi mövqe tuta bilər. Finlandiya parlamenti bu problem barəsində müvafiq qətnamə qəbul etməklə, beynəlxalq təşkilatlardan həmin sənədlərin yerinə yetirilməsini tələb edə bilər.

AŞPA-nın fəxri üzvü Jaako LAAKSO çıxışında qeyd etmişdir ki, Dağlıq Qarabağ münaqişəsini dondurulmuş münaqişə hesab etmək səhvdir, çünki regionda hər gün toqquşmalar baş verir, qadınlar və uşaqlar snayper güllələrindən həlak olurlar. Son vaxtlar müharibə təhlükəsi artmışdır. Finlandiya hökuməti öz növbəsində beynəlxalq hüquq çərçivəsində regionda sülhə nail olmağa kömək edə bilər. Jaako Laakso vurğulamışdır ki, beynəlxalq birlik ərazi bütövlüyü prinsipindən çıxış edərək münaqişənin dinc yolla tənzimlənməsinə dair danışıqları dəstəkləyir. Təəssüflə qeyd edilmişdir ki, ATƏT-in Minsk qrupunun fəaliyyəti münaqişə zonasında vəziyyəti dəyişməmişdir. Jaako Laakso humanitar faciə barədə söhbət açaraq, öz torpaqlarına qayıtmağa imkanı olmayan bir milyondan çox qaçqın və məcburi köçkün probleminə diqqəti cəlb

etmişdir. O qeyd etmişdir ki, Finlandiya dövləti bu münaqişənin yaxın gələcəkdə həllinə və regionda sülhün və tərəqqinin bərqərar olmasına kömək etməlidir.

Sonra Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli HƏSƏNOV çıxış edərək, mühüm məsələyə həsr olunmuş bu tədbirin təşkilinə görə Azərbaycan Hökuməti adından Finlandiya parlamentinin rəhbərliyinə və deputatlara təşəkkürünü bildirmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun fəsadları haqqında ətraflı məlumat verən Əli Həsənov demişdir ki, son iki yüz il ərzində Cənubi Qafqaz regionunda gedən mürəkkəb siyasi proseslər nəticəsində azərbaycanlılar bir neçə dəfə öz əzəli yurdlarından zorla köçürülməyə, etnik təmizləmə və deportasiya siyasətinə məruz qalmışlar.

XIX əsrin əvvəllərindən başlayaraq Qafqazı işğal edən çar Rusiyasının sistemli siyasəti nəticəsində qonşu ölkələrin ərazisindən ermənilərin kütləvi şəkildə Azərbaycana, o cümlədən Dağlıq Qarabağ ərazisinə köçürülməsi həyata keçirilmiş və bununla da XX əsrin əvvəllərində bu ərazilərdəki demoqrafik vəziyyət xeyli dəyişmişdir. Ermənilər öz planlarını - Azərbaycana qarşı əsassız ərazi iddialarını mərhələ-mərhələ həyata keçirmişlər. 1905-1907-ci və 1918-1920-ci illərdə baş vermiş hadisələr zamanı silahlı qüvvələrdən və zorakı üsullardan istifadə olunmaqla minlərlə azərbaycanlı kütləvi surətdə qətlə yetirilmiş, onların yaşadıqları kəndlər talan edilmiş, dinc əhali qaçqın və didərgin vəziyyətinə salınmışdır. 1918-ci il mayın 28-də müstəqilliyini bəyan edən Azərbaycan yenə də erməni millətçilərinin torpaq iddiaları ilə üz-üzə qalmışdır. Azərbaycan torpaqlarında, yəni vaxtilə Rusiyanın tərkibinə Azərbaycan xanlığı kimi daxil olmuş İrəvan xanlığının ərazisində erməni dövləti yaratmaq ideyası ortaya atılmış, həmin dövrdə Azərbaycan siyasətçiləri tarixi şəraitə uyğun olaraq bir sıra güzəştlərə getməyə məcbur olmuşlar. Nəticədə 1918-ci ildə İrəvan xanlığı (sonradan İrəvan quberniyası) ərazisində 9,7 min kvadratkilometrlik kiçik bir Ermənistan dövləti yaradılmış, sonralar onun ərazisi Azərbaycan Respublikasının torpaqları hesabına tədricən böyüdülərək 29,8 min kvadratkilometrə çatdırılmışdır. Bu məkrli siyasətin Sovet hakimiyyəti dövründə də davam etdirildiyini diqqətə çatdıran Baş nazirin müavini demişdir ki, 1923-cü ildə Moskvanın köməyi ilə Azərbaycanın az sayda ermənilərin yaşadığı ərazisində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdır. Bu zaman, muxtar vilayətin inzibati sərhədləri elə tərtib edilmişdir ki, burada ermənilərin say etibarilə əksəriyyət təşkil etməsi təmin olunsun. Bundan sonra azərbaycanlıların öz tarixi torpaqlarından zorla qovulması və onlara qarşı etnik təmizləmə siyasətinin yeni mərhələsi başlanmış, nəticədə XX əsrdə müxtəlif dövrlərdə iki milyona yaxın soydaşımız öz tarixi vətənindən deportasiya edilmişdir.

Bu deportasiyanın SSRİ hökuməti tərəfindən məqsədli şəkildə həyata keçirildiyini bildirən Əli Həsənov demişdir ki, tarixi saxtalaşdırmaq, təhrif etmək və Azərbaycan torpaqlarının tarixi adlarını dəyişdirərək Ermənistanı monoetnik dövlətə çevirmək ermənilərin işğalçılıq siyasətinin tərkib hissəsidir. Məhz bu üsulla 1935-1989-cu illərdə Ermənistanda minlərlə Azərbaycan toponimi xəritələrdən silinmişdir. Mixail Qorbaçov Sovet İttifaqının rəhbəri olduqdan sonra onun rəğbətindən istifadə edən ermənilər "böyük Ermənistan" yaratmaq iddialarını daha da fəallaşdırdılar. 1988-1992-ci illərdə Ermənistan ərazisindən azərbaycanlılara qarşı son etnik təmizləmə siyasəti misilsiz bir qəddarlıq və vəhşiliklə həyata keçirildi, 250 min soydaşımız öz ata-baba yurdlarından qovularaq qaçqına çevrildi.

Ermənistan silahlı qüvvələrinin Azərbaycana hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin - Dağlıq Qarabağ və ona bitişik 7 inzibati rayonun işğal olunduğunu, bir milyona yaxın soydaşımızın qaçqın və məcburi köçkünə çevrildiyini, milli-mədəni sərvətlərimizin talan olunduğunu, bütün infrastrukturun dağıdıldığını faktlarla diqqətə çatdıran Baş nazirin müavini Xocalı soyqırımı barədə də Finlandiya parlamentinin üzvlərinə məlumat vermişdir.

Əli Həsənov demişdir: 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Dağlıq Qarabağ ərazisindəki Ermənistan silahlı dəstələri Ermənistan prezidenti Serj Sarkisyanın, Ermənistanın keçmiş rəhbəri Robert Koçaryanın və digər erməni liderlərinin rəhbərliyi və keçmiş SSRİ-nin Xankəndidə yerləşən, o dövrün müasir döyüş silahları ilə silahlanan 366-cı motoatıcı alayının köməyi ilə Xocalı şəhərində azərbaycanlılara qarşı soyqırımı cinayətini həyata keçirdilər. Nəticədə 613 dinc sakin, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca yalnız azərbaycanlı olduğuna görə xüsusi amansızlıqla, işgəncələrlə öldürüldü, 487 nəfər şikəst edildi, 1275 sakin girov götürülərək amansız işgəncələrə məruz qaldı. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi bu günədək məlum deyildir. Beləliklə, beynəlxalq qiymətləndirmə təşkilatlarının ilkin hesablamalarına görə, Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan iqtisadiyyatına təxminən 300 milyard ABŞ dolları dəyərində ziyan vurulmuş, yenicə müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası ağır iqtisadi böhran və bir milyondan çox qaçqın və məcburi köçkün problemi ilə üz-üzə qalmışdır.

Azərbaycan Hökumətinin əhalinin həssas təbəqəsi olan qaçqın və məcburi köçkünlərin ehtiyaclarını ödəmək üçün həm hüquqi, həm də sosial-iqtisadi sahədə böyük işlər gördüyünü diqqətə çatdıran Baş nazirin müavini demişdir ki, ölkədə aparılan uğurlu iqtisadi islahatlar, neft strategiyası nəticəsində Dövlət Neft Fonduna yığılan ilkin vəsait də 2001-ci ildə məhz qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına

yönəldilmiş, bu istiqamətdə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilməyə başlanılmışdır. Ölkədə mövcud olan 12 çadır düşərgəsindən sonuncusu 2007-ci ilin dekabrında ləğv edilmiş, həmçinin ötən dövrdə fin tipli 9 şəhərcikdə yaşayan məcburi köçkünlər də yeni qəsəbələrə köçürülmüşlər. Ümumiyyətlə, ötən dövrdə 26 min ailə 130 min nəfərdən çox daimi məskunlaşmamış qaçqın və məcburi köçkünlər üçün bütün infrstruktura malik 76 qəsəbə salınmışdır. Hazırda bu istiqamətdə işlər intensiv şəkildə davam etdirilir.

Ümumilikdə qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli məqsədi ilə 1993-2012-ci illərdə 5,3 milyard ABŞ dolları məbləğində vəsait xərclənmişdir. Bu vəsaitin 3 milyard dolları dövlət büdcəsindən, 1,375 milyard dolları Dövlət Neft Fondundan və 930 milyon dolları isə beynəlxalq humanitar təşkilatlar tərəfindən ödənilmişdir.

Bu irəliləyişlərin əldə edilməsinin Azərbaycan Hökumətinə heç də asan başa gəlmədiyini və problemin tam həll olunmadığını diqqətə çatdıran Əli Həsənov qeyd etmişdir ki, 400 min məcburi köçkün hələ də yaşayış üçün əlverişsiz olan tikililərdə, çətin şəraitdə yaşayır. Bu baxımdan, Azərbaycanın hələ də beynəlxalq təşkilatların və donorların dəstəyinə ehtiyacı vardır. Azərbaycan məcburi köçkünlərin əhalinin adambaşına düşən sayına görə dünyada ilk yerlərdən birini tutur. Bir milyondan çox qaçqın və məcburi köçkünə qayğı göstərmək həddindən artıq böyük bir yükdür. Bu problemin yeganə həlli Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi və məcburi köçkünlərin öz torpaqlarına geri qayıtmasıdır. Lakin Azərbaycandakı 700 min məcburi köçkün atəşkəsin əldə olunmasından 18 il keçməsinə baxmayaraq, Ermənistanın tutduğu qeyri-konstruktiv mövqeyə görə hələ də öz evlərinə qayıda bilmir.

Belə ciddi humanitar problemi olan Azərbaycanın son illərdə əldə etdiyi uğurlardan, bölgənin lider dövlətinə çevrilməsindən, yoxsulluq səviyyəsinin azalmasından, yeni iş yerlərinin açılmasından, beynəlxalq aləmdə nüfuzunun artmasından, keçən il 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsindən danışan Əli Həsənov demişdir ki, cari ilin 9 ayı ərzində iqtisadiyyat 1,1 faiz, qeyri-neft sektorunda 10,3 faiz, kənd təsərrüfatına isə 6,3 faiz artmış, ölkə iqtisadiyyatına 16 milyard dollar sərmayə qoyulmuşdur. Ölkə iqtisadiyyatının 83 faizi özəl sektorda formalaşmışdır. Davos İqtisadi Forumunun hesablamalarına əsasən, "Qlobal Rəqabət Qabiliyyəti İndeksi 2012-2013" hesabatında makroiqtisadi sabitliyə görə Azərbaycan dünyada 18-ci yerdə, rəqabət qabiliyyətliliyi cədvəlində ötən ilə nisbətən 9 pillə irəliləyərək 46-cı yerdədir. İnflyasiya cəmi 1,5 faizdir, əhalinin pul gəlirləri 13,6 faiz artmışdır.

Azərbaycan yuxarı orta gəlirli, yüksək insan inkişafına malik olan ölkələr sırasında olaraq, regionun lider dövlətinə çevrilmiş, Cənubi Qafqazda investisiya kredit reytinqi alan ilk və yeganə ölkədir.

Hazırda qarşıda duran ən əsas iqtisadi vəzifə, Azərbaycan Prezidenti İlham Əliyevin müəyyənləşdirdiyi kimi, gələcək on ildə qeyri-neft sektorunun inkişafı hesabına ümumi daxili məhsulun iki dəfə artırılması, qeyri-neft sektorunda onun xüsusi çəkisinin 80 faizə çatdırılmasıdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ən başlıca problemi olduğu barədə Prezident İlham Əliyevin fikirlərini diqqətə çatdıran Əli Həsənov demişdir ki, münaqişəni həll etmək üçün hərtərəfli hüquqi baza vardır. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən münaqişənin tezliklə, sülh yolu ilə həlli, işğal olunmuş ərazilərin azad edilməsi, qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması haqqında 4 qətnamə qəbul edilmişdir. Ermənistanın təcavüzkar siyasəti Avropa Şurası, NATO, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti və digər nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qərar və qətnamələrdə pislənilmiş, işğal edilmiş Azərbaycan ərazilərindən silahlı qüvvələrin geri çəkilməsi, öz doğma yaşayış yerlərindən didərgin salınmış qaçqın və məcburi köçkünlərin geri qayıtma hüququnun bərpa edilməsi tələb edilmişdir.

ATƏT-in Minsk qrupunun himayəsi altında danışıqlar 20 ildən artıqdır ki, davam etdirilir. Münaqişənin həlli beynəlxalq hüquq normaları və Helsinki Yekun Aktına əsaslanmalıdır. Bu qərar və qətnamələr birmənalıdır. Təəssüf ki, bu qərar və qətnamələr hələ də icra olunmur. Beynəlxalq ictimaiyyətin tələblərinə məhəl qoymayan və destruktiv mövqe tutan Ermənistan işğal edilmiş Azərbaycan ərazilərində qanunsuz fəaliyyətini davam etdirməkdədir.

Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində atəşkəsin müntəzəm surətdə pozulduğunu diqqətə çatdıran baş nazirin müavini demişdir ki, işğal altında olan Dağlıq Qarabağın və ətraf rayonların demoqrafik, sosial, inzibati strukturu dəyişdirilmişdir. ATƏT-in iki missiyası - faktaraşdırıcı və qiymətləndirmə missiyaları həmin ərazilərə səfərləri zamanı hər şeyin dağıdıldığını və beynəlxalq humanitar hüququn tələblərinə zidd olaraq, həmin ərazilərə başqa ölkələrdən etnik ermənilərin köçürüldüyünü təsdiq etmişlər. Bu ərazilərdə ermənilər tərəfindən bərpa və məcburi məskunlaşdırma prosesi davam edir. Bu, münaqişənin real mənzərəsi olmaqla, Ermənistan tərəfindən törədilir.

Ermənistan işğal edilmiş ərazilərdə yerləşən Xocalı hava limanını qanunsuz şəkildə bərpa etdirərək buraya mülki uçuşların təşkilinə cəhdlər edir. Ermənistanın bu cəhdləri, beynəlxalq hüququn norma və prinsiplərini, xüsusilə də mülki aviasiya haqqında Çikaqo Konvensiyasının tələblərinə zidd olmaqla bərabər, regionda olduqca həssas olan vəziyyəti daha da gərginləşdirmək, nizamlama prosesini pozmaq məqsədi daşıyır.

Eyni zamanda, nəzarətimizdə olmayan ərazidə narkotik vasitələr əkilib-becərilir, transmilli cinayətkarlığın digər təhlükəli növləri baş verir, həmin zona böyük həcmdə narkotiklərin MDB və Avropa ölkələrinə tranzit marşrutuna çevrilib. Buna görə də BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinə işğalda olan ərazilərdə monitorinqin aparılması barədə müraciət etmişik.

Əli Həsənov demişdir: Mən bu fürsətdən istifadə edərək, Azərbaycan tərəfinin ən yüksək səviyyədə dəfələrlə bəyan edilmiş mövqeyini burada bir daha təkrarlamaq istəyirəm. Azərbaycan beynəlxalq hüququn müvafiq norma və prinsiplərindən irəli gələrək hesab edir ki, münaqişənin davamlı həlli yalnız Dağlıq Qarabağın erməni və azərbaycanlı icmalarının Azərbaycan tərkibində beynəlxalq praktikadan irəli gələn və hər iki icma üçün bərabər hüquq və azadlıqların təmin edilməsinə və onların dinc şəkildə birgə yaşayışına zəmanət verən özünüidarə formasında ola bilər. Azərbaycan Prezidentinin bəyan etdiyi kimi, biz bu sahədə dünyada, xüsusilə Avropada mövcud olan ən qabaqcıl təcrübəni tətbiq etməyə hazırıq. Münaqişə yalnız Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı çərçivəsində həll edilə bilər.

Ermənistanın danışıqlar prosesini uzatmaqla mövcud status-kvonu saxlamağa çalışdığını diqqətə çatdıran Əli Həsənov demişdir ki, bu cür hallar təkcə Azərbaycan üçün deyil, eyni zamanda, region və bütövlükdə, beynəlxalq aləm üçün çox təhlükəlidir. Ona görə də münaqişənin həlli ilə uzun müddət məşğul olan beynəlxalq qurumlar, dünyanın aparıcı dövlətləri beynəlxalq hüququn fundamental əsaslarını pozanların işğalçı siyasətinə son qoymalı, ikili standartlardan və ədalətsizlikdən əl çəkməli, prinsipial mövqe nümayiş etdirməli, beynəlxalq hüquqa əsaslanan addımlar atmalı, Azərbaycanın ərazi bütövlüyünü təmin etməklə regionda sülhün, ədalətin bərpa olunmasına nail olmalıdırlar.

Dinləmələrdə Avropa İttifaqının Qafqaz regionu üzrə sabiq xüsusi nümayəndəsi, səfir Heyikki TALVİTİE də çıxış etmişdir. O, diqqətə çatdırmışdır ki, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair ATƏT-in Minsk qrupunun himayəsi altında aparılan danışıqlar heç bir nəticə verməmişdir. Minsk qrupunda təmsil olunmuş ölkələrdə güclü erməni lobbisinin fəaliyyət göstərməsi Azərbaycanın bununla əlaqədar haqlı narazılığına əsas verir.

Sonra müzakirələr başlanmışdır. Debatlarda çıxış edən Azərbaycan parlamentinin üzvləri diqqətə çatdırmışlar ki, Ermənistan Azərbaycan torpaqlarını işğal etməklə qazandığından çox itirmişdir. Azərbaycan Ermənistanı bütün beynəlxalq və regional layihələrdən təcrid etmişdir.

İqtisadi inkişaf nazirinin müavini Sevinc HƏSƏNOVA "Azərbaycanın iqtisadi perspektivləri" mövzusunda məruzəsində ölkəmizin dinamik inkişafı haqqında söhbət açmışdır. S.Həsənova Azərbaycan iqtisadiyyatının üç dəfə, dövlət büdcəsinin 13 dəfə artmasını vurğulayaraq diqqətə çatdırmışdır ki, bunlar dünyada analoqu olmayan göstəricilərdir.

Nazir müavini Azərbaycanın Finlandiya ilə iqtisadi əlaqələrindən söhbət açaraq qeyd etmişdir ki, iki ölkə arasında əmtəə dövriyyəsinin 60 faiz artmasına baxmayaraq, bu həcmi daha da yüksəltmək üçün yaxşı potensial vardır.

S.Həsənova onu da diqqətə çatdırmışdır ki, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edilməsi nəticəsində 900-ə yaxın yaşayış məntəqəsi, 150 min ev, 7 mindən artıq ictimai bina, 1500-dən çox məktəb, uşaq evləri, 700-dən çox tibb məntəqəsi, 500 tarixi abidə, 6 min istehsalat obyekti məhv edilmişdir.

Helsinki Universiteti yanında Aleksandr İnstitutunun tədqiqatçısı Mikko PALOKORPİ demişdir ki, Dağlıq Qarabağ münaqişəsi dondurulmuş münaqişə deyil, uzun sürən münaqişədir. Onu aradan qaldırmaq cəhdləri dondurulmuşdur. Mikko Palokorpi qeyd etmişdir ki, Azərbaycanın hərbi büdcəsi Ermənistanın ümumi büdcəsindən çoxdur. Əhalinin inkişafında fərq müşahidə edilir, Azərbaycanda əhalinin artımı daha yüksəkdir. Ermənistanda isə əhali ölkəni kütləvi surətdə tərk edir. Bu isə Ermənistanda iqtisadiyyatın sürətli tənəzzülünə səbəb olacaqdır. Beləliklə, Ermənistan beynəlxalq aləmdə unudulacaqdır.

M.Palokorpi diqqətə çatdırmışdır ki, bu ilin yazında Bakıda keçirilmiş seminarda Aland adaları probleminin həllinin fin modelindən söhbət getmişdir. Bu problemin həllinə 20 il vaxt gərək olmuşdur və yeni nəsil başa düşmüşdür ki, yeganə çıxış yolu muxtariyyətdir.

Finlandiya parlamentinin üzvü Elizabet NAUKLER "Aland adaları - muxtariyyətin Finlandiya modeli" mövzusunda məruzə ilə çıxış etmişdir. O qeyd etmişdir ki, Aland adaları probleminin həlli Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi variantı ola bilərdi. Finlandiyanın bu təcrübəsindən çox ölkənin istifadə etdiyini vurğulayan E.Naukler ümidvar olduğunu bildirmişdir ki, Qarabağ münaqişəsi hərbi əməliyyatlarsız, danışıqlar yolu ilə həll ediləcəkdir.

Çıxışlardan sonra Azərbaycanın Baş nazirinin müavini Əli Həsənov Finlandiya parlamenti üzvlərinin və ekspertlərin toxunduqları bəzi məsələlərə aydınlıq gətirmişdir.

Əli Həsənov natiqlərə minnətdarlığını bildirərək demişdir ki, bu gün Azərbaycanda 30 min erməni yaşayır, beləliklə, Dağlıq Qarabağ münaqişəsi zamanı ikitərəfli deyil, birtərəfli etnik təmizləmə siyasəti yeridilmişdir. Əli Həsənov, həmçinin diqqətə çatdırmışdır ki, Ermənistanda 2,7 milyon nəfər adam yaşamır. Beynəlxalq Miqrasiya Təşkilatının məlumatına görə, son 15 ildə Ermənistanı 1,5 milyon adam tərk etmişdir. Ermənistan

Dövlət Statistika Komitəsinin məlumatı təsdiq edir ki, 9 ay ərzində ölkəni 90 min erməni tərk etmişdir. Öz ölkəsini sevən ermənilər başa düşməlidirlər ki, Sarkisyan və Koçaryan hökumətinin məsuliyyətsiz və səriştəsiz siyasəti ölkəni ağır vəziyyətə gətirib çıxarmışdır.

Əli Həsənov Aland adaları modelindən bəhs edərkən demişdir ki, Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə beynəlxalq tədbirlərdə bildirmişdir ki, Dağlıq Qarabağa ən yüksək özünüidarəetmə statusu verilir, lakin Ermənistan münaqişənin nizama salınmasının bu variantını da qəbul etmək istəmir. Nə üçün qəbul etmir? Çünki Koçaryan və Sarkisyan özlərini erməni xalqının qəhrəmanları kimi qələmə verərək məhz bu münaqişə, Azərbaycan torpaqlarının işğalı sayəsində hakimiyyətə gəlmişlər.

Yüz min suriyalı qaçqının yerləşdirilməsi məsələsinə gəldikdə isə Suriya ermənilərinin Azərbaycanın işğal olunmuş ərazilərinə köçürülməsini Sarkisyan rejimi təşkil etmişdir.

Əli Həsənov demişdir ki, Azərbaycan neftinin Ermənistan ərazisindən nəqli üzrə tranzit marşrut yetərincə rəqabətqabiliyyətli və sərfəli olardı, lakin Dağlıq Qarabağ münaqişəsinə görə Ermənistan beynəlxalq və regional layihələrdən təcrid olunmuşdur ki, bu da ölkə iqtisadiyyatının tamamilə dağılmasına gətirib çıxarır.

Dağlıq Qarabağın ayrılması məsələsinə gəldikdə isə Azərbaycan Prezidenti və xalqı bildirmişlər ki, bu barədə heç bir güzəşt olmayacaqdır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Azərbaycan başqa dövlətlərin ərazi bütövlüyünə böyük hörmətlə yanaşır və öz dövlətinə də belə münasibət tələb edir.

Parlamentin foyesində Xocalı soyqırımı haqqında kitabların və digər materialların sərgisi təşkil edilmişdir.

**Nigar HÜSEYNOVA.**

**“Xalq qəzeti”.-**2012.-8 noyabr.-N 249.-S.6.

## Azərbaycan beynəlxalq təşkilatlarda Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətləri daim ön plana çəkir

**Respublikamız öz dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra milli dövlət quruculuğu sahəsində mühüm nailiyyətlər əldə etmiş, özünün hüquqi-siyasi, sosial-iqtisadi dayaqlarını möhkəmləndirmiş, demokratik inkişaf səviyyəsinə və hərbi, iqtisadi potensialına görə Cənubi Qafqaz regionunun şəksiz lider dövlətinə çevrilmişdir. Azərbaycan bölgədə sülhün və təhlükəsizliyin təminatçısı kimi çıxış edərək, regionda növbəti və qarşısı alınması çox çətin olan dəhşətli bir müharibənin yenidən başlanmaması üçün xoşməramlı sülh missiyasını davam etdirir. Ölkəmiz həm də beynəlxalq təşkilatlardakı müzakirələr zamanı Dağlıq Qarabağ münaqişəsini önə çəkməklə öz milli maraqlarını təmin edir. Rəsmi Bakı Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ probleminin danışıqlar yolu ilə həlli məqsədilə real təkliflərlə çıxış edərək Cənubi Qafqazda sabitliyə nail olmaq üçün böyük səylər göstərir.**

Azərbaycan özünün hücum diplomatiyasını həyata keçirməklə Ermənistanın dünya birliyi tərəfindən təcavüzkar dövlət kimi tanınmasını təmin etmişdir. Respublikamız BMT kimi mötəbər beynəlxalq qurumun kürsüsündən xalqımızın haqq səsinin dünyaya çatdırılması və obyektiv ictimai rəyin formalaşdırılması üçün məharətlə istifadə edir. Nəticədə, qurumun Təhlükəsizlik Şurası sədrinin 6 bəyanatında, eləcə də BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının zəruriliyi vurğulanmışdır.

BMT-nin 2000-ci ilin sentyabr ayında keçirilən Minilliyin Sammitində çıxış edən Prezident Heydər Əliyev dünyada sülhün və təhlükəsizliyin qorunmasında bu beynəlxalq təşkilatın mühüm rol oynadığını qeyd etmiş, regional münaqişələrin, o cümlədən Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair Azərbaycanın mövqeyini bir daha bəyan etmişdir. 2003-cü ilin sentyabrında BMT Baş Məclisinin 58-ci sessiyasında iştirak edən Azərbaycan Respublikasının Baş naziri İlham Əliyev öz çıxışında beynəlxalq aləmdə mürəkkəb proseslərin cərəyan etdiyi dövrdə üzvlərin arasında qarşılıqlı anlaşılmazlıqların meydana çıxmasına görə, BMT TŞ-nin şəraitə uyğun, çevik və adekvat münasibət göstərməli olduğunu vurğulayaraq, mövcud BMT mexanizmlərinin zamanın tələbinə cavab vermədiyini və bununla bağlı təşkilat daxilində islahatların vacib məsələyə çevrildiyini bildirmişdir. Azərbaycan BMT-nin rolunun artırılması və mövcud problemlərin həllində daha təsirli tədbirlərin görülməsinə nail olmaq üçün əlavə addımların atılması zərurətini BMT Baş Məclisinin 2004-cü ilin sentyabrında keçirilən 59-cu sessiyasında yenidən gündəliyə gətirdi. Sessiyada çıxış edən Prezident İlham Əliyev Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin hələ də yerinə yetirilmədiyini bəyan etmiş və onların həyata keçirilməsinin işlək mexanizminin yaradılmasını ümdə məsələ kimi irəli sürmüşdür.

Heydər Əliyevin qətiyyətli və gərgin fəaliyyəti nəticəsində 1994-cü il mayın 12-də Ermənistan ilə Azərbaycan arasında atəşkəs haqqında razılıq əldə edildikdən sonra Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə nizama salınması istiqamətində ATƏT-in Minsk qrupu çərçivəsində müntəzəm olaraq danışıqlar aparılmağa başlanmışdı. 1994-cü il dekabrın 5-6-da ATƏT-in Budapeştdə keçirilən zirvə toplantısında Prezident Heydər Əliyevin çevik diplomatiyasının təsiri ilə "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi" barədə qərar qəbul olundu. 1996-cı il dekabrın 2-3-də ATƏT-in Lissabon Zirvə toplantısında qəbul edilən və münaqişənin nizama salınmasının beynəlxalq-hüquqi bazasını təşkil etmiş olan sənəd dünyanın 53 dövləti tərəfindən müdafiə olundu və Lissabon sammitinin yekun sənədlərinə əlavə edildi.

2010-cu il dekabrın 1-də Qazaxıstanın paytaxtı Astanada 56 üzv, 12 tərəfdaş dövlət və hökumət başçılarının, habelə beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə keçirilmiş ATƏT-in VII sammitinin yekun bəyanatı da Ermənistana böyük zərbə hesab oluna bilər. Sənəddə bildirilir ki, münaqişənin nizamlanmasında Helsinki Yekun Aktına, eləcə də 2009-cu il iyulun 10-da Akvildə və 2010-cu il iyunun 26-da Muskokda verilmiş bəyanatlara istinad olunmalıdır. Xatırladaq ki, ABŞ, Fransa, Rusiya, Azərbaycan və Ermənistan prezidentləri tərəfindən Muskokda imzalanmış bəyanatda Dağlıq Qarabağ ətrafındakı rayonlar Ermənistan tərəfindən işğal edilmiş ərazilər kimi göstərilib. Bu fakt Ermənistanın təcavüzkar dövlət olduğunu bir daha təsdiqləyir. Bu gün də Azərbaycanın mövqeyini dəstəkləyən ATƏT-in Minsk qrupunun həmsədr dövlətləri Akvil, Muskok və Los-Kabos bəyanatlarında status-kvonun qəbuledilməz olduğunu dəfələrlə vurğulamışlar. Bu, Azərbaycanın xarici siyasətinin əhəmiyyətli uğurlarından biridir. Çünki status-kvonun qəbuledilməzliyi barədə bəyanat işğal altındakı torpaqların azad olunması tələbi kimi başa düşülür ki, bu da ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərinin Ermənistanın təcavüzkar dövlət olduğunu beynəlxalq ictimaiyyət qarşısında bir daha təsdiq etməsi deməkdir.

Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən həyata keçirilən qeyri-qanuni fəaliyyət, o cümlədən qanunsuz məskunlaşma təcrübəsi, iqtisadi istismar və bu ərazilərin viran edilməsi ilə əlaqədar Azərbaycanın müraciəti əsasında ATƏT-in Minsk qrupunun həmsədrlərinin Dağlıq Qarabağ bölgəsi ətrafında olan işğal edilmiş ərazilərdə ümumi vəziyyətin qiymətləndirilməsi məqsədilə 2010-cu il oktyabrın 7-dən 12-dək həyata keçirdiyi Sahə Qiymətləndirmə Missiyasının (SQM) açıqladığı yekun rəyi də rəsmi İrəvanı ifşa etdi. SQM bir daha Azərbaycanın işğal olunmuş ərazilərində ermənilərin məskunlaşdırılma siyasətinin davam

etdirildiyini, həmçinin infrastruktur dəyişikliklərin və iqtisadi fəaliyyətin həyata keçirildiyini aşkarlamışdır. Missiyanın müşahidələri Ermənistanın, xüsusilə güc tətbiq etməmək prinsipini pozduğunu, işğalla bağlı "status-kvo"nu möhkəmlətmək cəhdlərini bir daha təsdiqləmişdir. Bu da Ermənistanın 1993-cü ildə qoşulduğu 1949-cu il 12 avqust tarixli Mülki Əhalinin Müharibə Zamanı Müdafiəsinə aid Dördüncü Cenevrə Konvensiyasına və ona əlavə Protokollara ziddir.

Azərbaycanın uğurlu xarici siyasəti Avropa Şurasında da Ermənistanı dalana dirəmişdir. 2001-ci il yanvarın 17-də ölkəmizin Avropa institutlarına inteqrasiyası istiqamətində Avropa Şurasının bərabərhüquqlu üzvü olması - respublikamızın mühüm problemlərinin dünya ictimaiyyətinin diqqətinə obyektiv çatdırılması üçün yeni və çox mötəbər tribuna vermiş oldu. Həmin dövrdə Avropa Şurası Parlament Assambleyasındakı Azərbaycan nümayəndə heyətinə Milli Məclisin deputatı İlham Əliyevin rəhbərlik etməsi və daha sonra onun AŞPA-dakı fəaliyyəti ulu öndərimiz Heydər Əliyevin qarşıya qoyduğu bütün vəzifələri reallaşdırdı. Məhz cənab İlham Əliyevin prinsipial və ardıcıl fəaliyyəti nəticəsində AŞPA-nın 2002-ci ilin sentyabrında keçirilən payız sessiyasında ilk dəfə olaraq bu beynəlxalq qurumun sənədlərində Ermənistan silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağın işğalı faktı rəsmi şəkildə öz əksini tapdı. Bütün bunların məntiqi davamı kimi 2003-cü il yanvarın 27-də Azərbaycan nümayəndə heyətinin rəhbəri İlham Əliyevin AŞPA-nın vitse-prezidenti və qurumun büro üzvü seçilməsi ilə müstəqil Azərbaycan tarixinə yeni səhifə yazılmış oldu. Hazırda Azərbaycan - Avropa Şurası əməkdaşlığı daha intensiv xarakter almışdır. Azərbaycan nümayəndə heyəti qurumun müxtəlif strukturlarında keçirilən tədbirlərdə iştirak edərək Ermənistanın təcavüzkar siyasətini ifşa edir, Dağlıq Qarabağ münaqişəsi məsələsində ölkəmizin haqlı mövqeyini bu mötəbər qurumun kürsüsündən Avropa ictimaiyyətinə çatdırır.

Dünyanın ən qüdrətli hərbi-siyasi təşkilatı olan Şimali Atlantika Alyansı - NATO da Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın haqlı mövqeyini dəstəkləyir. Onu da deyək ki, NATO Dağlıq Qarabağ probleminin həllində birbaşa rol oynamasa da, təşkilata üzv olan dövlətlər münaqişə ətrafında aparılan danışıqları maraqla izləyir, bəzən isə konkret mövqe ortaya qoyurlar. Bugünədək Şimali Atlantika Alyansının rəhbərliyinin verdiyi bəyanatlardan isə məlum olur ki, təşkilat problemin həllində ölkələrin ərazi bütövlüyü prinsipinin əsas götürülməsi məsələsində daim qətiyyət nümayiş etdirmişdir. 2008-ci ildə NATO-nun Buxarestdə keçirilən sammitinin Yekun Bəyannaməsində Dağlıq Qarabağ münaqişəsinin ərazi bütövlüyü prinsipi əsasında həllinin vacibliyi vurğulanmışdır. Ermənistanın ciddi etirazlarına baxmayaraq, 2010-cu il noyabrın 20-də Lissabonda keçirilən zirvə toplantısında qəbul edilən bəyanat rəsmi İrəvanı təşvişə salmışdı. Bəyanatın 35-ci maddəsində NATO Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini tanıdığını bir daha təsdiq etmişdi.

Bu il may ayının 21-də NATO-nun Çikaqoda keçirilən sayca 25-ci sammitində Əfqanıstan məsələsinin müzakirəsi ilə yanaşı, Azərbaycan üçün digər mühüm bir hadisəylə - Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Şimali Atlantika Alyansının ədalətli mövqeyinin növbəti dəfə bəyan edilməsi ilə də yadda qaldı. Sammitin yekununda qəbul olunan bəyannamədə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bir daha bu beynəlxalq təşkilat və ona üzv dövlətlər tərəfindən tanınmışdır. Bəyannamənin 47-ci bəndində qeyd olunur ki, NATO Cənubi Qafqazda və Moldovadakı həlli yubanan regional münaqişələr barədə narahatlığını bəyan edir: "Biz Azərbaycanın, Ermənistanın, Gürcüstanın və Moldovanın ərazi bütövlüyünün, müstəqilliyinin və suverenliyinin dəstəklənməsinə sadiq qalırıq və BMT-nin Nizamnaməsi və yekun Helsinki sənədinə, bu prinsiplərə və beynəlxalq hüququn normalarına əsaslanan regional münaqişələrin sülh yolu ilə nizamlanmasına yönəldilmiş səyləri dəstəkləməkdə davam edirik".

Azərbaycanın hücum diplomatiyasının uğurlu nəticələrindən biri də odur ki, bu gün dünyanın 120 ölkəsinin üzv olduğu Qoşulmama Hərəkatı da ölkəmizin haqlı mövqeyini dəstəkləyir. Belə ki, hərəkata üzv ölkələrin dövlət başçılarının bu il avqustun 31-də başa çatan Tehran sammitinin yekun sənədinə Azərbaycan Respublikasının ərazi bütövlüyünü dəstəkləyən maddə daxil edilmişdir. Sənədin 104-cü səhifəsində əks olunan 391-ci maddədə yazılır: "Dövlət və hökumət başçıları Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmamış qalmasından, onun beynəlxalq və regional sülh və təhlükəsizliyi təhdid etməyə davam etməsindən təəssüfləndiklərini ifadə etdilər. Onlar BMT Nizamnaməsində təsbit olunmuş gücdən istifadə etməmək prinsipinin vacibliyini bir daha təsdiqləyir və tərəfləri münaqişənin Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində danışıqlar yolu ilə həlli üçün səylərini davam etdirməyə çağırır".

Xatırladaq ki, bundan əvvəl, bu il may ayının 5-də də Qoşulmama Hərəkatı erməniləri növbəti dəfə məyus edən sənəd qəbul etmişdi. Misir Ərəb Respublikasının Şarm Əl-Şeyx şəhərində qurumun Əlaqələndirmə Bürosunun nazirlər səviyyəsində keçirilmiş iclasında qəbul olunan yekun sənədin 382-ci bəndində Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin region üçün təhlükə törətməyə davam etdiyi xüsusi vurğulanmış, hərəkata üzv olan dövlətlər münaqişənin beynəlxalq hüququn normaları və prinsipləri çərçivəsində həll edilməsinin vacibliyini nəzərə çarpdırmışlar.

Sənəddə deyilir ki, Qoşulmama Hərəkatının üzvü olan ölkələrin nazirləri Ermənistan və Azərbaycan arasında münaqişənin nizamlanmamış qalmasından, beynəlxalq və regional təhlükəsizliyə təhdid törətməkdə davam etməsindən təəssüflənirlər. Onlar BMT-nin Nizamnaməsində əksini tapmış güc tətbiq etməmək prinsipinin vacibliyini bir daha təsdiq etmiş və tərəfləri münaqişəni danışıqlar yolu ilə, beynəlxalq hüququn qəbul edilmiş

norma və prinsipləri çərçivəsində, xüsusilə suverenlik, ərazi bütövlüyü, beynəlxalq miqyasda tanınmış sərhədlərin toxunulmazlığı əsasında həllini tapmasını tələb etmişlər.

Göründüyü kimi, Qoşulmama Hərəkatının yekun sənədində Azərbaycanın ərazi bütövlüyü dünya birliyi tərəfindən növbəti dəfə tanınmış və ölkəmizin ədalətli mövqeyinin beynəlxalq arenada dəstəkləndiyi vurğulanmışdır. Bu, onu göstərir ki, Azərbaycan beynəlxalq miqyasda öz mövqelərini gücləndirməkdə davam edir. Bu sənədin yekdilliklə qəbul olunması və orada Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin ədalətli mövqeyinin əks olunması isə birmənalı şəkildə ölkəmizin növbəti diplomatik uğurudur.

İslam Əməkdaşlıq Təşkilatının çoxsaylı qərar və qətnamələrində, qurumun baş katibinin məsələ ilə bağlı bəyanatlarında da ölkəmizin ərazi bütövlüyü dəstəklənir, Ermənistanın təcavüzkar əməlləri qətiyyətlə pislənilir. Son olaraq, keçən ay İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin xarici işlər nazirlərinin Nyu-Yorkda keçirilən illik koordinasiya toplantısında Dağlıq Qarabağ münaqişəsinə dair yekun kommünike qəbul edilmişdir. Sənəddə Azərbaycan ərazilərinin işğalının yolverilməzliyi, bu əməlin BMT Nizamnaməsinə, beynəlxalq hüquqa zidd olduğu vurğulanmışdır. Qeyd edilmişdir ki, münaqişə Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət əsasında tezliklə həll olunmalıdır. Sənəddə Dağlıq Qarabağ bölgəsi və Azərbaycanın işğal olunmuş digər ərazilərində demoqrafik vəziyyətin zorla dəyişdirilməsindən, mülkiyyət hüquqlarının pozulması və mədəni irsin kifayət qədər qorunmamasından ciddi narahatlıq bildirilmişdir. İƏT ölkələri Azərbaycanın işğal altındakı ərazilərdə beynəlxalq humanitar hüququn normalarının və insan haqlarının təmin olunmasına yönəlmiş səylərinə dəstək veriblər. Onu da xatırladaq ki, bu il avqustun 14-15-də Səudiyyə Ərəbistanı Krallığının Məkkə şəhərində keçirilən İslam Zirvə toplantısının dördüncü fövqəladə sessiyasında dünya müsəlmanlarının narahatlığına səbəb olan məsələlər müzakirə olunmuş, sessiyada Suriya, Fələstin, Mali və Myanmadakı vəziyyətlə bağlı müvafiq qətnamələr qəbul edilmişdir. Zirvə toplantısının sonunda müzakirə olunmuş məsələlərlə bağlı İƏT-in üzvü olan ölkələrin mövqeyini əks etdirən yekun bəyannamə qəbul olunmuşdur. Bəyannamədə İƏT-in üzvü olan ölkələr Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləmiş və Ermənistanı silahlı qüvvələrini işğal olunmuş Azərbaycan ərazilərindən çıxarmağa çağırmışlar.

Son vaxtlar Ermənistanın təxribat xarakterli addımlarına beynəlxalq ictimaiyyətin kəskin reaksiya verməsi belə deməyə əsas verir ki, sürətli inkişafı ilə diqqətləri üzərinə cəlb edən Azərbaycanın həyata keçirdiyi hücum diplomatiyası kontekstində bu gün dünya Qafqaz həqiqətlərini daha yaxşı anlayır. İstər nüfuzlu beynəlxalq qurumların, istərsə də ayrı-ayrı aparıcı dövlətlərin bu il iyulun 19-da Dağlıq Qarabağın ərazisində keçirilən "prezident seçkiləri" ni pisləyən bəyanatlarla çıxış etməsi və Azərbaycanın mövqeyinin qəti şəkildə dəstəklənməsi bir daha dediklərimizi sübut edir. Təbii ki, bu məsələdə münaqişənin həlli ilə birbaşa məşğul olan ATƏT-in Minsk qrupunun reaksiyası böyük əhəmiyyət kəsb edir. Qondarma seçkilərə öz etirazını bildirən ATƏT-in Minsk qrupunun həmsədrləri - İqor Popov (Rusiya), Robert Bradtke (ABŞ) və Jak For (Fransa) tərəfindən verilən bəyanatda qeyd olunan məqamlar erməniləri pərt vəziyyətinə saldı - desək, yanılmarıq. Bəyanatda deyilir ki, nə üç həmsədr ölkə, nə də başqa bir dövlət Dağlıq Qarabağı suveren və müstəqil dövlət kimi tanımır. Bu il iyulun 19-da həyata keçirilən bu prosedur Dağlıq Qarabağın yekun hüquqi statusunu və münaqişənin sülh yolu ilə həllinə dair cari danışıqların nəticəsini əks etdirmir. Regionun qüdrətli dövlətlərindən biri, həmsədr ölkələrdən Rusiyanın Xarici İşlər Nazirliyinin xüsusi nümayəndəsi Aleksandr Lukaşeviçin bəyanatı da erməniləri məyus etdi. O bildirdi ki, Rusiya Dağlıq Qarabağın müstəqilliyini tanımır. Rusiya bu münaqişənin nizamlanmasında vasitəçilik səyləri göstərir və münaqişənin BMT-nin Nizamnaməsi və Helsinki Yekun Aktı əsasında sülh yolu ilə həllinin tərəfdarıdır.

Ölkəmiz bütün diplomatik imkanlarını səfərbər edərək Ermənistanı daim beynəlxalq ictimaiyyət qarşısında ifşa edəcəkdir. Bu proses işğalçı dövlətin torpaqlarımızın 20 faizini azad etməsinədək davam edəcəkdir. Ermənistan beynəlxalq hüquq normaları çərçivəsində hazırlanmış böyük sülh razılaşmasına imza atanadək Azərbaycan diplomatiyası, necə deyərlər, həmişə onun başının üzərində domokl qılıncı kimi dayanacaqdır. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, son nəticədə ölkəmiz BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən 4 qətnamənin yerinə yetirilməsinə nail olacaqdır. Həmin qətnamələr isə Ermənistanın işğalçı qüvvələrinin ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir.

Qeyd etdiyimiz kimi, Avropa Şurasının, Avropa Parlamentinin qətnamələri, ATƏT-in qərarları, İslam Əməkdaşlıq Təşkilatının, digər təşkilatların qətnamələrində də bu, öz əksini tapmışdır. Onların hamısı eyni şeyi tələb edir - Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan Prezidenti beynəlxalq hüquq normalarını daim üstün tutan ölkəmizin öz ərazi bütövlüyünü bərpa etmək hüququ olduğunu bir daha xatırladaraq demişdir: "Bu, bizim suveren hüququmuzdur, dövlətimizin ərazi bütövlüyünün siyasi vasitələrlə deyil, açıq deyək, hərbi vasitələrlə bərpa edilməsi də bizim suveren hüququmuzdur. BMT Nizamnaməsinə uyğun olaraq bizim belə hüququmuz vardır. Biz sadəcə olaraq bundan istifadə etmək istəmirik. Ümid edirik ki, sağlam düşüncə qalib gələcək, Ermənistan tərəfi, nəhayət, qəti başa düşəcəkdir ki, münaqişə tənzimlənməsə onların bu regionda olması getdikcə mürəkkəbləşəcəkdir. Biz həm də vasitəçilərin - Minsk qrupunun, həmsədrlərin səylərinin fəallaşacağına, münaqişənin mümkün qədər tezliklə həll edilməsinə və vətəndaşlarımızın öz torpaqlarına qayıda biləcəyinə ümid edirik".

**Rauf KƏNGƏRLİ**

**"Xalq qəzeti".**-2012.-17 noyabr.-N 257.-S.6.

## İspaniya Senatında Azərbaycana həsr edilmiş konfrans keçirilmişdir

**Noyabrın 22-də İspaniya Senatında Azərbaycan ilə İspaniya arasında tərəfdaşlığın genişləndirilməsinə, habelə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün nəticələrinə həsr edilmiş "Azərbaycan bu gün Avropadadır. Azərbaycan ilə İspaniya arasında etimadın tənzimlənməsi" mövzusunda konfrans keçirilmişdir.**

Avronest Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı Elxan Süleymanovun təşəbbüsü və təşkilati dəstəyi ilə keçirilən tədbirdə Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənovun başçılıq etdiyi nümayəndə heyəti iştirak etmişdir.

Azərbaycan tərəfdən konfransda Azərbaycanın İspaniyadakı səfiri Altay Əfəndiyev, Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının qaçqınların, məcburi köçkünlərin problemləri, miqrasiya və beynəlxalq təşkilatlarla iş şöbəsinin müdiri Qurban Sadıqov, iqtisadi inkişaf nazirinin müavini Sevinc Həsənova, Avronest Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı Elxan Süleymanov, Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun sədri, Milli Məclisin deputatı Ayaz Orucov, deputatlar Qüdrət Həsənquliyev, Fazil Mustafa, Fərəc Quliyev, Zahid Oruc və Ceyhun Osmanlı iştirak etmişlər.

İspaniya tərəfdən konfransda 80 senator və deputat, 70-ə yaxın akademik, professor, media təmsilçiləri, qeyri-hökumət təşkilatlarının və vətəndaş cəmiyyətinin nümayəndələri iştirak etmişdir.

Tədbiri İspaniya Senatının vitse-prezidenti Xuan Xose Lukas açmışdır. O demişdir ki, Azərbaycan İspaniya üçün əhəmiyyətli ölkədir. İspaniya Azərbaycanın uğurlarını diqqətlə izləyir və ikitərəfli münasibətlərin inkişafında maraqlıdır.

Vitse-prezident konfrans iştirakçılarının diqqətinə çatdırmışdır ki, Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. Azərbaycan çox böyük iqtisadi potensiala malikdir və İspaniya şirkətləri Azərbaycana marağı artırmalıdırlar.

Vitse-prezident qeyd etmişdir ki, bu gün Azərbaycan dövləti Dağlıq Qarabağ münaqişəsindən əziyyət çəkir. Bu münaqişə nəticəsində ölkənin əraziləri işğal edilmiş, bir milyona yaxın insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, on minlərlə adam kütləvi şəkildə məhv edilmişdir. O, ümidvar olduğunu bildirmişdir ki, ATƏT-in Minsk qrupunun fəaliyyəti səmərəli olacaq və münaqişənin tezliklə tənzimlənməsinə xidmət edəcəkdir.

Xarici Əlaqələr və Əməkdaşlıq üzrə Komissiyanın sədri Alexandro Munoz-Alonso Aledo demişdir ki, konfransın əsas məqsədi ikitərəfli münasibətləri dərinləşdirməkdir. Azərbaycan coğrafi ölçülərinə görə kiçik ölkə olduğuna baxmayaraq, onun çox böyük potensialı vardır. Zəngin neft-qaz ehtiyatlarına malik olan Azərbaycan dövləti neft gəlirlərindən səmərəli istifadəni təmin edir. Komissiyanın sədri çıxışının sonunda vurğulamışdır ki, ikitərəfli münasibətləri möhkəmlətmək zəruridir. İspaniya Azərbaycana dost ölkə kimi həmişə onun yanındadır.

Avronest Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı Elxan Süleymanov konfransın təşkilatçılarına və iştirakçılarına nümayəndə heyəti adından təşəkkür edərək ispan və Azərbaycan xalqlarının ənənələri və mədəniyyəti arasında oxşar cəhətlər olduğunu qeyd etmişdir. O, əmin olduğunu bildirmişdir ki, bu səfər İspaniya-Azərbaycan ikitərəfli münasibətlərində yeni mərhələnin başlanğıcı olacaqdır.

E.Süleymanov Azərbaycanın tolerant ölkə olmasını, burada hər kəsin hər hansı məhdudiyyət olmadan öz dininə etiqad edə bilməsini vurğulayaraq bildirmişdir ki, ölkəmizdə bütün Cənubi Qafqazda ən qədim xristian kilsəsi, habelə katolik kilsəsi və sinaqoqlar fəaliyyət göstərir.

Azərbaycanlı deputat ölkəmizin tarixinə nəzər salaraq demişdir ki, dünyəvi, demokratik, hüquqi dövlət quruculuğu və Avropa təsisatlarına inteqrasiya məsələləri Azərbaycanın daxili və xarici siyasətində prioritet istiqamətlərdir. Qeyd edilmişdir ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində strateji rol oynayır.

Elxan Süleymanov iki xalqın tarixinin oxşar cəhətlərindən söhbət açaraq qeyd etmişdir ki, həm Azərbaycan, həm də İspaniya təcavüzkar separatçı rejimdən əziyyət çəkir. Lakin bu iki ölkənin əməkdaşlığının indiki səviyyəsi onların imkanlarına və potensialına müvafiq deyildir. İspaniya demokratiyanın genişlənməsi və möhkəmlənməsi, müvafiq təsisatların yaradılması sahəsində öz təcrübəsini bölüşə bilər.

Deputat Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə toxunaraq demişdir ki, Azərbaycanın ən böyük problemi onun ərazilərinin 20 faizinin Ermənistan tərəfindən işğal edilməsidir. Bu münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində tənzimlənməsi Azərbaycanın xarici siyasətinin əsas istiqamətidir. Münaqişə nəticəsində Azərbaycana 431,5 milyard dollar həcmində zərər dəymişdir.

Sonra 2011-ci ildə "Euronews" telekanalı tərəfindən hazırlanmış "Dağlıq Qarabağ: qaçqınların yanında" adlı videoreportaj nümayiş etdirilmişdir.

Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Həsənov konfransın təşkilatçılarına Azərbaycan hökuməti adından təşəkkür edərək Azərbaycanın tarixi barədə məlumat vermişdir.

Əli Həsənov demişdir ki, Azərbaycan tolerant ölkədir. Ərazilərimizin 20 faizinin işğal edilməsinə, bir milyon qaçqın və məcburi köçkünün olmasına baxmayaraq, Bakıda erməni kilsəsi indiyə qədər qorunub saxlanmışdır, halbuki Ermənistan tərəfindən işğal edilmiş ərazilər heç kəsin yaşaya bilməyəcəyi xarabalıqlara çevrilmişdir. İnfrastruktur dağıdılmış, qəbiristanlıqlar, məscidlər yerlə-yeksan edilmiş, toponimlər dəyişdirilmişdir. Əli Həsənov onu da qeyd etmişdir ki, onun valideynlərinin məzarları da işğal edilmiş ərazilərdədir.

Əli Həsənov xatırlatmışdır ki, 2002-ci ildə ulu öndər Heydər Əliyev Roma Papası II İohann Paveli qəbul etmiş, elə həmin vaxtda Azərbaycan Prezidenti Bakıdakı Roma Katolik kilsəsinə yeni məbəd tikintisi üçün torpaq sahəsi ayrılması barədə sərəncam vermişdir.

Baş nazirin müavini qeyd etmişdir ki, Azərbaycan xarici investisiyalar üçün açıq ölkədir, bizdə bunun üçün şəffaf şərait yaradılmışdır.

Əli Həsənov bildirmişdir ki, Prezident İlham Əliyev 2020-ci ilə qədər olan dövr üçün Azərbaycanın inkişaf strategiyasının işlənib hazırlanması barədə Sərəncam vermişdir. Bu strategiyaya əsasən Azərbaycanda imkansız adam qalmayacaq, qeyri-neft sektoru dinamik inkişaf edəcək, Azərbaycan həyat səviyyəsinin yüksək olduğu, inkişaf etmiş ölkələr sırasına keçəcəkdir.

Əli Həsənov Azərbaycanın Avropaya inteqrasiyası məsələsinə toxunaraq konfrans iştirakçılarının diqqətinə çatdırmışdır ki, ölkəmiz hələ XIX əsrin axırlarında Avropaya inteqrasiya etməkdə idi. O vaxt Nobel qardaşları Bakıda neft hasilatı ilə məşğul olur, ölkədə mədəni inteqrasiya prosesləri gedirdi. Azərbaycanda sənətkarlıq və üzümçülüklə məşğul olan almanlar yaşayırdı. XX əsrin əvvəlindən Azərbaycan artıq Avropa ölkəsi idi. Lakin inteqrasiya birtərəfli ola bilməz, o, qarşılıqlı olmalıdır. Azərbaycandan Avropaya enerji resursları nəql edilir, SOCAR neft şirkəti respublikanın hüdudlarından kənarda sərmayələr yatırır. Bir sözlə, Azərbaycanın Avropaya inteqrasiyası prosesi 100 illik tarixə malikdir və bu proses indi də davam edir.

Baş nazirin müavini Dağlıq Qarabağ münaqişəsi mövzusuna toxunaraq diqqətə çatdırmışdır ki, 200 illik tarixi olan bu münaqişə car Rusiyası dövründə fəallaşmışdır. Əli Həsənov demişdir ki, son 200 ildə Cənubi Qafqaz regionunda cərəyan edən mürəkkəb siyasi proseslər nəticəsində azərbaycanlılar dəfələrlə öz doğma yurdundan zorla qovulmuş, etnik təmizlənməyə və deportasiyaya məruz qalmışlar. Öz planlarını mərhələlər üzrə həyata keçirən ermənilər Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürmüşlər.

XX əsrin əvvəlində Dağlıq Qarabağ iki dəfə (1905-1907-ci və 1918-1920-ci illərdə) qanlı erməni-azərbaycanlı savaşlarının arenasına çevrilmişdir. Qədim tarixi və mədəni qaynaqları olan bu münaqişə "yenidənqurma" illərində (1987-1988) yenidən kəskinləşmişdir.

Əli Həsənov XX əsrin dəhşətli cinayətlərindən biri - 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərində törədilmiş soyqırımı barədə söhbət açmış, qeyd etmişdir ki, həmin gecə 613 nəfər dinc sakin, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca qətlə yetirilmişdir.

Bildirilmişdir ki, beynəlxalq qiymətləndirmə təşkilatının ilkin hesablarına görə bu münaqişə nəticəsində Azərbaycan iqtisadiyyatına təqribən 300 milyard ABŞ dolları dəyərində ziyan vurulmuşdur. Bir milyon qaçqın və məcburi köçkün daim Azərbaycan dövlətinin tam himayəsindədir. Ölkədə həyata keçirilən uğurlu iqtisadi islahatlar, neft strategiyası, bu istiqamətdə ayrılan vəsaitlərin həcmini vaxtaşırı artırmağa imkan verir. Baş nazirin müavini bildirmişdir ki, bütövlükdə ötən müddətdə 26 min qaçqın və məcburi köçkün ailəsi üçün 76 qəsəbə salınmışdır.

Hazırda ölkəmizdə 49 beynəlxalq və 43 yerli humanitar təşkilat xətti ilə bu sahədə müxtəlif layihələr həyata keçirilir. Belə təşkilatlardan biri də İspaniyanın 2000-ci ildən Azərbaycanda fəaliyyət göstərən "Aclığa qarşı hərəkat" beynəlxalq humanitar təşkilatıdır. Əli Həsənov bu təşkilatın xeyriyyəçilik fəaliyyətinə görə onun rəhbərliyinə təşəkkürünü bildirmişdir.

Baş nazirin müavini vurğulamışdır ki, Dağlıq Qarabağ münaqişəsi təkcə Azərbaycan üçün deyil, bütün region üçün, beynəlxalq birlik üçün təhlükə mənbəyidir. İşğal edilmiş ərazilərdə narkotiklər yetişdirilir. Beynəlxalq birlik bu fakta göz yummamalıdır, çünki həmin narkotiklər, ilk növbədə Avropaya daşınır.

Təəssüf ki, ATƏT, Avropa Şurası, BMT Təhlükəsizlik Şurası, İslam Əməkdaşlıq Təşkilatı, NATO Parlament Assambleyası kimi nüfuzlu təşkilatların qəbul etdiyi qətnamələr Ermənistan tərəfindən bu günə qədər yerinə yetirilməmiş, onun barəsində isə hətta veto da tətbiq edilməmişdir. Beləliklə, ədalətsizlik davam edir.

Baş nazirin müavini çıxışının sonunda ispaniyalı mütəxəssislərin Azərbaycanda həyata keçirilən nəqliyyat və tikinti layihələrində, habelə alternativ enerji mənbələrinin yaradılması üzrə layihələrdə iştirakının mümkünlüyünü diqqətə çatdırmışdır. O bildirmişdir ki, Azərbaycan bütün sahələrdə İspaniya ilə əlaqələrin inkişaf etdirilməsində maraqlıdır.

Sonra çıxış üçün söz Valensiya Katolik Universitetinin Beynəlxalq Strateji Araşdırmalar İnstitutunun direktoru Xesus Salvadora verilmişdir. O, Azərbaycanın tarixi barədə ətraflı məlumat vermişdir. 1988-ci ildə başlanmış münaqişə nəticəsində çoxlu insan itkisi olduğunu vurğulayan X.Salvador faciəli 20 Yanvar hadisələrinin və Xocalı soyqırımının qurbanlarından da danışmışdır.

X.Salvador vurğulamışdır ki, Azərbaycan Cənubi Qafqaz regionunda strateji rol oynayır. Müstəqillik əldə etdikdən sonra demokratiya yolunu seçmiş Azərbaycanın xarici siyasətinin əsas prioritetləri Azərbaycanın müstəqilliyinə qarşı yönəlmiş bütün təhlükələri aradan qaldırmaq, milli təhlükəsizliyi təmin etməkdir. X.Salvador konfrans iştirakçılarının diqqətinə çatdırmışdır ki, Azərbaycan enerji təchizatı sahəsində etibarlı tərəfdaşdır və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə öz töhfəsini verməyə hazırdır. O vurğulamışdır ki, Azərbaycan ilə diplomatik əlaqələrin genişləndirilməsi zəruridir.

Meksika Parlamentində Dağlıq Qarabağ münaqişəsinə dair dinləmələr aparılmasının tərəfdarlarından biri, Meksika Parlamentinin deputatı Xesus Ramirez Rangel öz çıxışında onun ölkəsindəki Azərbaycan səfirliyinin fəaliyyətindən razı qaldığını bildirmişdir. Xesus Ramirez Rangel siyasi sahədə əlaqələri genişləndirməyin vacib olduğunu bildirmişdir. O, bir məqamı da diqqətə çatdırmışdır ki, Meksika yalnız faktlara əsaslansa da, Ermənistan tərəfindən təzyiq halları mövcuddur. Münaqişənin dinc yolla tənzimlənməsinə üstünlük verən Meksikanın fikrincə, ədalət beynəlxalq təşkilatlar tərəfindən bu problemin həllinə dair sənədlər, qətnamələr qəbul olunmasını tələb edir. Meksikalı deputat Azərbaycanın öz sərhədlərini beynəlxalq hüquq normaları çərçivəsində bərpa olunmasını tələb etdiyini vurğulayaraq qeyd etmişdir ki, BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş, qoşunların işğal edilmiş ərazilərdən çıxarılmasını tələb edən dörd qətnamə Ermənistan tərəfindən hələ də həyata keçirilməmişdir və Meksika hökuməti həmin qətnamələrin müddəalarının yerinə yetirilməsini tələb edir. Bu təcavüzə son qoyulmalıdır. Ermənistan müharibədən imtina etməli və regionda sülh yaradılmasını dəstəkləməlidir. Xesus Ramirez Rangel demişdir ki, Meksika Parlamentində Dağlıq Qarabağ münaqişəsinə dair qətnamə qəbul edilməsi ölkənin yeni xarici siyasətinin əyani nümunəsi, fundamental və tarixi əhəmiyyətli hadisədir.

İqtisadi inkişaf nazirinin müavini Sevinc Həsənova Azərbaycanın iqtisadi vəziyyəti barədə məlumat vermişdir. O, qeyd etmişdir ki, XXI əsrin əvvəlində Azərbaycan regionda iqtisadi baxımdan dinamik inkişaf edən ölkəyə çevrilmişdir. Son bir neçə ildə Azərbaycan iqtisadiyyatının həcmi üç dəfə, ölkənin dövlət büdcəsi 13 dəfə artmış, yoxsulluq səviyyəsi 46 faizdən 7,6 faizə düşmüşdür. S.Həsənova vurğulamışdır ki, Azərbaycan Dövlət Neft Fondu neft gəlirlərinin səmərəli toplanması məqsədilə yaradılmışdır. Azərbaycanda həyata keçirilən islahatlar beynəlxalq təşkilatlar tərəfindən də bəyənilmişdir.

Nazir müavini Dağlıq Qarabağ münaqişəsi mövzusuna toxunaraq demişdir ki, 1,7 milyon hektar ərazi işğal altındadır, minlərlə abidə, ümumi sahəsi 9,1 milyon kvadratmetr olan 150 min yaşayış evi və mənzil dağıdılmışdır. S.Həsənova vurğulamışdır ki, Azərbaycanın işğal edilmiş ərazilərində fəaliyyət göstərən xarici şirkətlər barəsində müvafiq sanksiyalar tətbiq ediləcəkdir.

S.Həsənova İspaniya ilə iqtisadi əlaqələrin inkişaf etdirilməsinin zəruriliyini vurğulayaraq xatırlatmışdır ki, hazırda Azərbaycanda İspaniyanın beş məşhur şirkəti fəaliyyət göstərir.

Çıxışlardan sonra müzakirələr olmuşdur. Baş nazirin müavini Əli Həsənov çıxışlara münasibət bildirmişdir. Əli Həsənov Valensiya Katolik Universitetinin direktoruna Azərbaycanın tarixini və inkişafını təhlil etdiyinə görə təşəkkürünü bildirərək diqqətə çatdırmışdır ki, mümkün olan vasitələrdən istifadə etməklə regionda demoqrafik vəziyyəti dəyişmiş ermənilər Dağlıq Qarabağ əhalisinin 65 faizini təşkil edirdi. Azərbaycan Qərbin yolu ilə getmək niyyətində deyildir. Əli Həsənov qeyd etmişdir ki, Prezident İlham Əliyev beynəlxalq tədbirlərdə dəfələrlə bəyan etmişdir ki, Azərbaycan öz yolu ilə gedir.

Baş nazirin müavini Meksika parlamentinin deputatının çıxışını şərh edərək vurğulamışdır ki, Meksika senatının Dağlıq Qarabağ münaqişəsinə dair qərarı beynəlxalq hüquq normaları əsasında qəbul edilmişdir. Əli Həsənov diqqətə çatdırmışdır ki, Meksikada Azərbaycan-Meksika dostluq parkının, həmin parkda ulu öndər Heydər Əliyevin büstünün, habelə Xocalı qurbanlarının xatirə memorialının açılışı olmuş, bu memorial üzərində "soyqırımı" sözü yazılmışdır. Bundan dərhal sonra Ermənistanın xarici işlər naziri E.Nalbandyan Meksikaya səfər etmiş və onlara təzyiq göstərməyə çalışmışdır. Bu faktı Azərbaycan diplomatiyasının uğuru adlandıran Əli Həsənov Meksika Senatına təşəkkürünü bildirmişdir.

Sonra Əli Həsənov suallara cavab vermişdir.

Tədbirdə çıxış edən Arkadio Diaz-Tejera Dağlıq Qarabağ probleminə toxunaraq vurğulamışdır ki, əgər BMT-nin qəbul etdiyi, ədalətin bərpa olunmsı məqsədi güdən qətnamələri yerinə yetirilmirsə, onları qəbul etmək nəyə lazımdır. O bildirmişdir ki, dondurulmuş münaqişələrin həllində mühüm rol oynamalı olan İspaniya Senatı münaqişəyə dair müvafiq qətnamə qəbul etməlidir.

Senatın nümayəndəsi Çikullio konfransa yekun vuraraq qeyd etmişdir ki, BMT-nin qətnamələri yerinə yetirilmir, Madrid prinsipləri həyata keçirilməli, qaçqınlar və məcburi köçkünlər öz doğma yerlərinə qayıtmalıdırlar. O bildirmişdir ki, İspaniya Senatı hüquqi qərar qəbul edəcəkdir. Ermənistan öz qoşunlarını

Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarmalıdır. Axı, söhbət bir milyon insanın hüquqlarının pozulmasından, onların yaşayış şəraitindən gedir.

Baş nazirini müavini Əli Həsənov İspaniya Senatında aparılmış dinləmələrin faydalı olmasını qeyd edərək demişdir ki, Azərbaycan nümayəndə heyəti bu bir neçə saat ərzində Azərbaycan reallıqları barədə söhbət açmağa, ölkəmizin ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verməyə çalışmışdır. Təəssüf ki, cəzasızlıq şəraiti münaqişələrin genişlənməsinə, qaçqınların sayının artmasına, günahsız insanların ölümünə gətirib çıxarır. Azərbaycan bu münaqişənin beynəlxalq hüquq normaları və ərazi bütövlüyü çərçivəsində dinc yolla tənzimlənməsinin tərəfdarıdır.

**Nigar Hüseynova.**

**"Xalq qəözeti".-**2012.-24 noyabr.-N 262.-S.5.

## Dağlıq Qarabağın digər həlli variantları

**Dağlıq Qarabağ ətrafında Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün istər hər iki respublikanın siyasi dairələrində, istərsə də xarici diplomatlar arasında müəyyən təkliflər və tövsiyyələr irəli sürülmüşdür. Vaxtilə düşmən ölkənin - Ermənistan Respublikasının eks prezidenti L.Ter-Petrosyan "Respublika Armeniya" qəzetində "Müharibə, yoxsa sülh: düşünmək zamanı" adlı məqalə çap etdirərək orada aşağıdakı tezisləri öz silahdaşlarının və erməni ictimaiyyətinin diqqətinə çatdırdı:**

1. Münaqişənin nizama salınmayacağı təqdirdə, Ermənistan Respublikası və Dağlıq Qarabağ bir il ərzində nəzərə çarpacaq dərəcədə zəifləyəcək;
2. Beynəlxalq ictimaiyyət Dağlıq Qarabağ ətrafında yaranmış vəziyyətlə həmişəlik barışmayacaq, çünki bu vəziyyət təhlükəsizliyə və regional əməkdaşlığa, habelə, Qərbin neft maraqlarına təhlükə törədir;
3. Bizim meydan oxuduğumuz beynəlxalq ictimaiyyət Dağlıq Qarabağın əleyhdarıdır. Qarabağ müharibəni deyil, döyüşü udmuşdur;
4. Əvvəlcə paket, sonra mərhələli həll təkliflərini rədd etməklə, indi isə yenidən paket həllə qayıtmağı təklif etməklə Dağlıq Qarabağ tərəfi həm özünü, həm də Ermənistanı namünasib vəziyyətdə qoymuşdur;
5. Amerika Konqresindəki lobbiçilik hərəkatının öz sərhədləri var - həmin hərəkat ABŞ-ın milli maraqlarına toxunan yerdə dayandırılır;
6. Bu gün əsas məsələ kəsilmiş danışıqları bərpa etməkdir. Bunun üçün də gələcək danışıqlar üçün əsas olan sənədin layihəsini razılaşdırmaq lazımdır.

Həmin ərəfədə Rusiyanın kütləvi informasiya vasitələrin verdiyi müsahibədə Ermənistan Respublikasının prezidenti özünün iki əsas tezisini irəli sürmüşdü:

1. Əgər Qarabağ böhranı aradan qaldırılmazsa, yalnız Dağlıq Qarabağın deyil, Ermənistan Respublikasının da strateji və iqtisadi vəziyyəti yaxşılaşdırıla bilməz. Ermənistanın xarici aləmlə əlaqələri məsələsi həll edilmədən erməni millətinin və erməni dövlətinin inkişafı mümkün deyil.
2. Azərbaycanın ərazi butövlüyünün de-yure qorunub saxlanması ilə bir sırada Dağlıq Qarabağın faktiki müstəqilliyinin təmin edilməsinin Azərbaycan tərəfindən həyata keçirilməsi başqa oxşar münaqişələrin də həlli üçün yeni məkanlar açandır.

Lakin prezident L.Ter-Petrosyanın danışıqları davam etdirməklə bağlı fikirləri qondarma DQR liderləri tərəfindən kəskin etirazla qarşılandı. Növbəti dəfə ermənilərin nazı ilə oynayan ATƏT-in Minsk Qrupunun həmsədrləri 1997-ci il dekabrın 2-də münaqişənin mərhələli həlli ilə bağlı təklifin yenidən işlənmiş variantını tərəflərə təqdim etdi. Burada artıq Dağlıq Qarabağın da münaqişə tərəfi kimi tanınması barədə təklif irəli sürülürdü. Azərbaycan həmin versiyanı qəbul etmədiyini, yalnız 19 sentyabr tarixli layihə əsasında danışıqlara başlamağın mümkün olduğunu bilirdi.

İngilis siyasətçi alimi C.Qordonun planı xüsusi maraq doğurur. Bu plana əsasən Zəngəzur Azərbaycanla birləşir və əvəzində Dağlıq Qarabağ Ermənistana verilir. Lakin bu erməniləri razı salmadı, çünki onda Azərbaycan bir növ Naxçıvanla birləşib Türkiyəyə birbaşa çıxış əldə edir. Bu isə Türkiyəni birbaşa Orta Asiya Türk Respublikaları ilə birləşməsinə və nəhayət Turan dövlətinin yaranmasına səbəb ola bilər. İkinci bir tərəfdən Ermənistanın xarici aləmə, xüsusən, İrana sərhədləri bağlı olur və bir növ, anklava çevrilmiş olur. Digər tərəfdən, ermənilərin gələcək strateji planlarına Naxçıvanı da ələ keçirmək daxil olduğu üçün onun Azərbaycanla birləşməsini və Azərbaycanla Türkiyə arasında bir körpü rolu olmasına razılıq vermirlər. Bu plan, habelə, İran və Rusiyanın siyasi dairələri tərəfindən qəbul olunmur, çünki onlar da regionda güclü Turan dövləti yarana bilməsindən ehtiyat edirlər.

Bu problem ətrafında Ə.Qəşəmoğlunun təklifləri də maraq doğurmaya bilmir. O, "Dağlıq Qarabağ problemi və onun həlli" məqaləsində yazır: "... Beynəlxalq aləmin Dağlıq Qarabağın bizim dövlətin tərkibində qalmasına kömək etməsi üçün respublikanın imici Dağlıq Qarabağın imicindən yüksək olmalıdır." Müəllif problemin həlli üçün aşağıdakıları təklif edir: 1) problemin həlli üçün həm Azərbaycanda, həm də Ermənistanda rəy formalaşdırmalıdırlar və beynəlxalq təşkilatlar problemin həllinə kömək etməlidirlər; 2) Ermənistan və Azərbaycan əhalisi biri-birinə yaxınlaşmalıdır, çünki belə bir yaxınlaşma olmadan problemin həllindən danışmaq qeyri- mümkündür; 3) Ermənistan əhalisi içərisində təbliğatı gücləndirmək və onu belə bir fakt qarşısında qoymaq lazımdır ki, Dağlıq Qarabağ qədim Azərbaycan torpağıdır və onun əlindən alına bilməz, eyni zamanda, Azərbaycan əhalisini də inandırmaq lazımdır ki, Dağlıq Qarabağa geniş mənada siyasi müstəqillik verilməlidir; 4) Həm Ermənistan, həm də Azərbaycan əhalisinə deyilməlidir, bu münaqişədə 3- cü tərəf də var, amma bu üçüncü tərəfin adını deməmək lazımdır, yoxsa o diqqət mərkəzinə çevrilə bilər; 5) Ermənilərin və azərbaycanlıların ayrı-ayrı sahələrdə çalışan adamlarla görüşməli, onlar arasında müəyyən əlaqələr yaradılmalıdır; 6) Azərbaycan ordusu gücləndirilməlidir və s."

AMEA-nın müxbir üzvü S.Xəlilovun təklif etdiyi variantında diqqətini cəlb edir. Alim yazır ki, hüquqi müstəvidə yanaşdıqda, yenə də ərazi bütövlüyünün toxunulmazlığı prinsipinə görə dünya ictimaiyyəti Ermənistanı təcavüzkar bir ölkə kimi pisləməli, ona qarşı sanksiyalar tətbiq olunmalı idi. Lakin ermənilər burada da manevr edərək millətlərin öz müqəddəratını təyin etmək hüquqi ilə fikirləri çaşdırır, guya vaxtilə Dağlıq Qarabağda ermənilərin hüquqlarının tapdalandığını, onların milli mənliynin təzyiq altda qaldığını və xilas üçün müstəqilliyin yeganə vasitə olduğunu "isbat" etməklə ərazi toxunulmazlığı ilə milli özünütəsdiq hüquqi arasında paritet yaratmağa çalışırlar.

Digər tərəfdən də, ərazinın əslində guya ermənilərə məxsus olması və qırmızı inqilabın ədalətsiz qərarı ilə Azərbaycana verilməsi və indi tarixi səhvləri düzəltməyin labüdlüyü barəsindəki hədyanlarla avropalıları "çaşdırırlar". Əlbəttə, Avropanı çaşdırmaq o qədər də asan deyil. Onlar həqiqəti bilməmiş olmazlar. Lakin görünür, məhz həqiqəti görməkdə maraqlı olmadıqlarından həqiqətə bənzədilmiş versiyaları həqiqət kimi qəbul etməyə hazırdırlar.

Beləliklə, hüquqi müstəvidə də ermənilər böyük səylərlə tarix və ictimai rəylə manipulyasiya edərək müəyyən paritet yaratmağa nail olublar. Siyasi müstəviyə gəldikdə isə, burada həqiqət daha az rol oynayır.

Siyasəti fəlsəfədən fərqləndirən də budur ki, o, hadisələrin özündən çox, onların dünya birliyinə necə təqdim olunmasına, artıq formalaşmış ictimai rəyə, dövlətlərin daha qlobal mənafelərinə söykənir.

Bəli, bu gün reallıq bundan ibarətdir ki, Azərbaycanın torpaqları işğal olunmuşdur. Bir milyon nəfərədək qaçqın və məcburi köçkün vardır və onlar ən elementar insan hüquqlarından belə məhrum olmuşlar. Nə biz, nə də insan hüquqlarına hörmətlə yanaşan istənilən beynəlxalq təşkilat, tərəqqipərvər qüvvələr yüz minlərlə insanın belə acınacaqlı vəziyyətinin uzun müddət davam etməsinə razı ola bilmərik.

Lakin reallıq həm də bundan ibarətdir ki, Cənubi Qafqazda sabitlik olmadan və qonşu dövlətlərlə iqtisadi əlaqələr qurmadan Ermənistan iqtisadi cəhətdən inkişaf edə bilmir, iqtisadi çətinliklər keçirir. Bu cür yaşamaq onlara da sərf etmir. Avropa və Amerika Ermənistanı bu vəziyyətdən çıxarmaq və Qafqazdakı iqtisadi layihələrdə onların iştirakını təmin etmək məqsədi ilə bizə təzyiq göstərirlər. Lakin təəssüf ki, bunun müqabilində onlara BMT-nin qərarlarını yerinə yetirmək istiqamətində heç bir təzyiq göstərilmir. Münaqişənin həlli üçün heç şübhəsiz, ilk növbədə, böyük dövlətlərin mövqeyi daha rasional olmalıdır. Əlbəttə, əgər onlar münaqişənin aradan götürülməsini həqiqətən istəyirlərsə.

Qarşılıqlı inam yaranmadan, sülh naminə hər iki tərəfdən real addımlar atılmadan, mövcud siyasi və psixoloji gərginlik zəiflədilmədən Dağlıq Qarabağın statusu məsələsi həll edilə bilməz. Hətta sənədlərdə həll olunsa da, gerçəklikdə həll edilə bilməz.

Ən optimal yol, kompromis variantı, bu ola bilərdi ki, birinci mərhələdə Dağlıq Qarabağdan kənardakı rayonların əraziləri boşaldılsın, Dağlıq Qarabağın sərhədləri boyunca bufer zonası yaradılsın və əvəzində biz Ermənistanla iqtisadi əlaqələr quraq. Xalqlar arasındakı psixoloji gərginlik heç olmazsa bir qədər yumşalsın və yaranmış qarşılıqlı inam şəraitində Dağlıq Qarabağın statusu məsələsi müzakirə olunsun. Məncə, biz Dağlıq Qarabağın ermənilər yaşayan hissəsinin statusu ilə əlaqədar hər cür kompromisə hazır olmalıyıq. Əsas məsələ heç olmazsa, azərbaycanlılar yaşayan Şuşanın Dağlıq Qarabağdan çıxarılması olmalıdır. Şuşa erməni muxtariyyətinin tərkibində qalmamalıdır. Çünki onların da öz müqəddəratını təyin etmək hüququ vardır və bu hüquq beynəlxalq təşkilatlar tərəfindən qorunmalıdır. Laçın dəhlizinə gəldikdə isə, biz onu ancaq Mehri dəhlizi müqabilində verməyə razı ola bilərik. Keçmiş səhvlərə görə daha böyük məhrumiyyətlərə düçar olmamaq üçün kompromis yolu qaçılmazdır. Unutmaq olmaz ki, bizim ən böyük nailiyyətimiz müstəqilliyimizdir və ancaq müstəqilliyə xələl gətirən məsələlərdə kompromis yolverilməzdir.

Fəlsəfə elmləri doktoru, professor Ə.Tağıyev aşağıdakıları təklif edir: Bizə belə gəlir ki, Yuxarı Qarabağda erməni - Azərbaycan münaqişəsini aradan qaldırmaq üçün bu təhlükədə Qafqazda siyasi- hərbi və ideoloji stabilliyə nail olmaq lazımdır. Bunun yolları aşağıdakılardır:

- Qafqaz təhlükəsizlik kompleksi kimi;
- Qafqaz regionunun birliyi və vəhdəti;
- Qafqazın bölünməzliyi: onların dostluğu və həmrəyliyi;
- Xarici hərbi qüvvələrin və bazaların Qafqazdan uzaqlaşdırılması;
- Qafqazdaxili problemlərin qafqazlıların özləri tərəfindən həll edilməsi;
- Qafqaz xüsusi, əlahiddə, özünəməxsus xüsusiyyətləri olan sivil bir regiondur;
- Qafqaz öz problemlərini özü həll edə bilər;
- Xaricilərin Qafqazda xüsusi maraqları olduğu üçün onlar buradakı münaqişəli vəziyyətlərin stabilləşməsi tərəfdarı deyillər və hər an bu münaqişələrdən öz mənafeləri naminə bir kart kimi istifadə etməyə çalışırlar;
- Yığcam "Qafqaz evi"nin yaradılması onun vahid iqtisadi, siyasi və hərbi zonaya çevrilməsi;
- Qüvvələr nisbətinin tarazlaşdırılması, prioritetin əldə olunması, yüksək dərəcədə silahlanmaya yol verilməməsi.

Bunlar Qafqazdakı münaqişəli vəziyyətlərin aradan qaldırılması üçün zəruri olan amillərdir.

Minsk Qrupu və onun üzvləri olan ABŞ, Fransa və Rusiya Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll olunması istiqamətində bir sıra konkret təkliflərlə çıxış etmişlər. Bu təkliflərdən bəziləri Ermənistan, bir qismi isə Azərbaycan tərəfindən onların mənafe və maraqları üçün uyğun gəlmədiyindən qəbul olunmamışdı.

**VAHİD ÖMƏROV,**
fəlsəfə üzrə fəlsəfə doktoru

**"Səs".-**2013.- 24 iyul.- N 134.- S.15.